www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 yanvar 2015-ci il Cümə № 15 (6043) Qiymət 40 qəpik

**Xəbər**

## Qayınata əvvəl gəlinini, sonra özünü öldürdü

yazısı səh.15-də

**Gündəm**

### Qarabağ danışıqlarında yeni mərhələnin anonsu verildi



Türkiyənin və yaxud türk diasporunun ən güclü olduğu Almaniyanın Minsk Qrupu həmsədrliyinə gətirilməsi tarixi ədalətin bərpasına işləyərdi; vasitəçilikdə balans yaratmaq zamanı yetişib

yazısı səh.5-də

### Prezident Davos Forumunda çıxış edib

yazısı səh.8-də

### Vəkilləri Əli İnsanovla görüşə buraxılmadı

yazısı səh.4-də

### 25 il öncə ABŞ senatorlarının Qorbaçova müraciəti nələri ortaya çıxarıb?

yazısı səh.12-də

### Müstəqillik əleyhdarı olan deputatın 20 Yanvarla bağlı "axıtdığı" göz yaşları...

yazısı səh.13-də

### Umayra Tağıyeva işdən çıxması haqda danışdı

yazısı səh.6-da

### İqtisadçılar hökumətə çıxış yolları göstərdi

yazısı səh.7-də

### Gültəkin Hacıbəylinin müstəntiqlə çəkişməsi jurnalistlərə yönəldildi

yazısı səh.6-da

*Ekspert:*

### "Manat seçkiyədək sabit qalacaq"

yazısı səh.10-da

### Elşad Abdullayev həbs edilmək təhlükəsindən danışdı

yazısı səh.5-də

### Lamiyə Quliyevanın saxlandığı "zon"un eks-rəisindən sensasion açıqlama

yazısı səh.15-də

## Bakının ABŞ və Avropa ilə münasibətlərində mühüm gəlişmə

# QƏRB AZƏRBAYCANLA YANDIRILMIŞ KÖRPÜLƏRİ BƏRPA EDİR - SENSASİYA

Prezident İlham Əliyevin Almaniya səfəri bu yöndə "dönüş nöqtəsi" ola bilər; Berlindən verilən mesajlar təkcə Rusiyaya ünvanlanmayıb; ekspertlərin də öz qənaəti var...




yazısı səh.9-da

## Nazir oğlunun səbəb olduğu İsmayıllı üsyanından iki il ötür

Hadisələrin miqyası o qədər böyümüşdü ki, icra başçısı vəzifəsindən azad edildi, 10 ay sonra isə Füzuli Ələkbərov nazir postundan uzaqlaşdırıldı

yazısı səh.3-də



*Əli Həsənov:*

### "Azərbaycana ağıl öyrətməsinlər..."

yazısı səh.7-də



*Bəxtiyar Hacıyev:*

### "Rusiyanın ""beşinci kolonu" Qərblə münasibətləri pisləşdirir"

yazısı səh.11-də



*Arif Hacılı:*

### "Həyatımı bu cür yaşadığım üçün heç bir peşmançılığım yoxdur"

yazısı səh.4-də

## Əliyev, Ərdoğan və Marqvelaşvili Bakıda görüşəcək



**Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakıda sammit olacaq. Virtualaz.org xəbər verir ki, bu barədə Gürcüstan prezidenti administrasiyasının rəhbəri Giorgi Abaşişvili bildirib. O deyib ki, üç ölkə prezidentlərinin görüşü ənənəvi xarakter alıb və Gürcüstanın geosiyasi rolunun gücləndiyini göstərir.**

Ötən il bu formatda sammit ilk dəfə Tiflisdə keçirilib, bu il prezidentlər Bakıda, gələn il Ankarada bir araya gələcəklər. Abaşişvili deyib ki, Gürcüstan Azərbaycan və Türkiyə ilə münasibətlərə böyük önəm verir.

## Sevinc Osmanqızının məhkəməsi qapalı keçiriləcək

### “Əgər məni nədəsə günahlandırırlarsa, bunu ictimaiyyətin gözü qarşısında etsinlər”

**Yanvarın 22-də Nərimanov Rayon Məhkəməsində hakim Məzahir Sadıqovun rəhbərliyi ilə jurnalist Sevinc Osmanqızının məhkəmə iclası keçirilib. “Qafqazinfo”nun prosesi izləyən əməkdaşının verdiyi xəbərə görə, S.Osmanqızının vəkili Tamilla Ələkbərova çıxış edərək bildirib ki, müvəkkili iclasda iştirak edə bilməyəcək.**

Azər Tağıyevin vəkili çıxış edərək S.Osmanqızının iştirakı olmadan da iclasın keçirilməsinə razı olduqlarını bildirib. Vəkil deyib ki, bu məhkəmə işinin ictimai tərəfi yoxdur, sırf şəxsi məsələdir. Hakim məhkəmənin qapalı keçirilməsinə qərar verib.

Növbəti məhkəmə iclası fevralın 3-nə təyin edilib.

Sevinc Osmanqızı özünə qarşı açılan cinayət işinin qapalı keçirilməsi qərarını pisləyib. “Yeni Müsavat”a açıqlamasında S.Osmanqızı bildirdi ki, bu, cinayət işini ictimaiyyətdən gizli saxlamaq, bağlı qapı arxasında qərar qəbul etməkdən ötrüdür: «Mənim ictimaiyyətdən heç bir gizli əməlim yoxdur. Bütün həyatımı Azərbaycana həsr etmişəm. Əgər məni nədəsə günahlandırırlarsa, bunu ictimaiyyətin gözü qarşısında etsinlər. Bu, siyasi motivlərlə açılan cinayət işidir və onun məqsədi məni qorxutmaq, jurnalist kimi susdurmaqdır. Müstəqil rəy sahibi olan jurnalistlərə qarşı bu cür təqib kampaniyaları yolverilməzdir”.

❑ **Sevinc TELMANQIZI**

## Bu gün sulu qar və qar yağacaq

**Yanvarın 23-də Bakı və Abşeron yarımadasında hava şəraitinin buludlu olacağı, arabir yağış yağacağı, günün ikinci yarısında dəyişkən buludlu olacağı gözlənilir. Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosuna istinadən bildirir ki, havanın temperaturu gecə 1-3 dərəcə, gündüz 6-9 dərəcə isti olacaq.**

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda sulu qar və qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 5-10 dərəcə, dağlarda gecə 2-7 dərəcə şaxta, gündüz 2-7 dərəcə isti olacaq.

Tibbi meteoroloji proqnoza gəlincə, yaxın 2 gün ərzində Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü nisbətən əlverişli olsa da, rütubətliliyin çox olması və buludlu hava şəraitinin üstünlüyü bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

## Bakıda “Yehova şahidləri” təriqətini təbliğ edən iki nəfər saxlanıldı

**Paytaxt sakinlərindən qadağan olunmuş kitablar götürülüb. APA-nın Daxili İşlər Nazirliyinə istinadən verdiyi məlumata görə, yanvarın 21-də Qaradağ rayonunun Lökbatan qəsəbəsində yerləşən ticarət mərkəzində qəsəbə sakinləri Məhluqə Əhmədova və İsmayıl Bağırov “Yehova şahidləri” dini təriqətini təbliğ etdikləri üçün Qaradağ Rayon Mühafizə Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıblar. Onlar Qaradağ Rayon Polis İdarəsinin 10-cu polis bölməsinə təhvil veriliblər.**

Saxlanılan şəxslərdən təbliği və yayılması qanunla qadağan olunmuş 10 ədəd dini kitab götürülüb və barələrində İnzibati Xətalar Məcəlləsinin 299-cu maddəsinə əsasən protokol tərtib edilib.

Virtualaz.org xüsusi vurğulayır ki, bu saxlanılma Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının Demokratiya Naminə Avropa Fondunun nümayəndələrini qəbul etdiyi bir vaxta təsadüf edib.

Yeri gəlmişkən, fondun rəhbəri Roberta Bonazzinin, əməkdaşları Tomasso Virgili və Demir Murat Seyrekin iştirak etdikləri qəbulda M.Qurbanlı bildirib ki, dünyəvilik və tolerantlıq Azərbaycan xalqının təfəkkür tərzidir: “Azərbaycanda bütün konfessiyalar dinc şəraitdə fəaliyyət göstərir. Bunu heç bir cərəyan, heç bir qüvvə dəyişə bilməz. Bizim bu təcrübə - multikultural və tolerant cəmiyyətimiz Avropada da təşviq edilə bilər”.

# İntiqam Əliyevin vəkilinin hesabı bağlandı

### Şəhla Hümbətova: “Mən də ”N 5“ siyahısındayam...”

**Hazırda həbsdə olan hüquq müdafiəçisi İntiqam Əliyevin vəkili Şəhla Hümbətovanın bank hesabı bağlanıb. Bu barədə vəkilin özü facebook səhifəsində məlumat verib. Şəhla Hümbətova bildirib ki, yanvarın 19-da “Unibank”da olan hesabdan pul çıxartmaq istəyərkən imtina edilib.**

Vəkil problemlə əlaqədar banka müraciət edib, ancaq bank işçisi bildirib ki, onun hesabı blok olunub. Ş.Hümbətova baş verənlərlə bağlı facebook statusunda yazır: “Səbəbini isə izah edə bilmədi. Aydınlaşdırıb məlumat verəcəyini dedi. Hələ də nə hesabın dondurulma səbəbi deyilir, nə də ki pul qaytarılır. ”Unibank"ın “Neftçilər” filialının meneceri “iki gün gözləyin, baş ofislə araşdırıb məlumat verəcəyik” cavabını verdi".



**Şəhla Hümbətova musavat.com-a açıqlamasında bank hesabında yanvarın 19-dan etibarən problem yarandığını söyləyib:** “Bu proses yanvarın 19-dan davam edir. Həmin gün pulumu çıxara bilmədim. Bu gün yenə banka getdim. Problemin davam etdiyini gördüm. Bununla bağlı narazılığımı bildirdim. Məhkəmə və mətbuata müraciət edəcəyimi dedim. Bankdan ayrılandan az müddət sonra zəng edib dedilər ki, gəlin məsələni araşdıraq. Bəlkə də texniki problemdir. Bankda da dedim ki, texniki problem uzağı 1 saat çəkər. Özləri də etiraf etdilər ki, onlara məlum deyil. Əgər problem həll olunsa, məbləğin hamısını çıxaracam ki, bir daha belə hadisələrlə üzləşməyim. Əlimdə bir fakt olmadığına görə nəsə bir fikir söyləmək çətindir. Əgər problem həll olunmasa, məsələnin üstünə gedəcəm”.

**Vəkil yanvarın 19-da Tiflisdən gələrkən aeroportda yoxlanılmasından da danışdı:** “Yoxlanış zamanı əlimdə bank kartı görən qız bu barədə rəisə məlumat verdi. Rəis də hansı bankın olduğunu soruşdu. Qız ”Unibank" olduğunu dedi. Bundan şübhələnib aeroportdan birbaşa banka getdim. Çünki bilirdim ki, son vaxtlar çox adamın bank hesabları dondurulub. Banka getdiyim zaman hesabımın bloklandığını gördüm. İndi bilmirəm ki, bu təsadüfdür, yoxsa nədir?"

**Şəhla Hümbətova sentyabr ayından etibarən xaricə gedib qayıdanda ciddi yoxanıldığını bildirdi:** “”N-5" deyilən siyahı var. Bu siyahıda nəzarətdə olan vəkil, ictimai-siyasi fəalların adları var. Mən həmin siyahıdayam".

**Vəkil baş verənlərin İntiqam Əliyevlə bağlı olması ehtimallarının yüksək olduğunu da qeyd etdi:** “Boş yerə belə problemlər yaranmaz. Çox güman ki, indi pullarımın haradan gəlməsini yoxlayırlar. Görsünlər hara ilə əlaqələndirirlər. Amma məndə elə bir şey yoxdur. Heç yerdən pul almıram. Şəxsi öz hesabımdır”.

❑ **Cavanşir ABBASLI**

## Ermənistan parlamentindəki qapalı dinləmələrdə qalmaqal

**Ermənistan parlamentində Gümrü faciəsi ilə bağlı dinləmələr qalmaqalla müşayiət olunub.**

ANS PRESS-in məlumatına görə, Gümrü faciəsinə həsr olunmuş dinləmələrdə “Çiçəklənən Ermənistan” fraksiyasının katibi Naira Zoqrabyan sərt çıxış edib. O, dinləmələrin saat yarım nəzərdə tutulmasına etiraz edib. “Belə qısa vaxt ərzində bu cür vacib məsələni əhatə etmək mümkün deyil. Bu məsələ üçün dinləmələrə saat yarım ayrılması müzakirələrin görüntü xatirinə təşkil edildiyini göstərir”, - deyə Naira Zoqrabyan bildirib.

“İrs” fraksiyasının rəhbəri Ruben Akopyan isə müzakirələrin keçirildiyi zalın kiçikliyindən şikayət edərək dinləmələr üçün başqa məkanın seçilməsinin vacibliyini bildirib.

Dinləmələr sonadək hakimiyyətin ünvanına sərt ittihamlarla yadda qalıb. Spiker deputatları sakitləşdirərək dinləmələrin yenidən təşkil ediləcəyini desə də bu heç nəyi dəyişməyib.

Qeyd edək ki, Ermənistan İstintaq Komitəsi Valeri Permyakova qarşı cinayət işi qaldırıb. Komitə onu Ermənistan Cinayət Məcəlləsinin 104-cü maddəsi ilə istintaqa cəlb etmək istəyir. Amma Moskva buna razılıq vermir. Rusiyanın 5-ci qarnizon məhkəməsi əsgərə qarşı Rusiya Federasiyası Cinayət Məcəlləsinin iki maddəsi əsasında qətlə və fərariliyə görə cinayət işi qaldırılıb.

Valeri Permyakov yanvarın 12-də Gümrü şəhərində Avetisyan ailəsinin 6 üzvünü qətlə yetirib. Yalnız 6 aylıq Seryoja sağ qalıb. Ancaq sonradan o da ölüb.

Valeri Permyakovu Ermənistan - Türkiyə sərhədində yerləşən Bayandur kəndində Rusiya sərhədçiləri tutub.

## Müdafiə Nazirliyi erməniləri yenə yalan yaymaqda suçladı

**Müdafiə Nazirliyi Ermənistanın kütləvi informasiya vasitələrində guya Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən cəbhədə təxribat törədilməsi və itki verməsi barədə yayılan xəbərləri təkzib edib.**




Virtualaz.org-un nazirliyin saytına istinadən məlumatına görə, düşmən tərəfinin kütləvi informasiya vasitələrinin guya yanvarın 22-nə keçən gecə Silahlı Qüvvələrimizin bölmələri tərəfindən cəbhədə təxribat törədilməsi və itki verməyimiz barədə yaydıqları məlumatlar yalandır.

Müdafiə Nazirliyi bildirir ki, Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib: “Azərbaycan əsgəri cəsarətlə düşməni məhv edərək, bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir”.

## VHM ABŞ-Azərbaycan münasibətlərindən narahatdır

**21 yanvar 2015-ci ildə Vətəndaş Hüquqlarının Müdafiəsi Naminə Hüquq Müdafiə Təşkilatının ofisində Azərbaycan-ABŞ münasibətlərinə dair dəyirmi masa keçirilib. Tədbirdə çıxış edən VHM sədri Elnur Məmmədli bildirib ki, Azərbaycan-ABŞ münasibətlərində yaranmış gərginliyin aradan qaldırılması tərəflərin hər ikisi, xüsusilə Azərbaycan üçün lazımlıdır. O daha sonra bildirib ki, Qafqaz kimi geosiyasi maraqların toqquşduğu coğrafi məkanda Azərbaycanın həm ABŞ, həm də Avropa ölkələri ilə səmimi münasibətlərini qoruyub saxlaması həyati əhəmiyyət kəsb edir.**

Daha sonra çıxış üçün söz alan VHM sədrinin beynəlxalq əlaqələr üzrə müavini Tural Əliyev bildirib ki, Qərb modelini seçən Azərbaycan üçün demokratik prinsipləri prioritet hesab edən bütün dövlətlərlə, o cümlədən də demokratiyanın beşiyi olan Amerika ilə səmimi münasibətləri qoruyub saxlamaq vacibdir.

Tədbirin sonunda dəyirmi masa iştirakçıları bu məsələyə dair bəyanat qəbul ediblər.

**Başsağlığı**

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı AXCP sədrinin müavini Gözəl Bayramlıya anasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## Müsavat Divanının üzvü AXCP ilə görüşə qarşı çıxdı

**Müsavat Partiyasının başqanı Arif Hacılının seçki ilində əməkdaşlıq üçün AXCP sədri ilə görüşməsinə ikincinin funksionerlərinin “Əli Kərimli siyasi mədəniyyət xatirinə Arif Hacılının görüş üçün müraciətini dəyərləndirdi, Müsavat hansı üzlə əməkdaşlıq təklifi verir” kimi rəyləri əməkdaşlıq perspektivinə zərbə vurub. Artıq Müsavatın rəhbərliyinə daxil olan bir sıra şəxslər AXCP ilə əməkdaşlığa ehtiyac olmadığını dilə gətirməkdədirlər.**

Müsavat Divanının üzvü Razim Əmiraslanlı “Yeni Müsavat”a bildirib ki, Müsavatın əməkdaşlıq təşəbbüsünə AXCP funksionerlərinin reaksiyaları ilk öncə onların qeyri-peşəkarlığı və qeyri-səmimiliyinin nümunəsidir: “Onların bu cür münasibəti AXCP rəhbərliyinin müxalifətin əməkdaşlığında, hakimiyyətə qarşı birgə mübarizə aparmasında maraqlı olmadığını da ortaya çıxarmış oldu. Ancaq buna baxmayaraq, Müsavat Partiyası demokratik qüvvələrin birliyinin həmişə tərəfdarı olub. Müsavat müxalifətdaxili ziddiyyətləri, qarşılıqlı ittihamları kənara qoyaraq ölkədəki vəziyyəti dəyişmək üçün bütün demokratik qüvvələrlə funksional əməkdaşlıq etmək, bu rejimə qarşı hədəfləri müəyyənləşdirib mübarizə aparmaq əzmindədir”.

**R.Əmiraslanlı onu da qeyd etdi ki, AXCP funksionerlərinin münasibəti adekvat olmadığı üçün yenidən AXCP ilə görüşməyin, bu təşəbbüsü yenidən qaldırmağın heç bir əhəmiyyəti yoxdur:** “Şəxsən bu mənim fikrimdir, mən artıq belə bir təşəbbüsün əleyhinəyəm. Qoy, AXCP rəhbərliyi həmin mövqeləri ilə özlərini müxalifət düşərgəsindən təcrid etməkdə davam eləsinlər”.

❑ **E.SEYİDAĞA**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 15 (6043) 23 yanvar 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Gəmidə gəmiçiylə dava

(Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)

**Qərb ölkələrində buraların islamlaşmasına qarşı genişmiqyaslı dinc etiraz aksiyaları keçirilir. Əlbəttə ki, bu, xoşa gələn şey deyil. Əvvəla, dini etiqad azadlığı fundamental azadlıqlara daxildir və demokratik ölkələrdə istənilən dinə etiqad edən heç kəsə problem yaratmamalıdır. Çünki bu cür aksiyalar cəmiyyətdə dözümsüzlük mühitinin yaranmasına və şiddətə gətirib çıxara bilər. Bu yerdə Almaniya kansleri xanım Angela Merkelin müsəlmanlara dəstək aksiyasında iştirakı çox önəmli idi. Amma gəlin məsələnin o biri tərəfinə varaq. Nə demək istədiyimi izah etməmişdən əvvəl yaxın tariximizdən bir dövrü xatırlatmaq istəyirəm. Ötən əsrin 80-ci illərinin sonunda Ermənistanda yaşayan soydaşlarımız bir neçə həftənin içində öz dədə-baba yurdlarından qovuldular. Real ölüm onların başının üstünü almışdı, daha duruş gətirmək mümkün deyildi, artıq xeyli itkilər varıydı. Onların pənah aparacaqları yer sözsüz ki, Azərbaycan idi. O, didərgin düşmüş məzlum insanlara qucaq açdı və özünə sığındırdı. Həmin vaxt didərgin salınanlar, o yerlərdə yaşayanlarımızın hamısı deyildi. Onların sayından qat-qat çox həmyerliləri - əvvəlki məcburi köçlər, eyni zamanda təbii miqrasiya nəticəsində Azərbaycanda məskunlaşmışdılar. Yəni bu regionun insanları ilə çoxdan qaynayıb qarışmışdıq. Sonuncu köçdən heç bir-iki ay keçməmişdi ki, ölkə boyunca "yeraz" söhbəti başladı. Camaat arasında "yerazlardansa ermənilər yaxşı idi", "yerazlar gəldilər, həyatımızı korladılar", "yerazlarla yola getmək olmur" tipli qınaqların biri bir qəpiyə çıxmışdı. Halbuki bu soydaşlarımız heç bir problem yaratmamışdılar və bizlərdən biri olmaqla pis heç nədə fərqlənmirdilər.**

İndi baxaq azad, ədalətli və inkişaf etmiş Qərb ölkələrində nə baş verir. Burada yaşayan xalqlar sözün həqiqi mənasında öz ölkələrində cənnət yaradıblar. Ona görə də ora aclıq, səfalət, antisanitariya, təhsilsizlik, səhiyyəsizlik, ədalətsizlik, hüquqsuzluq və başqa "sız"larla dolu müsəlman dünyasından axın edirlər. Bu axında heç bir ideoloji əsas yoxdur. İnsanlar yaxşı yaşamaq üçün axışırlar. Heç bir Qərb ölkəsi bu insanlara qırmızı alma, xüsusi dəvətnamə göndərib dəvət etmir, əksinə, bu insanlar miqrasiya qanunlarını və sərhəd-keçid qaydalarını kobud şəkildə pozaraq, üstəlik də həyatlarını gerçək riskə ataraq, dənizlərdə bata-bata, meşələrdə aza-aza, qarlı dağlarda dona-dona özlərini cənnətə çatdırırlar. Onların bir hissəsi aşkar edilərək geri, öz ölkələrinə deportasiya edilir, bir qismi isə uzunmüddətli it zülmündən sonra Avropa ölkələrində leqal şəkildə yaşamaq hüququ əldə edir. Qala bilənlərin böyük hissəsi yerli qaydalara, mədəniyyətə və adətlərə uyğun olaraq sıfırdan başlamaqla öz həyatlarını qura bilirlər. Təəssüf ki, bir qisminin başında başqa hava qalır. Başında belə hava olanların hamının çaxır içdiyi, donuz əti yediyi, qadınların açıq-saçıq geyindiyi, heç bir kompleks olmadan erotik filmlərə baxıldığı və s. bu kimi İslama zidd əməllərin bol olduğu bu yerlərdə nə işi var axı? Bu ölkələrdə oğurluqların, xuliqanlıqlar və bir sıra bu tipli yaramazlıqların böyük payı əhalinin az hissəsini təşkil edən bu çağırılmamış qonaqların payına düşür. Bunlara birtəhər dözmək olardı. Bəs tez-tez baş verən terror olaylarını hara qoyaq? Hamısı da bu gəlmələrin qoyub gəldikləri ölkələrdə hakim olan dəyərlərə görə. Belə olan halda nə haqla qərbliləri islamafobiyada günahlandırmalıyıq? Amma bu yaxınlarda canı bir, qanı bir qardaşlarımızı heç nədən "yeraz" deyib burunladığımızı düşünmürük də. Təsəvvür edək ki, türkmənlər Azərbaycana axın edirlər. Onlar tez-tez oğurluqlar edirlər, cəmiyyətimizin hüzurunu pozurlar, üstəlik də terror aktları həyata keçirirlər, sizcə, buna dözə bilərdikmi? Hələ bu az imiş kimi, Türkmənistanda qoyub gəldikləri adət-ənənələri burada tətbiq etməyə başlasalar, bizləri yolunu azmışlar kimi görsələr necə? Onlara "hardan gəlmisiniz ora qayıdın" deməzdikmi? Gəmiyə minib gəmiçi ilə dava etmələrini rahatca həzm edə bilərdikmi!

Bir anlığa tanışlarınızın bizimkilərin Rusiyada nə hoqqadan çıxdıqları haqda yana-yana, həm də utana-utana danışdıqlarını xatırlayın. "Sağ olsunlar ki, ruslar buna dözürlər, biz olsaq bircə gün də dözməzdik" şəklində acı etirafları azmı eşidibsiniz?

Sözsüz ki, mən islamafobiyanı sevmirəm və təqdir etmirəm. Bu, çox pis şeydir və yaxşı nəticələrə gətirib çıxartmayacaq. Sadəcə olaraq, bir məsələ haqda danışanda saxta təəssübkeşliyi bir yana qoyub, obyektiv olmağa çalışmaq lazımdır. Yeri gəlmişkən, bu mövzu ilə əlaqədar Xalid Kazımlının mövqeyini çox bəyəndim. O sübut edir ki, Hantinqtonun söylədiyi kimi əslində sivilizasiyaların toqquşması baş verir.

# Nazir oğlunun səbəb olduğu İsmayıllı üsyanından iki il ötür

**Natiq Miri:** "Bu hadisələr ona görə böyüyə bilmədi ki..."

**Gülağa Aslanlı:** "Hakimiyyətin davranışı həmin etirazlara səbəb oldu"

**Nigar Yaqublu:** "Görəcəyimiz günlər qabaqdadır"

**Bu gün İsmayıllı hadisələrinin iki ili tamam olur. Məlum olaylardan iki il keçməsinə baxmayaraq, baş verən hadisələr öz aktuallığını hələ də saxlayır. Hazırda cəzaçəkmə müəssisələrində İsmayıllı hadisələrinə görə həbs edilmiş 8 məhbus var.**



Vüqar Ələkbərov

Xatırladaq ki, İsmayıllıda xalq etirazı o zamankı əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərovun oğlu Vüqar Ələkbərovun ismayıllılıları təhqir etməsindən sonra baş vermişdi. V.Ələkbərov eyni zamanda hadisə baş verən dövrdə şəhərin icra hakimi olan Nizami Ələkbərovun qardaşı oğlu idi. Nazir oğlu "Hammer" markalı maşınla "Kəpənək" istirahət mərkəzinə qalxarkən qəza törətmiş, üzr istəmək əvəzinə maşından enərək, hadisə yerinə toplaşan insanları söymüş, sonra isə ümumi ismayıllılıların ünvanına təhqiramiz ifadələr işlətmişdi. Bundan qəzəblənən sakinlər nazir oğlunu döymüş, avtomobilini yandırmışdılar. Xəbər ildırım sürəti ilə İsmayıllıya yayılmış, xalq hərəkətə gəlmişdi. Kütləvi aksiyada 5000-ə yaxın insan iştirak etmişdi. Yüzlərlə İsmayıllı sakini həbs edilmişdi. Etirazçılar Ələkbərovlar klanına məxsus "Çıraq" hotelinə və bahalı maşınlara od vurmuşdular. Təsadüfi deyil ki, hadisələrin miqyası o qədər böyümüşdü ki, hadisədən dərhal sonra icra hakimi Nizami Ələkbərov vəzifəsindən azad edildi. 10 ay sonra isə Füzuli Ələkbərov nazir postundan uzaqlaşdırıldı.

Baş verən hadisələrdə həbs edilənlərə divan tutuldu. Polis idarələrində kütləvi işgəncə faktları aşkar olundu. Saxlananların əksəriyyəti külli miqdarda pulun müqabilində azad edilsə də, 18 nəfər barəsində cinayət işi açıldı.

Hadisə baş verən vaxt İsmayıllıya gedənlər arasında Müsavat başqanının müavini Tofiq Yaqublu və REAL hərəkatının sədri İlqar Məmmədov da olmuşdu. Aksiyadan sonra hər iki şəxs həbs olundu. Hazırda onlar məhbəs həyatı yaşayırlar.



Nizami Ələkbərov



Füzuli Ələkbərov

**İsmayıllı hadisələrinin səbəbkarı Vüqar Ələkbərov bu ayın əvvəlində virtualaz.org saytına müsahibəsində iki ildən sonra sükutu pozaraq, hadisələrin törədilməsinin səbəbləri barədə bunları deyib:** "Həmin il prezident seçkiləri ili idi. Çoxsaylı xarici qüvvələr ölkəmizdə vəziyyətin gərginləşməsində, sabitliyin pozulmasında maraqlı idi. Guya təkcə İsmayıllı hadisələri idi? Bəs Qubadakı iğtişaşlar? Bəs "Binə"dəki hadisələr? Bəs bir əsgərin ölümündən ötrü Bakının mərkəzində "facebook inqilabı" cəhdi? Əminəm ki, İsmayıllı hadisələrinin arxasında xarici qüvvələr və müxalifət dayanırdı. Sonrakı həbslər də mənim bu dediklərimi təsdiqlədi".



Qeyd edək ki, 2012-ci ilin martında Qubada İsmayıllı hadisələrinə oxşar olay baş vermişdi. İcra hakimi Rauf Həbibovun qubalıları təhqir etməsindən sonra xalq ayağa qalxmış, icra başçısının mülkləri və icra hakimiyyətinin binası yandırılmışdı. Rauf Həbibov isə rayondan qaçmışdı.

Göründüyü kimi, baş verən hər iki etiraz aksiyasında etirazçılar meydanda tək qaldılar. Onlara nə digər rayonların sakinləri, nə də ölkənin demokratik düşərgəsi tam dəstək vermədi.

**Politoloq Natiq Miri İsmayıllı və Quba hadisələrinin lokal hadisələr olduğunu qeyd etdi:** "Bu hadisələr böyüyə bilmədi. Yəni bütün Azərbaycanı əhatə etmədi. Bu, xalqın hakimiyyətdən razı olmasına görə deyildi. Hazırda ölkədə sosial-siyasi mühit bərbad vəziyyətdədir. Elə bərbad hadisələr baş verir ki, biz bunu 20-30 il əvvəl təsəvvür edə bilmirdik. Bu isə öz təsirini göstərməyə bilməz. İnsanların böyük əksəriyyəti yaşamaq uğrunda mücadilə verir. İnsanların 80 faizi banklarda girov vəziyyətindədir. Siyasi yöndə düşünə bilmirlər. İctimaiyyəti birləşdirə biləcək ciddi bir ideologiya da yoxdur. 90-cı illərdə xalqı birləşdirəcək azadlıq ideologiyası var idi. Xalq birləşdi və azad oldu. İndi hakimiyyətin ciddi təzyiqi və müxalifətin zəifliyi nəticəsində böyük birlik görə bilmirik. İsmayıllı hadisələrinə ciddi dəstək ola biləcək müxalifət yox idi. Xalq artıq indiki müxalifətə inanmır. Doğrudur, seçkilərdə müxalifətin kifayət qədər səsləri olub və hətta qalibiyyətə yetib. Lakin bunu reallaşdırmaq mümkün olmayıb. İnamsızlığın yaranma səbəblərindən biri də budur. Belə proseslərə bu öz ciddi təsirini göstərir. Cəmiyyətin toparlanması üçün hansısa qurumun öndər olması lazımdır. Təəssüf ki, hazırda hakimiyyət olmaq üçün yox, ana müxalifət olmaq uğrunda mübarizə gedir. Ciddi müxalifət olarsa, hakimiyyət də davranışlarına nəzarət edəcək. Nəticədə İsmayıllıda, Qubada olan təhqirləri xalq eşitməyəcək".

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı müxalifətin baş verən İsmayıllı və Quba hadisələrində susqun görünməsinə belə şərh verdi:** "Həmin hadisələr Azərbaycan hakimiyyətinin xalqa göstərdiyi münasibət nəticəsində baş vermişdi. Orada nə xarici, nə də daxili qüvvələr var idi. Təhqirlərə cavab olaraq xalqın toparlanması idi. Ələkbərovlar ailəsindən narazılıq əvvəldən olub. Bu da sonda qığılcıma səbəb oldu. Vüqar Ələkbərov iki ildən sonra belə fikir söyləməklə kimlərinsə tapşırığını yerinə yetirir. Bu yolla hadisələrin istiqamətini öz üzərlərindən başqa səmtə yönəldir. Müxalifət bu hadisələrə seyrçi kimi qalmadı. Bu olayların mahiyyəti hakimiyyəti dəyişmək deyildi. Müxalifət seçki yolu ilə hakimiyyətin dəyişməsini istəyir. Açıq şəkildə görünürdü ki, bu hadisələrin səbəbi nədir. Müxalifət belə hadisələrdə qanun çərçivəsində hərəkət etməyə üstünlük verir".

**Hazırda İsmayıllı hadisələrinə görə məhbəsdə olan Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu atasının həbsi ilə bağlı bunları dedi:** "Atam artıq iki ildir ki, İsmayıllı hadisələrinə görə saxta ittihamlarla həbsdədir. Bu illər ərzində atam və digər İsmayıllı məhbusları ciddi təzyiqlərlə üzləşiblər. Ora jurnalist kimi gedən Tofiq Yaqublu bu hadisələrin təşkilatçısı kimi həbs edilib. Halbuki atam və İlqar Məmmədov sırf siyasi əqidələrinə görə həbs olunublar. Hakimiyyət onları susdurmağa çalışır. Hazırda 13 saylı cəzaçəkmə müəssisəsində atam möhkəmdir və mübarizəsinə davam edir. O inanır ki, bu günlər müvəqqətidir. Görəcəyimiz günlər qabaqdadır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 15 (6043) 23 yanvar 2015



# Dilin arealı, dilçəyin realı

Samir SARI

Çox deyirdilər ki, rus dili ingilis dilindən sonra dünyada yayılma arealına görə ən işlək dildir. Yaxşı oldumu, Ukrayna prezidenti bəyan edib ki, rus dilinə ikinci dövlət dili statusu verilməyəcək.

Bu, o deməkdir ki, Ukrayna əhalisi artıq döşənib öz dilini öyrənəcək, rus dilində çox danışmayacaq, danışanlara da dilucu cavab verəcək.

Gürcüstan artıq neçə ildir rus dilindən imtina edib. Tiflisə tez-tez gedib-gələnlər çörəyin bərəkətinə and içirlər ki, bu ölkədə adamdan rusca söz soruşanda cavab vermirlər. Amma şəxsən bu sətirlərin müəllifi ötən il Tiflisdə beş-altı yaşlı adamdan rusca söz soruşub və hamısına cavab alıb. Görünür, xitab edəndə yaş senzini nəzərə almaq gərəkdir. Cavan gürcülər rusca bilmirlər və bilmək də istəmirlər. Yaşlılar isə pis-yaxşı bilirlər, ancaq ildən-ilə azalırlar.

Ukraynada da elə olacaq. Yavaş-yavaş rusca bilənlər azalacaq. Bax, o zaman Ukraynaya varid olan həmvətənlərimizin könlü "dil bilən, söz anlayan bir nazlı yar" istəyəndə əziyyət çəkəcəklər.

Nə qədər olmasa da, rus dili postsovet məkanının, sosializm düşərgəsinin ana diliydi. Sovet dövründə bu dili biləndən sonra bir yanı Kuril adaları, o biri yanı Berlin, Havana, Sofiya, Manaqua, Hanoy arasında başını dolandıra bilərdin.

Amma yeni rus rəhbərliyini mənasız cığallığı üzündən rus dilinin arealı kiçildikcə kiçilir və bu ilk növbədə rusların özünə problem yaradır. Nədən ki, şovinistliklərindən özlərinə sığışdırıb başqa dil öyrənməyən ruslar (istisnalar var, amma əksər ruslar yalnız bir dil bilirlər - öz dillərini) ölkələrindən kənara çıxanda kərəvəngə qalırlar.

Məsələn, bugünlərdə Taylandın kurort şəhəri Pattayyada rusdilli əcnəbi turistin başına xoşagəlməz iş gəlib - sırf dilbilməzlikdən. Adamın bildiyi yeganə dil rus diliymiş və o, ətraf dünyayla məhz rusca anlaşmaq istəyirmiş.

Demək, hadisə belə cərəyan edib: rusdilli turist barda yeyib, içib, əylənib, tam dəm olandan sonra otelə getmək istəyib və hesabı istəyib. Barın işçiləri ona hesabı gətiriblər: 1300 bat (2700 rubl). Turist əlini cibinə salıb, görüb ki, bay, üstündə cəmi 600 bat pul var, 700 batı çatmır. Ta neynəsin, o, barmenə, eləcə də onun yanındakı mühafizəçilərə başa salmaq istəyib ki, sizin 700 batınız məndə batmaz, gedim yolun o üzündəki bankomatdan çıxarıb gətirim. Təbii ki, rusdilli turist bu sözləri rusca deyib və elə zənn edib ki, taylandlı barmen buna "davay, idi, Saşa" deyəcək. Adam qapıya tərəf getmək istəyəndə mühafizəçilər elə biliblər ki, rus hesabı ödəmədən aradan çıxır, arxadan yapışıblar, nə yemisən, turşulu suşi, salıblar şillə-təpiyin altına. Yazığı o qədər vurublar ki, yediyi-içdiyi burnundan gəlib, axırda çənəsi, burnu qırılmış halda aparıblar hospitala. Döyülməzdən əvvəl rusca danışan turist aldığı xəsarətlər nəticəsində indi çətinliklə danışır, tərcüməçi vasitəsilə birtəhər başa salır ki, 700 batı kartdan çıxarıb verəcəkdi.

Halbuki həmin rus vaxtında canına cəfa verib məişət səviyyəsində ingilis dilini öyrənsəydi, bu günə düşməzdi. Ya da yeddi ölkə basa-basa Taylanda getmək əvəzinə Türkiyəyə getsəydi, yenə də başına o iş gəlməzdi. Çünki Anadolunun kurort zonalarında yaşayan qardaş türklər hazırda işlərinin xətrinə vur-həşir rus dilini öyrənirlər. Hətta Azərbaycan türkcəsində onlara bir söz deyəndə bəzən anlamırlar, amma rusca nəsə soruşanda əlüstü "davay, davay, kaneçno" deyirlər.

Yəni çox dil bilmək yaxşı şeydir. Bu üzdən biz gürcülərin, ukraynalıların tırkasına gedərək rus dilindən imtina edə bilmərik, rusca öyrənmişik, öyrənirik, öyrənəcəyik. Eləcə də ingiliscə öyrənməliyik, yeri gəlsə, lap "quş dili"ni də bilməliyik. Ola bilər, sabah ayağımız Taylanda açılar, tökülüşüb tay dilini də öyrənəcəyik ki, heç nə üstündə bizi döyüb rus turistə tay eləməsinlər.

Bu xüsusda özünüzlə fəxr edə bilərsiniz, əziz həmvətənlər, diliniz də var, dilçəyiniz də, xarici dil öyrənməkdə, hamıyla dil tapmaqda, dilli-dilavər olmaqda analoqunuz yoxdur. Bircə öz daxilimizdə bir-birimizlə dilləşməyimiz olmasaydı, lap yaxşı olardı, amma bildiyiniz kimi, hər gözəlin bir eybi olmalıdır.



# Arif Hacılının başqan kürsüsündə qarşıladığı ilk doğum günü

## "Ad günü ilə bağlı xüsusi emosional duyğularım yoxdur"

**Yanvarın 22-si Müsavat Partiyasının başqanı Arif Hacılının doğum günüdür. Arif Hacılını həm təbrik etmək, həm də ad günü təəssüratlarını öyrənmək üçün Müsavat Partiyasının mərkəzi qərargahına baş çəkdik. Ad günlərinə elə də önəm vermədiyini deyən Müsavat başqanını qərargahda iş başında yaxaladıq.**

***- Əvvəlcə ənənəvi sualla başlayaq, 53 yaş sizin üçün nə deməkdir, xüsusi bir özəlliyi varmı?***

- 53 yaş mənim üçün xüsusi bir əhəmiyyət kəsb etmir. 53 yaşımda özümü hər baxımdan heç də 43 yaşında olduğum dövrdən fərqli hiss etmirəm. Enerjimin, həyat eşqimin azalması halları baş verməyib. Əsas fərq odur ki, Müsavat başqanı olaraq keçirdiyim ilk ad günüdür. Hesab edirəm ki, bu ad günümü digər ad günlərimdən fərqləndirən cəhət budur.

***- İlk təbriki kimdən almısınız?***

- İlk təbrik təbii ki, ailəmdən aldım. Övladlarım saat 12 olan kimi mənimlə əlaqə saxladılar. Ailədən kənar ilk təbriki isə Fərəc Kərimlidən almışam. Müsavat Partiyasının demək olar ki, bütün üzvləri, hətta umu-küsülülər də məni təbrik edib. Buna görə onlara təşəkkür edirəm.

***- Xüsusilə gözlədiyiniz, amma gəlməyən təbrik oldumu?***

- Mən bu məsələlərə xüsusi bir önəm vermirəm. Hesab edirəm ki, məni təbrik edənlərin sayı yetərincədir.

***- Müsavat Partiyasının keçmiş başqanı necə, sizi təbrik etdimi?***

- İsa bəylə görüşmüşük, məni təbrik edib. Eyni zamanda sosial şəbəkədə də maraqlı bir şəkillə birlikdə təbrik mesajı yazıb.

***- Bir-birinə qarşı olan düşərgələr də adətən bu kimi özəl günlərdə telefon açıb təbrik edirlər. İqtidar düşərgəsindən sizi təbrik edənlər oldumu?***

- İqtidar düşərgəsindən yox. Amma siyasi münasibətlərimizdə müəyyən gərginliklər olan təşkilatların nümayəndələrindən təbriklər gəlib.

## "Həyatımı bu cür yaşadığım üçün heç bir peşmançılığım yoxdur"

***- Doğum gününüzdə edilən hədiyyələrdən hansı daha çox ürəyinizcə oldu?***

- Müəyyən hədiyyələr almışam. Amma hələlik o hədiyyələrin nədən ibarət olduğunu bilmirəm.

***- Ad gününüzü necə və harada keçirməyi düşünürsünüz?***

- Mənim ad günü ilə bağlı xüsusi emosional duyğularım yoxdur. Gənc yaşlarımdan ad günü partilərinə və ya ad günlərinin hansısa şəkildə qeyd olunmasına, təbriklərə, hədiyyələrə xüsusi əhəmiyyət verməmişəm. Xüsusi, fərqli ad günü təşkil etmək fikrində deyiləm. Necə alınacaqsa, o cür də olacaq. Təntənəli keçirilən və mənim üçün ən yadda qalan ad günüm 50 yaşım olub. Mən 50 yaşımı 16 saylı cəzaçəkmə müəssisəsində həbsxanada qarşıladım. Orada yaxşı bir çay süfrəsi açmışdıq və ad günü tədbirimdə siyasi məhbuslardan tutmuş müxtəlif maddələr üzrə həbsdə olan yüzlərlə şəxs məni təbrik etdi. Eyni zamanda mənim iştirakım olmadan həmin gün Müsavat Partiyasının qərargahında 50 illik yubileyim təntənəli şəkildə qeyd olunmuşdu. Həyatımda ən təntənəli ad günü tədbirim məhz həmin tədbir olub.

***- Hələ ki reallaşmayan elə bir arzunuz varmı ki, bu yaşınızda həyata keçəcəyinə inanırsınız?***

- Mənim həyatda ən çox enerji sərf etdiyim sahə siyasətdir. Siyasi proseslərə təsir imkanlarım düşünürəm ki, əvvəlki illərə nisbətən bir qədər artıb. Bütövlükdə ölkədə gedən siyasi proseslərə təsir imkanlarımdan istifadə edərək Azərbaycan cəmiyyətini yaxşılaşdırmağa, ölkədə ümumi siyasi ab-havanı, zorakı yolla yaradılmış, status kvonu dəyişdirmək üçün öz töhfələrimi verməyə çalışacağam.

***- Keçən ömrünüzə nəzər salanda nələrəsə görə peşmanlıq hissi keçirirsinizmi?***

- Həyatımı bu cür yaşadığım üçün heç bir peşmançılığım yoxdur. Ancaq şübhəsiz ki, həyatda səhvlərim olub. Heç bir insan səhvlərdən sığortalanmayıb. Təbii ki, 20-25 il əvvəl indiki siyasi təcrübəm olsaydı, müəyyən məsələlərdə daha yaxşı mövqe tuta bilərdim.

***- Bu illə bağlı hansı planlarınız var?***

- 2015-ci il Azərbaycan üçün imkanlar ili olacaq. Müsavat Partiyası olaraq bu imkanlardan yararlanmağa çalışacağıq. 2015-ci illə bağlı dediyim ilk fikri bir daha təkrar etmək istəyirəm. Çalışacağıq ki, 2015-ci il dünyada Azərbaycan, Azərbaycanda isə Müsavat ili olsun.

***- AXCP-yə barış əli uzatdınız. Amma onlar sizin barış təklifinizə olmazın ifadələrlə cavab verdilər. Bundan sonra da onlara barış əli uzatmağı düşünürsünüzmü?***

- Mən siyasi partiyalar arasındakı münasibətləri bu şəkildə dəyərləndirməyin əleyhinəyəm. Siyasi partiyalar konkret hədəflər uğrunda mübarizə aparır. Hesab edirəm ki, Müsavat Partiyası ilə AXCP-nin konkret, ümumi hədəfləri var. İndiki siyasi şəraitdə Müsavat Partiyası ilə AXCP-nin və müxalifətdə olan digər siyasi təşkilatların resurslarını ümumiləşdirmək demokratik düşərgənin, istər Müsavat Partiyasının, istərsə də digər siyasi partiyaların maraqlarına uyğundur. Biz resurslarımızı birləşdirə bilmiriksə, heç olmasa fəaliyyətimizi uzlaşdırmağı bacarmalıyıq. Siyasət peşəkar münasibət tələb edir. Siyasət hansısa siyasi təşkilatların rəhbərlərinin emosional duyğuları ilə idarə oluna bilməz. Yəni bu məsələlər küsmək, barışmaq və sairə kimi duyğularla deyil, konkret hədəflərə doğru atılan addımların məqsədəuyğunluğu baxımından müəyyənləşməlidir. Yəni siyasi partiyaların rəhbərliyinə daxil olan şəxslər, siyasəti yönəltmək iddiasında olan və siyasi proseslərə təsir imkanları olan şəxslər öz işlərinə peşəkarcasına yanaşmalıdır. Biz də öz işimizə peşəkar yanaşırıq və qərarlar qəbul edərkən müəyyənləşdirdiyimiz konkret hədəflərə çatmaq üçün resursları artırmağa, birləşdirməyə xidmət edən mövqedən çıxış edirik.

***- Sonda, doğum gününüzdə özünüz özünüzə nə arzulayardınız?***

- Mənim çox böyük arzularım və istəklərim var. Mənim istəklərimin həyata keçməsi milyonlarla insanın həyatının yaxşılaşmasına səbəb ola bilər. Ona görə istəklərimin həyata keçməsi üçün bütün gücümü, enerjimi sərf etmək niyyətindəyəm.

❑ Günel MANAFLI
Fotolar müəllifindir



Müsavatın 6-cı başqanının 53 yaşı oldu

# Vəkilləri Əli İnsanovla görüşə buraxılmadı

**Yanvarın 22-də sabiq səhiyyə naziri Əli İnsanovun vəkilləri Toğrul Babayevə və Şahverdi Ağaveyisə 13 saylı cəzaçəkmə müəssisəsində saxlanılan Əli İnsanovla görüşməyə imkan verilməyib.**

T.Babayev "Turan" bildirib ki, bu gün vəkilləri Əli İnsanovla görüşmək üçün cəzaçəkmə müəssisəsində olublar. "Bizə bildirdilər ki, vəkillər görüş üçün hər ay Penitensiar Xidmətə rəsmi müraciət edib icazə almalıdır. Vəkillər yalnız rəsmi icazə aldıqdan sonra müvəkkilləri ilə görüşə bilər".

Xatırladaq ki, Ə.İnsanov 2005-ci ilin oktyabrında dövlət çevrilişinə cəhdə hazırlıq ittihamı ilə həbs olunub. Amma sonradan rüşvət almaq, vəzifə səlahiyyətlərini aşmaq və bir sıra iqtisadi cinayətlər törətmək ittihamı ilə 11 il müddətinə azadlıqdan məhrum edilib.

2013-cü il martın 14-də Avropa İnsan Haqları Məhkəməsi Ə.İnsanovun İnsan Hüquqları Konvensiyasının 3-cü (işgəncələrin qadağan olunması) və 6-cı (ədalətli məhkəmə çəkişməsi) maddələri ilə zəmanət verilmiş hüquqlarının pozulduğunu tanıyıb.

YENİ MÜSAVAT
N 15 (6043) 23 yanvar 2015

# Elşad Abdullayev həbs edilmək təhlükəsindən danışdı

## "ABU-nun bağlanması da siyasi sifarişdir"

**Xəbər verdiyimiz kimi, ABU-nun sabiq rektoru Elşad Abdullayevlə bağlı Respublika Prokurorluğu yeni bəyanat yayıb. Bəyanatda bildirilir ki, E.Abdullayevin tutulması istiqamətində beynəlxalq axtarış tədbirləri həyata keçirilir.**

**E.Abdullayev "Yeni Müsavat"a göndərdiyi cavabda bildirib ki, prokurorluğun onun əleyhinə vermiş olduğu açıqlamaları qanunsuz və siyasi sifariş hesab edir:** "Prokurorluğun həftədə bir dəfə verdiyi təhdidedici bəyanatlarını siyasi sifariş hesab edirəm. Onların mənim əleyhimə qaldırdığı cinayət işləri saxta "fabrikovat" olunmuş işlərdir, daxili auditoriya üçün hesablanıb, tələbələri və müəllimlərin qorxu altında saxlanmasına xidmət edir. Əgər həqiqətən də belə faktlar vardısa, nə üçün 5 il bundan əvvəl bu cinayət işlərini qaldırmırdınız!? Mən Avropa Məhkəməsinə şikayət edənə qədər mənim adım heç bir cinayət işində hallanmayıb. Strasburq Məhkəməsinə şikayət etdikdən sonra diktatura rejimi həmin şəxsi susdurmaq məqsədilə onun əleyhinə həqiqətə uyğun olmayan saxta cinayət işləri açır. Bu günə qədər kimlər şikayət edibsə, onun əleyhinə həmən saxta cinayət işləri acılıbdır".


Elşad Abdullayev

**Sabiq rektorun sözlərinə görə, qətlləri açmaq əvəzinə, onu qorxu altında saxlayırlar və buna hesablanmış açıqlamalar verilir. E.Abdullayev bildirib ki, bu özü bir ağır dövlət cinayətdir:** "Oğurlanmış qardaşımı geri qaytarmaq, cinayətkarları cəzalandırmaq əvəzinə, məni təhdid etməklə məşğuldurlar. Oğru elə bağırdı ki, doğrunun bağrı çatlayır. Fransa prezidenti Fransua Olland fransız və ərəb dillərində böyük qırmızı hərflərlə qeyd edilmiş "Biz hamımız Şarliyik'' şüarına imza atdı. O qeyd etdi ki, bu terror aktının İslam dini ilə heç bir əlaqəsi yoxdur, terrorçunun milləti və dini-imanı olmaz. Yəni Fransa dövlət olaraq hər bir vətəndaşının təhlükəsizliyinin qarantıdır, hər bir vətəndaşının hüquqlarının müdafiəçisidir. Azərbaycan Beynəlxalq Universitetinin müəllimləri və tələbələri kütləvi dövlət terroruna məruz qalıbdır. Bu günə qədər ABU müəllimlərinin adı heç bir cinayət işində hallanmayıbdır. Biz Avropa Məhkəməsinə şikayət etdikdən sonra ABU müəllimlərinə qarşı kütləvi həbslər başlayıbdır. Əgər onların cinayəti var idisə, nə üçün 5 il bundan öncə cinayət işi acmırdınız? Deməli, bu fakt özlüyündə bir daha təsdiq edir ki, ABU-ya qarşı münasibət qərəzlidir. Avropada ağır hərbi cinayətlər edib insanların ölümünə səbəb olmuş hərbçilərə 3 ildən sonra cinayət işi açılmır. ABU-nun bağlanması da siyasi sifarişdir".

"Yeni Müsavat" xatırladır ki, prokurorluğun bəyanatında E.Abdullayevin qulluq mövqeyindən sui-istifadə edərək qabaqcadan əlbir olduğu bir qrup şəxslə qanunsuz hərəkətlərə görə ayrı-ayrı şəxslərdən 370 586 manat məbləğində pulu rüşvət almaqla fiziki şəxslərin hüquqlarına və qanuni mənafelərinə, habelə dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasında, həmçinin təkrarən külli miqdarda rüşvət verməyə cəhd etməsində və külli miqdarda vergiləri ödəməkdən yayınmasında şübhələr üçün əsaslar olduğundan, 25 iyun 2014-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.1 (rüşvət alma), 311.3.2, 311.3.3 və 29,312.2 (rüşvət vermə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar qəbul edilib.

❑ **Sevinc TELMANQIZI**

# Qarabağ danışıqlarında yeni mərhələnin anonsu verildi

## Türkiyənin və yaxud türk diasporunun ən güclü olduğu Almaniyanın Minsk Qrupu həmsədrliyinə gətirilməsi tarixi ədalətin bərpasına işləyərdi; vasitəçilikdə balans yaratmaq zamanı yetişib...

**ABŞ və Avropa öz qətiyyətində qalır: Ukraynanın ərazi bütövlüyü bərpa olunmalıdır, çünki Krımın ilhaqı beynəlxalq hüquqa savaş açmaq, qlobal təhlükəsizlik sistemini laxlatmaq cəhdidir. Belə görünür, bu mövqe Qərb-Rusiya münasibətlərinin normallaşması üçün hələ uzun müddət baş şərt, daha dəqiqi, ayırıcı "qırmızı xətt" qismində qüvvəsini saxlayacaq.**



Qərbin həm siyasi, həm də hərbi rəhbərlərinin bu yanaşması sözsüz ki, Azərbaycanın da köklü maraqlarına cavab verir. Birinci ona görə ki, Avropa və ABŞ Ukraynada öz müqəddəratı təyinetmə hüququ uğrunda deyil, ərazi bütövlüyü prinsipinin bərqərar edilməsi uğrunda mübarizə aparır. Bu prinsipə görə də Moskvaya ağır sanksiyalar tətbiq edib, hətta neftin dünya bazarında çöküşünə, rublun dəyərdən düşməsinə zəmin yaradıb.

Kəsəsi, demokratik dünya Kremlə dərs vermək istəyində ciddidir. Demək, Qərb eyni addımın Rusiyanın, yaxud başqa bir ölkənin timsalında başqa bir məkanda - istər postsovet coğrafiyası olsun, istərsə də olmasın - dünyanın heç bir yerində təkrarlanmasının ən azından təqdir etməyəcək.

Azərbaycandan ötrü ikinci qiymətli məqam Rusiyanın Krımı ilhaq etməsi ilə "barmağının yanması", gözləmədiyi halda iqtisadi kollapsa tuş gəlməsidir. Bu, əlbəttə ki, analoji addımı başqa "Yaxın xaric" ölkəsinə qarşı atmaqda Moskva üçün çəkindirici faktor rolu oynayacaq.

Doğrudur, neftin ucuzlaşmasından Azərbaycan da ziyan görür. Lakin ərazi bütövlüyü məsələsində daha əlverişli imkanlar, Qarabağ məsələsində yeni çevik manevr şansları qazanmaqla müqayisədə bu, elə böyük itki deyil. Bu mənada Ukrayna həqiqətən Rusiya ilə yerdə qalan 10 MDB ölkəsi arasına girmiş olub.

Söz düşmüşkən, Almaniyada səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev kansler Angela Merkellə birgə keçirdiyi mətbuat konfransında rəsmi Bakının BMT Baş Məclisindəki səsvermə zamanı mövqeyini bir daha təsdiqləyərək bəyan elədi ki, Azərbaycan Ukrayna da daxil, bütün ölkələrin ərazi bütövlüyünü müdafiə edir, eyni münasibəti də özünə qarşı görmək haqqı var. **"Heç bir ölkənin sərhədləri onun razılığı olmadan dəyişdirilə bilməz"** - deyib İlham Əliyev.

Avropa paytaxtlarının birində bu bəyanatın verilməsi şübhə yox ki, Rusiyanı qıcıqlandıran hərəkətdir. Axı Moskvada Krımın Rusiya tərkibinə daxil edilməsi tarixi ədalətin bərpası kimi təqdim edir, onun heç vaxt Ukraynaya qaytarılmayacağını bəyanlayır. Buna zidd mövqe sərgiləyən və beləliklə də dolayısıyla Qərbin sanksiyalarını müdafiə edən, onun yanında yer alan "Yaxın xaric" ölkələri rəsmi Moskvadan mərhəmət gözləməməlidir.

Ancaq elə çıxmasın ki, Azərbaycanın, Qarabağın taleyi məhz Ukraynada həll olunduğundan, bizlik bir şey də qalmayıb. Əlbəttə ki, qalıb. Bu da odur ki, Bakı ölkənin bütün vətəndaşları və milli azlıqları üçün demokratik, hər kəsin və hər etnik qrupun haqlarının qorunduğu sivil bir məmləkət, hüquqi dövlət olduğunu dünyaya sübut eləməlidir. Əfsus ki, bu sahədə öyünüləsi, təsəlliverici heç nəyimiz yoxdur.

Türmələri siyasi məhbuslarla dolu olan Azərbaycanın hər gün bir az da Dağlıq Qarabağdan uzaqlaşdığının, Qərbin bizə dəstəyinə ciddi əngəl yaratdığının hakimiyyət fərqində olsa pis olmaz. Yoxsa problemin həllini, ərazi bütövlüyümüzün bərpasını bu problemi yaradan və 25 ildir körükləyən, öz qonşusunun qanuni ərazisini rahatca ilhaq edən yırtıcı Rusiyadanmı gözləyirik? Qonşusunun ərazisinin bir hissəsini zəbt edən bir dövlətdən başqa bir ölkənin - Azərbaycanın ərazi bütövlüyünə dəstək ummaq məntiqlidirmi?

Yox təbii ki. Elə həmin məntiqə görə də biz ərazi bütövlüyü məsələsində daha prinsipial, daha ədalətli və daha ardıcıl olan Qərbin yanlında qərar tutmağa məhkumuq. Eyni zamanda ATƏT-in Minsk Qrupunun rəhbərliyində balansı bərpa eləmək üçün həmsədrliyə Türkiyə və ya türk diasporunun ən güclü olduğu Almaniyanın gətirilməsinə nail olmalıyıq - üstəlik, bunu rəsmi Berlin özü də arzulayırsa.

Prezidentin Almaniya səfəri və Merkelin Qarabağ mövzusunda söylədikləri də göstərdi ki, bunun zamanı artıq çatıb. Onu da yaddan çıxarmayaq ki, rəsmi Berlin Qarabağ və işğal məsələsində nala-mıxa vurmadan, təmənna irəli sürmədən daim Azərbaycanın ərazi bütövlüyünü tanıyan yeganə böyük Qərb dövlətidir.

❑ **Siyasət şöbəsi**

# Bizim "Çarli"lər...



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**"Söz azadlığı müqəddəslərdən də müqəddəs, üstündür". Parisdə öldürülən karikaturaçılara dəstək olaraq dünyada, o cümlədən Azərbaycanda (dildə və ya qəlbdə) "Mən Çarliyəm!" deyənlərin əsas arqumenti bundan ibarətdir. Beləliklə, "söz-ifadə azadlığı hüdudsuzdur" demaqogiyası yeni şövqlə təzədən dövriyyəyə buraxılıb.**

Lakin bu cür mövqe daşıyıcıları tənqidlə təhqirin sərhədini keçərkən özləri də bilmədən ifratın başqa tərəfinə yuvarlanıblar, "naqolay" duruma düşüblər. Əlxüsus, bizim "Çarlilər"...

Hazırlaşın, Fransa prezidenti Fransua Ollandın şəxsi təşəbbüsü ilə tezliklə ölkə parlamenti uydurma erməni "soyqırımı"nı imtinaya görə cəza nəzərdə tutan qanun layihəsini 3 illik fasilədən sonra müzakirəyə çıxaracaq. Olland seçki kampaniyasında erməni lobbisinə verdiyi əsas vədə beləcə sadiq qalaraq "soyqırım"ın 100 illiyinə - aprelin 24-dək sənədin qəbuluna nail olmaq, "kiçik bacı" saydığı ermənilərə ərməğan etmək niyyətindədir.

Xub. Görək indi söz azadlığı carçıları, bizim milli "Çarlilər" bu qanunu ifadə azadlığının təntənəsi, təzahürü sayacaqmı? İslam peyğəmbərinin təhqiramiz rəsmlərini "ifadə azadlığı" hesab edənlər erməni "soyqırımını" danmağa görə insanların cəzalandırılmasına haqq verəcəklərmi, fransızlara növbəti "Çarli" həmrəyliyi göstərəcəklərmi?

Başqa suallar da var.

***

Azərbaycanın hazırkı konstitusiyası demək olar, bütün beynəlxalq standartlara cavab verir. Təməl insan haqları və azadlıqlarının hamısı orada gözəl şəkildə əksini tapıb. Amma ölkədə insan haqlarının hansı durumda olduğu bəlli. Bizim "Çarli"lərin, o sırada hörmətli yazarımız Tofiq Yaqublunun (Allah qapısını açsın) məntiqincə isə bu duruma görə məhz konstitusiya günahkardır, nəinki ona əməl etməyən, yaxud onu öz bildiyi kimi başa düşən, şərh edən mövcud hakimiyyət *(Məgər iqtidar demirmi ki, ölkədə insan haqları sahəsində hər şey "ok"dir?)*.

Biz də soruşuruq ki, əgər Qurani-Kərimi öz bildiyi kimi anlayıb qəddar hərəkətlərinə haqq qazandıran hansısa qruplar varsa, buna görə səmavi kitabı, İslam aləmini hədəf almaq, onu lağa qoymaq caizmi? Belələri lap olsun on min nəfər, onlar bir milyardlıq mötədil inanc sahibini təmsil edə bilməz axı. Rüşvətxor, korrupsioner hakimlərə, prokurorluq və polis işçilərinə görə də Cinayət Məcəlləsi günahkardır bəyəm?

Bir də görürsən ki, Quranın Azərbaycan dilində təfsirini ömründə bircə dəfə oxumayan, islam tarixindən bixəbər, ərəbcə də heç nə bilməyən kəs müqəddəs kitabdan "sitat" gətirir, guya Quran qan-qadanı, qətli, zorakılığı təbliğ edir. Bəs "İslamda məcburiyyət yoxdur" *("Bəqərə" surəsi)*, "Bir insanı öldürmək bəşəriyyəti öldürməyə bərabərdir" ayələri necə olsun?

Mən ilahiyyatçı deyiləm, amma İslam zorakılıq dini olsaydı, əsrlərlə yaşayıb indiki dönəmə gəlib çıxa, yüz milyonların qəlbinə yol tapan inanc toplusu olardımı? Hansı (zorakı) ideologiya belə əbədiyaşar olub, söyləyə bilərsizmi? Zorakılıqla qurulan bir şey isə SSRİ kimi uzağı 70 il yaşayar, 14 əsr yox!!! Deməli, "qılınc müsəlmanı" ifadəsi də boş şeydir. Həm də ona görə ki, böyük imperiyalar quran osmanlı türklərinin özü islamı könüllü qəbul ediblər. Necə riayət edirlər, o da bəlli - hər halda müsəlman-türklərdən terrorçu çıxmayıb...

Yaxud bizim "Çarlilər" yeri gəldi-gəlmədi müsəlmanları "çağırılmamış qonaqlar" kimi Avropa ölkələrinə axın edib, oranın "nizamını pozmaqda" suçlayırlar. Amma hesablama aparsan, bu gün Şərq *(xüsusən də neft-qazı olan müsəlman)* ölkələrində Qərbdən olan əli silahlı "çağırılmamış qonaqlar" on dəfələrlə çoxdu. Xeyir ola?

***

Yerli "Çarli"lərə daha bir sual. Hamı bilir ki, BMT-də əsas söz sahibləri Təhlükəsizlik Şurasının 5 daimi üzvü - ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çindir. Yəni müharibə, sülh, hansısa müsəlman ölkəsinin torbasını tikmək məsələlərində bu dövlətlər həlledici səsə və ya veto hüququna malikdirlər. Yaxşı, dünyanın, Qərbin ədaləti harda qaldı ki, həmin daimi üzvlər arasında bircə müsəlman dövləti də yoxdur!

Necə olur 2 milyard xristianı orada 4 dövlətlə *(ABŞ, Rusiya, Böyük Britaniya, Fransa)*, 2 milyard buddist Çinlə təmsil oluna bilir, 1 milyard yarım müsəlmanı isə təmsil edən bir dövlət də yoxdur? Nədən, məsələn, müsəlman Türkiyə orada olmasın? Özünə "Çarli" deyib Fransa uğrunda yaxasını cıranları, hər şeydə Qərbi gözüyumulu haqlı çıxaranları bu sualların hamısının üzərində düşünməyə çağırıraq.

# Gültəkin Hacıbəylinin müstəntiqlə çəkişməsi jurnalistlərə yönəldildi

## Məhkəmə sabiq deputatı təhqir edən müstəntiq Mahmud Mehdiyevin çıxışını jurnalistlərin təhrifi kimi təqdim edərək hökm çıxarıb; "Palitra"nın baş redaktoru açıqlama verdi


Gültəkin Hacıbəyli

**Milli Şuranın üzvü, sabiq deputat Gültəkin Hacıbəyli "Yurd TV"nin, "Palitra" və "Kaspi" qəzetlərinin, teleqraf.com, sia.az saytlarının əməkdaşlarını məhkəməyə verib. G.Hacıbəyli jurnalistlərin xüsusi ittiham qaydasında cəzalandırılmasını tələb edir.**

Jurnalistlərə qarşı iddia üzrə məhkəmənin hazırlıq iclası yanvarın 23-də Yasamal Rayon Məhkəməsində hakim Aqşin Əfəndiyevin sədrliyi ilə keçiriləcək.

Meydan TV-yə danışan G.Hacıbəyli bildirib ki, Xətai Rayon Prokurorluğunun müstəntiqi Mahmud Mehdiyevi mətbuat konfransında onu təhqir edib. Müstəntiq söylədiyi fikirləri təkzib edib və jurnalistlərin onun dediklərini təhrif etdiyini bildirib.

Yəni məsuliyyəti jurnalistlərinə üzərinə atıb. G.Hacıbəyli deyib ki, Yasamal Rayon Məhkəməsində hakimi Azər Tağıyev absurd şəkildə bəraət hökmü çıxarıb: "Hökmdə bildirilib ki, ifadələr Mahmud Mehdiyevə məxsus deyil, müəlliflər jurnalistlərdir. Bununla məsuliyyət Mehdiyevin üzərindən götürülərək jurnalistlərin üzərinə qoyulub. Əlbəttə, mən də həmin ifadələrin müəllifinin Mehdiyev olduğunu bilirəm. Təəssüf ki, hakim belə bir absurd qərar qəbul etdi. Mən də məcburiyyət qarşısında bu addımı atmalı oldum. Bir daha deyirəm, jurnalistləri məhkəməyə vermək niyyətində deyildim".

**Onun sözlərinə görə, işə məhkəmə istintaqı ilə baxılmasını və jurnalistlərin də dəvət olunmasını istəyiblər:** "Ancaq hakim tələbimizi rədd etdi, indi çıxılmaz vəziyyətdə qalmışıq. Ortada təhqir və böhtanlar var, bunlara da kimsə cavab verməlidir".

Bu saytlardan bir neçəsi ilə əlaqə saxlayıb, mövqeyini öyrənmək istəsək də, cəhdlərimiz baş tutmadı.

**"Palitra"nın baş redaktoru Namiq Əliyev "Yeni Müsavat"a qısa şəkildə bunları dedi:** "Gültəkin Hacıbəyli Milli Məclisin deputatı olanda Azərbaycan dövlətini, iqtidarın siyasi xəttini nəinki ölkə daxilində, hətta Avropada da tərifləyirdi. Elə ki, millət vəkili statusunu itirdi, onda başladı dövlətin əleyhinə danışmağa. Bizim belə insanlara münasibətimiz daim mənfi olub və olacaq".

"Yurd TV" isə Prezident Administrasiyasının nurçu qalmaqalına görə istefaya göndərilən sabiq şöbə müdiri Elnur Aslanovdan sonra bağlanıb. E.Aslanovun nəzarətində olan internet televiziyası fəaliyyətini dayandırıb.

❑ E.SALAMOĞLU

**Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzindəki 11 partiyadan altısı seçki bloku yaratmaq barədə qərar verib. Bu barədə mərkəzdən "Yeni Müsavat"a məlumat verilib. Məlumatda deyilir ki, Mərkəzdəki partiyalardan KXCP, Azərbaycan Xalq Partiyası, Azadlıq Partiyası, Böyük Azərbaycan Partiyası, Azad Demokratlar Partiyası, Liberal Demokrat Partiyası seçki bloku yaratmaq qərarına gəliblər. Blok yaxınlarda rəsmən elan olunacaq.**



# Altı partiya seçki bloku yaratmaq qərarı verdi

## Blokun adı bir həftə sonra elan ediləcək

Məlumatı dəqiqləşdirmək üçün mərkəzə daxil olan Azadlıq Partiyasının sədri Əhməd Orucla əlaqə saxladıq. Əhməd Oruc seçki bloku yaradılması barədə qərar verildiyi xəbərinin doğru olduğunu bildirdi: "Uzun müddət idi Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində 2015-ci il parlament seçkiləri ilə bağlı seçki blokunun yaradılması üçün danışıqlar gedirdi. Seçkilərdə əməkdaşlıqla bağlı bu yaxınlarda yaydığımız müraciət də bu danışıqların nəticələrindən idi. Müzakirələr nəticəsində belə qərara gəlindi ki, kimlər seçkidə birlikdə iştirak etməyi mümkün hesab edir, onların seçki bloku yaradılmasına başlanılsın. Bir neçə partiya var ki, onlar hələlik yekun qərarlarını verməyiblər. Adlarını çəkdiyiniz 6 partiya seçki bloku yaratmaq üçün razılıq verib. Seçki blokunda bu partiyalar birləşəcək. Aydınlar Partiyası ilə Vətəndaş və İnkişaf Partiyası hələlik bu məsələ ilə bağlı yekun qərarlarını verməyiblər. ADP və Ümid Partiyası danışıqlar prosesində iştirak edirdilər. Əslində blok yaradılması ilə bağlı təklif də onların olub. Amma qərar verilməsi mərhələsinə çatanda onlar toplantıya qatılmadılar. Bizə açıqlamadıqları səbəbdən sonuncu toplantıya qatılmadılar. Müsavat Partiyası da yaradılacaq seçki blokunda iştirak etmir.

Mənim müşahidələrimə görə, ADP ilə Ümid Partiyası Müsavatla üçlükdə seçki bloku yaratmaqda maraqlı görünürlər. Müsavat Partiyası isə AXCP ilə birlikdə olmaq istəyindədir. Bu istəklərin hələlik heç biri reallaşmır. Biz də bildirdik ki, kim kiminlə birlik istəyir, Allah uğur versin, biz seçki blokunu yaradırıq, kim istəyir qoşula bilər".

**Ə.Oruc onu da dedi ki, yaratdıqları seçki blokunun parlament seçkilərində vahid namizədlər siyahısı olacaq. Blokun adı ilə bağlı müxtəlif variantlar var:** "Onlardan birinin üzərində növbəti toplantıda dayanacağıq. Biz hesab edirik ki, parlament seçkiləri ilə bağlı seçki blokundan söhbət gedirsə, blokun ilk növbədə vahid namizədlər siyahısı olmalıdır, seçki qərargahı olmalıdır. "Seçki bloku yaradaq və həmin blokda seçkinin monitorinqini aparmaqda əməkdaşlıq edək" kimi yanaşma seçki blokunun mahiyyəti ilə uyğun gəlmir. Seçkilərdə müşahidəçilik məsələsində əməkdaşlığı blok olmadan da aparmaq olar. Blokun deputatlığa namizədlərinin dairələr üzrə müəyyənləşməsi və cəmiyyətə siyahının təqdim olunması yoxdursa, onu seçki bloku adlandırmaq yanlışdır".

**Ə.Oruc onu da dedi ki, 6 partiyanın blok yaratması Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin fəaliyyətinə son verilməsi demək deyil:** "Mərkəz siyasi məhbusların azad olunması və insan haqları məsələləri ilə bağlı siyasi partiyaların əməkdaşlıq qurumu olaraq yaradılıb. Qeyd olunan problemlər hələ də qalır və mərkəzdəki partiyaların da əməkdaşlığı, fikrimcə, davam edəcək.

❑ E.SEYİDAĞA



# Umayra Tağıyeva işdən çıxması haqda danışdı

## "Öz istəyimlə ərizə yazaraq getmişəm"

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru vəzifəsindən istefa edən Umayra Tağıyeva vəzifədən getməsinin səbəbləri ilə bağlı "Yeni Müsavat" qəzetində yazılanlara aydınlıq gətirib.**

U.Tağıyeva bildirib ki, yazılanlar əsassızdır və işdən öz istəyi ilə ərizə yazaraq ayrılıb: "Mən iki dəfə nazirin qəbulunda olmamışam, səhv proqnozlara görə mənə heç bir irad bildirilməyib, töhmət verilməyib. Onu da nəzərinizə çatdırım ki, bizim verdiyimiz proqnozlar hər zaman özünü doğruldub. Mən heç vaxt verdiyim proqnoza görə töhmət almamışam. Bu, həqiqətən belədir. 2002-ci ildən - nazirlik yaranandan mən proqnozlar bürosuna rəhbərlik edirəm. Ondan əvvəl isə 1993-cü ildə mən keçmiş Hidrometeorologiya Komitəsində proqnozlar şöbəsinin rəisi olmuşam. İşdən ayrılmağım mənim öz qərarım olub və öz ərizəmlə, öz xahişimlə vəzifədən getmişəm".

Qeyd edək ki, redaksiyamıza daxil olan məlumatlarda U.Tağıyevanın yanlış proqnozlar verdiyinə görə nazir Hüseyn Bağırov tərəfindən iki dəfə tənqidlərə məruz qaldığı və bu səbəbdən ərizə yazaraq vəzifədən getdiyi qeyd olunurdu.

❑ Nərgiz LİFTİYEVA

# Prezident reytinqini açıqladı, bəs müxalifət?

**"Mənim reytinqimdə heç bir problem yoxdur. Azərbaycanda keçirilən sorğulara görə, reytinqim 90 faizə yaxındır. Bu da son illər ərzində Azərbaycanda aparılan islahatlarla bağlıdır". Bunu Azərbaycan prezidenti İlham Əliyev Almaniya kansleri Angela Merkellə görüşdən sonrakı mətbuat konfransında alman jurnalistinin sualına cavab olaraq bildirib.**

Prezident deyib ki, Azərbaycan son 11 ildə iqtisadi cəhətdən dünyanın ən sürətlə inkişaf edən ölkəsi olub: "İqtisadiyyat 3 dəfədən çox artıb, işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görüb. Belə nəticələrlə, əlbəttə ki, hər bir rəhbərin reytinqi yüksək olmalıdır".

Prezidentin öz reytinqi haqda açıqladığı rəqəm müxalifət liderlərinin nüfuzunun nə yerdə olduğu sualını aktuallaşdırır. Görəsən, müxalif partiya sədrlərinin xalq arasında reytinqi nə qədərdir? Zaman-zaman bu səpkidə sorğular keçirilsə də, birmənalı olaraq nəticələrlə razılaşmayanlar olub.

**Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** belə bir sorğu keçirilmədiyini bildirdi.

Onun sözlərinə görə, Müsavat heç vaxt partiya liderinin xalq arasında reytinqini müəyyən etmək üçün sorğu keçməyib. G.Aslanlı qeyd etdi ki, Almaniyada səslənən fikirlər faktlara söykənmir:



### Gülağa Aslanlı: "Müsavat liderinin xalq arasında reytinqini müəyyən etmək üçün sorğu keçirməyib"

"Seçkilər necə keçirilirsə, reytinq sorğuları da elə keçirilir. Bu, sadəcə, xalqın adından danışmaqdır".



### Sərdar Cəlaloğlu: "Alternativ olmayan yerdə ictimai rəy olmur"

**ADP sədri Sərdar Cəlaloğlu isə bir amerikalı ilə etdiyi söhbəti yada saldı:** "O deyirdi ki, taksiyə oturursan və özünü təqdim etmədən sürücünün rəyini öyrənirsən. Sonra səni tanıyanda bayaq dediklərinin əksini danışır. Odur ki, qorxu mühitində ictimai rəy həqiqəti ifadə etmir. Sovet vaxtı atalarını Stalin öldürürdü, sonra Stalin öləndə ona ağlayırdılar. Əvvəlcə ictimai rəyi bildirənin kimliyinə baxmaq lazımdır. Azərbaycanda ictimai rəy birtərəfli aparılır".

**S.Cəlaloğlunun fikrincə, televiziyada iqtidar-müxalifət debatları, diskussiyalar təşkil olunsa tərəflərə qiymət vermək olardı:** "Alternativlik olmayan yerdə ictimai rəy olmur. Müxalifət üçün də reytinqi öyrənmək imkanı qalmayıb. Amerikanlar sorğu keçirir. İnsanlar həyatından, yaşayışından narazılıq edir. Növbəti suallara cavabda prezidentə inandıqlarını, dövlət qurumlarının fəaliyyətindən razılıq etdiklərini bildirirlər. Yaxşı, sən həyatından narazısansa, bunun səbəbkarı olan prezidentə, o dövlət orqanlarına niyə inanırsan? Yəni ictimai rəyi verən başına gələnlərlə onu idarə edənlərin əlaqəsini başa düşmür. Siyasətlə düşdüyü acınacaqlı vəziyyətin arasında rabitə görmür".

❑ E.SALAMOĞLU



# “Azərbaycana ağıl öyrətməsinlər...”

## Əli Həsənov Azərbaycan əleyhinə olan QHT-lərdən danışdı

**“Bəzi kənar maraqlı dairələrin verdiyi subyektiv qiymətdən asılı olmayaraq, Azərbaycanda QHT sektorunun fəaliyyəti bəlkə də dünyada ən nümunəvidir”. APA-nın məlumatına görə, bunu Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının illik hesabatına həsr edilmiş konfransda çıxışı zamanı deyib.**

Ə.Həsənovun sözlərinə görə, heç kim deyə bilməz ki, Azərbaycan siyasi əqidəsinə, hakimiyyətə münasibətinə, cəmiyyətdə tutduğu mövqeyə görə ona müraciət etdiyi sahə üzrə qrant verilməsindən imtina olunub. “Şura üzvləri hər bir təşkilatın müraciətini dəyərləndirib, sonra onlara qrant ayrılıb. Amma bu gün bizə vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti sahəsində ağıl öyrətmək istəyən həmin o bəzi dairələrin, dövlətlərin burada verdikləri qrantlara baxın. İllərdi, o qrantları eyni istiqamətlər üzrə eyni təşkilatlar, bəlli sahələr üzrə idarə olunan, lazım olanda Azərbaycan dövlətinə, onun maraqlarına qarşı istifadə edilən insanlar alırlar. Çox uzağa getmirəm, bugünlərdə ABŞ-ın Demokratiyaya Yardım Milli Fondunun keçirdiyi dinləmələrdə iştirak edərək Azərbaycanı təmsil edən QHT-lərə baxın. Onlar bizim yaralı yerimiz olan, neçə illərdir ki Azərbaycan dövlətinin bütövlünü, suverenliyimizi pozan, bizim milli dövlətçiliyimizə ciddi problem yaradan və Dağlıq Qarabağı təmsil edən ”QHT-lər"lə bir araya gəlib, heç bir etiraz etmədən, heç bir münasibət ortaya qoymadan Azərbaycandakı vəziyyəti “postulatlar” çərçivəsində təhlil etdilər. Onları burada təbliğ edən qüvvələr - siyasi partiyalar, bəzi mətbuat orqanları da var. Eləsinlər, bu onların öz işidir. Amma Azərbaycana ağıl öyrətməsinlər, demokratiya dərsi keçməyə çalışmasınlar. Azərbaycana III sektorun fəaliyyəti ilə bağlı özlərinin subyektiv mülahizələrini və postulatlarını zorla təlqin etməsinlər. Bu, Azərbaycandakı QHT sektorunun fəaliyyəti və ortaya qoyduğu mövqe, QHT-lərə verdiyi sifarişlər və aldığı nəticələr, bu da həmin demokratiya carçısı olan dövlətləri təmsil edən donor təşkilatlarının fəaliyyəti..."

**Ə.Həsənov qeyd edib ki, Azərbaycana qarşı vahid mərkəzdən siyasət formalaşdırılır:** “Təkrar edirəm, hakimiyyətə qarşı deyil, Azərbaycanın, ölkənin milli maraqlarına qarşı vahid mərkəzdən siyasət formalaşdırırlar. Qondarma ”DQR"i təmsil edən şəxslər və “QHT”-lərin nümayəndələri ilə bir arada oturub, heç bir etiraz etmədən, onlara heç bir rəy bildirmədən Azərbaycandakı vəziyyəti təhlil etmək elə onlardan heç nə ilə fərqlənməmək deməkdir. Belələri ictimai naqdan söhbət gedir. İctimai qınaq sözlərlə həyata keçirilir. İctimai qınaq heç vaxt kiməsə qarşı fiziki tədbir və digər bu kimi vasitələri nəzərdə tutmur. Əgər onlar ictimai qınaqla insana qarşı bu və

**“Hakimiyyətə qarşı deyil, Azərbaycanın, ölkənin milli maraqlarına qarşı vahid mərkəzdən siyasət formalaşdırırlar”**

qınağa tuş gəlməlidir. Bir dəfə mən ictimai qınaqla bağlı danışdım. Onları müdafiə edən qüvvələr iddia etdilər ki, Azərbaycan hakimiyyəti QHT-lərdən və bəzi antiAzərbaycan qüvvələrindən qisas almağa çalışır. Xeyr! Burada qisasdan söhbət getmir. Burada, sadəcə olaraq, ictimai qıya digər fiziki təqibi fərqləndirə bilmirlərsə, bundan sonra siyasətlə məşğul olmalarının, yaxud da cəmiyyətə nəyisə təlqin etmələrinin heç bir mənası yoxdur. Bu anlamda həm QHT-lər, həm də Dövlət Dəstəyi Şurası belə məsələlərə öz münasibətini bildirməlidir".

# İqtisadçılar hökumətə çıxış yolları göstərdi

## Qubad İbadoğlu: “Düzgün qərarlar vaxtında verilməzsə, iqtisadiyyatımız üçün çətin illərdən biri ola bilər”

**Yanvarın 22-də Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatı neftin qiymətinin Azərbaycana təsiri mövzusunda dəyirmi masa keçirib. Musavat.com-un xəbərinə görə, “Dünya bazarında neftin qiymətinin ucuzlaşmasının və Rusiyada iqtisadi böhranın Azərbaycana mümkün təsirləri” mövzusunda keçirilən dəyirmi masada yerli ekspertlər, iqtisadçılar, deputatlar və siyasi ekspertlər iştirak ediblər.**

**ADR Hərəkatının Təşkilat Komitəsinin sədri Qubad İbadoğlu** çıxış edərək bildirib ki, rəhbərlik etdiyi təşkilatın təşəbbüsü ilə müxtəlif aktual mövzularda müzakirələrin təşkili qərarlaşdırılıb: “İlk tədbir son dövrlər qonşu ölkələrdə və dünya bazarında baş verən dəyişikliklərin Azərbaycana mümkün təsirlərinə həsr olunub. Məqsədimiz intellektual müstəvidə müzakirələr təşkil etməklə mövcud problemlər barədə mətbuatı və ictimaiyyəti vaxtında məlumatlandırmaq, problemlərin həllinə dair fikir və mülahizələrimizi bölüşmək, eləcə də ondan çıxış yollarını göstərməklə hökumətin siyasətinə təsir göstərməkdir”.

**Hazırda müzakirəyə təqdim olunan Rusiyadakı son vəziyyət və neftin qiymətinin ucuzlaşmasının Azərbaycanda da iqtisadi və sosial sferaya əhəmiyyətli təsirlərindən danışan Q,İbadoğlu onların təsir dərəcəsini fərqli səviyyədə və müxtəlif zaman çərçivəsində qiymətləndirməyi məqbul hesab edib. O qeyd edib ki, son 10 ildə xarici faktorlardan asılı vəziyyətdə inkişaf edən Azərbaycan iqtisadiyyatı hazırda sınaq qarşısındadır:** “Odur ki, bu il yaranmış yeni situasiyanı nəzərə alaraq düzgün qərarlar vaxtında verilməzsə, iqtisadiyyatımız üçün çətin illərdən biri ola bilər. Çünki son aylarda dünya bazarında neftin qiymətinin sürətlə ucuzlaşması səbəbindən Azərbaycanda da neft-qaz gəlirlərinin kəskin azalması müşahidə olunur. Onun davamlı ola biləcəyi reallığını qəbul etməyən hökumətin bu il ərzində dövlət büdəsi və Neft Fondunun büdcəsinin gəlirlərini 1 barel üçün 90 ABŞ dolları orta qiyməti ilə hesablamasını yanlış yanaşma hesab edirəm”.

**Ekspert bildirib ki, neft-qaz gəlirləri ilə əlaqəli daxilolmaların payının dövlət büdcəsində 75 faizə çatdığını, Neft Fondunun büdcəsində isə Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlərin 95 faizdən çox olduğunu nəzərə alsaq, bu halda əsassız proqnozların ciddi fəsadları ilə üzləşə bilərik:** “Mənim hesablamalarıma görə, bu il Azəri-Çıraq-Günəşli yatağı üzrə hasilat ötənilki səviyyəsində qalarsa, dünya bazarında neftin 1 barelinin qiyməti 2015-ci ildə pis ssenari üzrə orta hesabla 40 dollar olarsa, Azərbaycan Dövlət Neft Fondu 3 milyard 714 milyon, orta ssenari üzrə 50 dollar olarsa, 4 milyard 704 milyon, optimist ssenari üzrə 60 dollar olarsa, 5 milyard 942 milyon ABŞ dolları məbləğində mənfəət neftinin satışından gəlirə sahib ola bilər. Bu isə o deməkdir ki, ötən illə müqayisədə Neft Fondunun gəlirləri il ərzində 1 barel neftin qiyməti 40 dollar olarsa, 8 milyard 116 milyon, 50 dollar olarsa, 7 milyard 736 milyon, 60 dollar olarsa, 6 milyard 498 milyon ABŞ dolları azala bilər. Nəzərə alsaq ki, Neft Fondunun bu il ərzində yalnız dövlət büdcəsi qarşısında transfer öhdəliyi 10 milyard 388 milyon manat və ya 13 milyard 233 milyon ABŞ dollarıdır, onda fondun cari ildəki gəlirləri yalnız büdcəyə nəzərdə tutulan köçürmələrin pis halda 28 faizini, orta halda 35,5 faizini, yaxşı halda isə 47,9 faizini ödəyə bilər. Yerdə qalan vəsaitlərin maliyyələşdirilməsi üçün mənbələrdən biri fondun aktivləri olsa da onun investisiyalarının 82,2 faizinin istiqrazlarda və yalnız ondan 9,2 faizinin qısa müddətli kommersiya kağızlarında yerləşdirildiyini nəzərə alanda, bu istiqamətdə maliyyələşmə açmaq asan olmayacaq. Odur ki, Neft Fondu aktivlərinin idarəedilməsi siyasətində də dəyişikliklər aparmalıdır. Ölkədə sabitləşdirici fondun olmaması Neft Fondu tərəfindən investisiya olunan vəsaitin geri çəkilməsinə, imzalanmış müqavilələrin pozulmasına və bu səbəbdən də əlavə xərclərin yaranmasına və itkilərə gətirib çıxara bilər”.

Digər mənbə kimi dövlətin xarici borclanmaya getməsini göstərən ekspert qeyd edib ki, Maliyyə Nazirliyinin verdiyi məlumata görə, 01 oktyabr 2014-cü il tarixə xarici dövlət borclarının 6 milyard 380 milyon ABŞ dolları olub və onun ÜDM-də payı 8,5 faiz təşkil edib. O, bunu normal hədd hesab etsə də, son dövrün dinamikasında müşahidə olunan artımı pis tendensiya kimi qiymətləndirib.

Q.İbadoğlu təklif edib ki, hökumət bu vəziyyətdən çıxmaq üçün ilk növbədə Azərbaycan Respublikası dövlət büdcəsinin və Neft Fondu büdcəsinin bu il üçün gəlirləri real vəziyyətə uyğunlaşdırılmaqla yenidən hesablamalı, müxtəlif qiymət ssenariləri üzrə yalnız mövcud gəlirlərin deyil, həm də xərclərin optimallaşdırılmasına nail olunmalıdır. O, xüsusilə də iş yerlərinin bağlanması və əmək haqqı gəlirlərinin azalmasına yol vermədən dövlət xərclərinin ixtisarı yolu ilə onun səmərəliliyinin artırılmasına yönələn qərarların qəbulunu məqbul hesab edib.

**Q.İbadoğlu qeyd edib ki, Mərkəz Bankın məlumatına görə, ötən ilin son rübündə Rusiyanın valyuta bazarında baş verən böhran nəticəsində rublun kəskin ucuzlaşması Azərbaycanın valyuta bazarına psixoloji təsir göstərib:** “Nəticədə 2014-cü ilin dekabr ayının ortalarında ABŞ dollarına tələbat yaranmış və bazarda yaranan yeni durumu tənzimləmək üçün öz funksiyasına uyğun olaraq Mərkəzi Bank qeyri-nağd və nağd şəkildə bazara 1 milyard 127 milyon ABŞ dolları məbləğində satışyönlü müdaxilə edib”. Bu istiqamətdə müdaxilələrin getdikcə artacağını proqnozlaşdıran ekspert manatın sabitliyinin qorunmasının bu il ərzində hökumətə çox baha başa gələcəyini və Mərkəzi Bankın valyuta ehtiyatlarının da bu səbəbdən kəskin azalacağını bildirib.










Yekunda baş verən təsirləri makroiqtisadi, biznes və ailə təsərrüfatları səviyyəsində qiymətləndirən Q.İbadoğlu yaranmış yeni situasiya və şərtlər daxilində makro-iqtisadi şoklar nəzərə alınmaqla hər üç istiqamətdə qabaqlayıcı tədbirlər planının hazırlanmasının və iqtisadiyyatın liberallaşdırılması istiqamətində köklü islahatların aparılmasının zəruriliyini önə çəkib.

Deputat Vahid Əhmədov isə bildirib ki, neftin qiyməti 60 dollardan yuxarı olmayacaq və bu, Neft Fondu üçün narahatçılıq yaradır. O, Rusiyaya qarşı olan sanksiyaların birbaşa Azərbaycana təsir edəcəyini də vurğulayıb. V.Əhmədov bildirib ki, problemlərdən biri də dövlət büdcəsinin xərclənmə mexanizminin düzgün müəyyən olunmamasıdır. O, 2015-ci il ərzində əhalinin əmək haqqı və pensiyalarla bağlı ciddi problem yaşamayacağını da vurğulayıb.

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Tubzon



**Zamin HACI**
zaminhaci@gmail.com

**Ədliyyə Nazirliyi Penisentiar İdarəsi türmələrdə hər şeyin yaxşı olduğunu deyir, ancaq ordan gələn xəbərlər bunu təsdiqləmir. Gah hansısa məhkum döyülüb öldürülür, gah hansısa türmədə qiyam qalxır. Qiyamdan sonra isə günahkarları yox, aranı sakitləşdirmək istəyənləri cəzalandırırlar - vərəmli xəstələr üçün zindana göndərirlər. Oranın "özünəməxsus" adı da var dustaqlar arasında: "Tubzon". Rusca "tuberkulyoznaya zona" ifadəsindən düzəldiblər. Bir növ, tubzon indi bizim balaca repressiya dövlətciyimizin öz "QULAQ arxipelaqı"dır. Kim tubzona basılırsa, sağ çıxmaq ehtimalı azalırmış. Əcaib yerdir. Adından göründüyü kimi, burda vərəm xəstəliyinə tutulan dustaqlar müalicə edilməlidir, yapistlər isə tubzondan cəza mexanizmi olaraq yararlanır. Faşistlərin yəhudilər üzərində apardığı tibbi "təcrübələr" yada düşür.**

Sözgəlişi, bizdə xeyli SSRİ pərəstişkarı da var, onlar hətta 1990-cı ilin yanvar hadisələrini - Bakıda dinc əhalinin kütləvi məhvini o dövlətin boynundan atırlar. Deyirlər guya o, əsl SSRİ deyilmiş. *(Dini mövzulardakı "əsl islam bu deyil" söhbəti kimi)*. Əlbəttə. Ukraynada "qolodomor" törədib milyonları acından qıran, 37-38-ci illərdə yenə milyonlarla insanı repressiya edib öldürən, 1956-cı ildə Macarıstana, 1968-ci ildə Çexiyaya, 1979-cu ildə Əfqanıstana, 1986-cı ildə Alma-Ata şəhərinə, 1989-cu ildə Tiflisə və sairə və ilaxır - SSRİ-nin planetdə zorla girmədiyi deşik qalmamışdı - girən qanlı ordu kommunist rejimini təmsil eləmirmiş. Hardansa Marsdan gəlibmiş. Amma Mars uzaqdır, bu işdə Amerika barmağı axtaran zarafatcıllar da var.

Mənim uşaqlığım SSRİ-yə, onun yenidənqurma dövrünə düşüb, o vaxtlar bu "qulaq" sözü çox işlənirdi, elə zənn edirdim insan orqanı qulaqdan söhbət gedir. Hətta özümdən bir nəzəriyyə də uydurmuşdum uşaq ağlımla: rejimə qarşı çıxan bu adamlara pis sözlər danışıb, pis sözlərə qulaq asdıqları üçün, imperialistlərə "şpionluq" elədikləri üçün "qulaq" deyirlər. Bu nəzəriyyəyə gəlməyimdə sovetlərin idarələrə qoyduqları "Baş idarə" tipli adlar da rol oynamışdı. Yalnız bir az müstəqil kitab-dəftər oxumağa başlayanda "qulaq" sözünün rusca "qlavnaya upravlenie laqerey" *(baş düşərgələr idarəsi)* sözlərindən yarandığını öyrənmişdim. Sovet hökuməti hər şeyə bir düşərgə adı yapışdırmağı sevirdi, sanki daimi olmayacağını anlayırdı. Pioner düşərgələri, islah-əmək düşərgələri... Maraqlıdır ki, bir zamanlar cəbhənin o tayındakı alman faşistləri də öz cəza obyektlərinə "konslager" - "toplama, cəmləşdirmə düşərgələri" adı qoymuşdular.

Görəsən, indi bizdə türmələrə niyə müəssisə deyirlər? Özü də çox zırıltı bir adla: cəzaçəkmə müəssisəsi! Həmin ərazilərdə yapistlər cəza istehsalı, cinayətlərin artırılması və bundan mənfəət götürülməsi ilə məşğuldurmu? Hər halda, Azərbaycan cəmiyyətində əksər cinayətlərin artım dinamikası, xalq arasında qeyri-sağlam mühit, böyük və hərdən orda-burda partlayıb üzə çıxan sosial gərginliklər bu cəzaçəkmə müəssisələrində "istehsal prosesinin" güclü təşkil olunduğunu göstərir.

Xədicə İsmayıl, Leyla Yunus, Seymur Həzi və başqaları yapizm zindanlarına davamlı təzyiqlərə, işgəncələrə məruz qalır, onların vəkillərini də az qalırlar tutub içəri salsınlar. Karser cəzası artıq adiləşdirilib, halbuki bunun üçün çox ciddi əsaslar olmalıdır. Adamları içəridə yazdıqları məktublara görə karserə salırlar.

Bu yaxında Şəkidən şikayətlər oxudum. Adamlar deyirdilər ki, Şəkidə türmənin şəhərin içində tikilməsini pis qarşılayırlar, çünki turizm zonası, qədim tarixi şəhərdə türmə tikmək yaramazlıqdır. Çox haqlı şikayət idi. Sanki rejim bu üsyankar şəhəri damğalamaq, daim gözü önündə duran zindanla qorxutmaq istəyibdir. Qobustanı da biz çoxdandır qədim tarixi abidəmiz kimi yox, zindan yerimiz kimi tanıyırıq. Bu da bir ayrı qəsddir.

# Prezident Davos Forumunda çıxış edib

## Dövlət başçısı bir neçə şirkət rəhbərləri ilə görüşüb

**Yanvarın 21-də İsveçrənin Davos şəhərində 45-ci ənənəvi illik Dünya İqtisadi Forumu işə başlayıb. Yanvarın 25-dək davam edəcək və "Yeni qlobal kontekst" devizi altında keçirilən forumun gündəliyinə dünya bazarlarındakı mövcud durum, aparıcı valyutaların məzənnələrindəki dəyişikliklər, neft bazarındakı qiymət, müxtəlif münaqişə ocaqlarının yenidən alovlanması və terror təhlükəsinin artması kimi mövzular daxildir.**

Tədbirə dünyanın 140-dan artıq ölkəsindən 2500-dən çox nümayəndə qatılıb.

Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-dən Davosdadır və bir sıra görüşlər keçirib. Prezident İran İslam Respublikasının Prezidenti Administrasiyasının rəhbəri Məhəmməd Nəhavəndianla görüşüb. Görüşdə ölkələr arasında ikitərəfli münasibətlərin səviyyəsindən məmnunluq ifadə olundu. Ötən il Davosda Azərbaycan və İran prezidentlərinin görüşündən keçən müddətdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə uğurlu inkişafının məmnunluq doğurduğu qeyd edilib. Söhbət zamanı ikitərəfli əlaqələrin müxtəlif sahələri, o cümlədən enerji, qarşılıqlı sərmayə qoyuluşu, neft, turizm, səhiyyə və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Yanvarın 22-də prezident İlham Əliyevin isveçrəli həmkarı Simonetta Sommaruqa ilə görüşüb.

APA-nın məlumatına görə, görüşdə ölkələr arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, iqtisadi sahədə səmərəli əlaqələrin olduğu qeyd edilib və əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu diqqətə çatdırılıb.

Tərəflər İsveçrə şirkətlərinin Azərbaycanda sərmayə qoyuluşu, enerji sahəsində əməkdaşlıq, eləcə də ARDNŞ-in bu ölkədəki fəaliyyətinin əhəmiyyətini vurğulayıb.




Prezident həmçinin İsrailin sabiq prezidenti Şimon Pereslə görüşüb. Görüşdə Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edilib.

İlham Əliyevin Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviçlə görüşü olub. Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Azərbaycanın Avropanın enerji təminatında artan rolunun önəmi vurğulandı, bu sahədə "Cənub" qaz dəhlizinin əhəmiyyəti qeyd edilib. Söhbət zamanı gələn ay Bakıda keçiriləcək "Cənub" qaz dəhlizinin nazirlər səviyyəsində birinci məşvərət şurasına dair məsələlər müzakirə edilib, əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Dövlət başçısı Davosda Niderlandın "Damen Shipyards Group" şirkətinin sədri Kommer Damenlə görüşüb. Görüşdə "Damen Shipyards Group" şirkəti ilə Azərbaycanın müvafiq qurumları arasında artıq səmərəli əməkdaşlığın başlandığı vurğulanıb.

K. Damen rəhbəri olduğu şirkətin Azərbaycanda hərbi, mülki və xidməti gəmilərin istehsalına maraq göstərdiyini bildirib.

Azərbaycan prezidentinin Rusiya "Sberbank"ının sədri German Qreflə görüşüb.

İ.Əliyev Azərbaycanın maliyyə qurumları ilə "Sberbank" arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edib. Dövlət başçısı bu əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

**"Trend"in məlumatına görə, prezident İlham Əliyev forumun "Transformasiya prosesində regionlar: Avrasiya" sessiyasında iştirak edib. Dövlət başçısı çıxışında deyib ki, Azərbaycan 1991-ci ildə müstəqil olub:** "Bu, regionda böyük dəyişiklik, eləcə də bizim qarşımızda böyük vəzifə idi, çünki müstəqil dövlət qurmaq imkanı yaranmışdı. Biz dövlət qurmalı, eləcə də bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan müasir iqtisadiyyat yaratmalı idik".

**Prezident Azərbaycanda baş verən transformasiyalar barədə də danışıb:** "Bizim üçün transformasiya siyasi sistemin transformasiyası demək idi, çünki müstəqilliyin əldə edilməsinə qədər bu bizdə yox idi. Bu, həmçinin planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına transformasiya idi".

# "Putinin alternativi iqtidarın içərisindədir"

## **Ərəstun Oruclu:** "Rusiyada hakimiyyət dəyişikliyi Qərbin ardıcıl təzyiqləri, sanksiyalar səbəbindən ölkədə iqtisadi böhranın yaranması nəticəsində baş verə bilər"

**Qərb ölkələri Ukraynanın cənubi-şərqində münaqişədən istifadə edərək öz maraqları naminə Rusiyanı iqtisadi cəhətdən sıxışdırmaq və Rusiya Federasiyası prezidenti Vladimir Putinin devrilməsinə nail olmaq istəyirlər.**

Oxu.az-ın məlumatına görə, bu fikri "Arqumentı i faktı"ya verdiyi müsahibəsində dövlət başçısının mətbuat katibi Dmitri Peskov bildirib. "Əminəm ki, Qərb bizdən heç vaxt əl çəkən deyil. İş nə Krımda, nə də Ukraynadadır. Krım olmasaydı başqa bir səbəb düşünüb tapacaqdılar, bu barədə Putin bildirib: biz müstəqil, suveren və güclü olmalıyıq"- deyə, Peskov bəyan edib.



Qeyd edək ki, Putinin ən yaxın adamlarından birinin hakimiyyət dəyişikliyi mövzusunu gündəmə gətirməsi Rusiya liderinin özünü o qədər də rahat hiss etməməsinə işarədir. Məsələ burasındadır ki, son dövrlərdə yalnız Qərbdə deyil, Rusiyanın özündə də bir sıra ekspertlər Qərbin sanksiya və iqtisadi embarqolarının Rusiyada hakimiyyət dəyişikliyinə aparacağı ilə bağlı proqnozlar verirlər. Ehtimal olunur ki, sanksiyaların uzun müddət davam etməsi Rusiya iqtisadiyyatının çökməsinə, inflyasiyaya səbəb olacaq və nəticədə reytinqi düşən Putinin devrilməsi cəhdi olacaq. Ancaq hazırda artıq 15 ildir Rusiyanı idarə edən Putinin siyasi alternativi varmı? Hətta dərin siyasi-iqtisadi böhran baş verəcəyi təqdirdə hakimiyyəti götürməyə hazır olan qüvvə hansılar ola bilər?

**Politoloq Ərəstun Oruclu deyir ki, Rusiyada indiki Putin hakimiyyətinə alternativ ola biləcək iki qüvvənin ikisi də hakimiyyətin öz içindədir:** "Rusiyada iki əsas siyasi qüvvə var. Bunların ikisi də hakimiyyət daxilindədir. Bunlardan birincisi, şərti olaraq liberal iqtisadiyyat tərəfdarları olan və şərti olaraq liderləri Dmitri Medvedyev olan qrup, ikincisi isə hərbçilər, hərbi-sənaye kompleksini təmsil edən qüvvələr. Bu qrupun əsas liderləri Sergey İvanov və Dmitri Roqozinin adı hallanır. Əsas bu iki qüvvədir. Şübhəsiz ki, cəmiyyətdəki liberal kəsim də seçim eləyəsi olsa, Medvedyevə dəstək verəcək".

**Politoloq deyir ki, Putinin hərbi dairələrə yaxın olması iddiası doğru deyil, Rusiya ordusu və hərbi-sənaye kompleksi rəhbərliyi hər zaman güc mərkəzi olub və siyasi gücə sahib olub:** "Putinin hərbi cinahın adamı olması doğru deyil. Onlar həmişə ayrı olublar. Yalnız qısa bir müddətdə Putin mülki şəxsi müdafiə naziri təyin etdiyi müddətdə o struktura az-çox nəzarət edə bilib. Sonradan struktur özünə general rəhbər gətirdi və məlum oldu ki, orda yetərincə güclü nəzarət olmayıb. Rusiyada hərbçilər həmişə xüsusi çəkiyə malik olublar, çünki Rusiya hərbi dövlətdir".

**Ə.Orucluya görə, Rusiyada baş verəcək hakimiyyət dəyişikliyi daxildə baş verəcək zəifləmə və hakimiyyət böhranı nəticəsində mümkün ola bilər:** "Söhbət heç də klassik mənada çevrilişdən getmir. Rusiyada model kimi saray çevrilişi mümkündür. Güman etmirəm ki, açıq çevriliş ola bilər. İndi o dövrdə olan hərbi çevrilişlərin olması mümkün deyil. Rusiya dünyaya bağlı, dünya bazarına bağlı iqtisadiyyatı olan ölkədir. Rusiyada hakimiyyət dəyişikliyi saray çevrilişi və ya mərhələli dəyişiklik formasında olacaq. Putinin reytinqi ilə bağlı deyilənlərə ciddi yanaşmaq olmaz. Ümumiyyətlə, bu kimi ölkələrdə sosioloji sorğuların nəticələri etimad doğrultmur. Bu, Putinin qurban verilməsi deyil, daha çox siyasi maraqların təmin olunmasıdır. Medvedyev bu gün zəif görünə bilər. Ancaq Rusiya hakimiyyətinin qarşıda hansı böhrana girəcəyi, bu böhranın hara qədər dərinləşəcəyi bu məsələdə öz təsirini göstərəcək. Rusiyada hakimiyyət dəyişikliyi Qərbin ardıcıl təzyiqləri, sanksiyalar nəticəsində ölkədə iqtisadi böhranın yaranması nəticəsində baş verə bilər".

❑ **KƏNAN**

# Bakının ABŞ və Avropa ilə münasibətlərində mühüm gəlişmə

**Azərbaycanla Qərb dünyası arasında konfrontasiyanın yeni və daha gərgin məcraya adlayacağı barədə bəzi siyasi analitiklərin proqnozları özünü doğrultmadı. Xüsusilə də prezident İlham Əliyevin Almaniyaya iki günlük işgüzar səfəri bu qənaəti daha da möhkəmləndirən faktora çevrildi. Avropanın aparıcı dövlətlərindən və Avropa Birliyinin söz sahibi olan üzvlərindən biri olan Almaniyaya səfər Bakı-Brüssel, Bakı-Strasburq, həmçinin Bakı-Vaşinqton münasibətlərində də buzun sınmasının əlaməti kimi qiymətləndirilməkdədir.**



# Qərb Azərbaycanla yandırılmış körpüləri bərpa edir - sensasiya

## Prezident İlham Əliyevin Almaniya səfəri bu yöndə "dönüş nöqtəsi" ola bilər; Berlindən verilən mesajlar təkcə Rusiyaya ünvanlanmayıb; ekspertlərin də öz qənaəti var...

Belə ki, xüsusilə son bir neçə ay ərzində rəsmi Bakı ilə ABŞ və Avropanın bir sıra təsisatları arasında hökm sürən gərgin münasibətlərdən sonra prezident Əliyevin Almaniyaya səfəri kifayət qədər yüksək səviyyədə baş tutdu. Bəzi yerli müşahidəçilər Azərbaycan hakimiyyəti ilə Qərb arasında "soyuq müharibə"nin hökm sürdüyü şəraitdə reallaşan səfər zamanı İlham Əliyevə kifayət qədər soyuq münasibətin sərgiləcəyini güman etsələr də, bunun əksi müşahidə edildi. Prezidentin aeroportda qarşılanma mərasimindən tutmuş keçirilən görüşlərdə verilən mesajlara qədər bir çox məqamlar səfərin Bakının istəyinə uyğun şəkildə baş tutduğunu söyləməyə əsas verir.

Almaniya kansleri Angela Merkelin İlham Əliyevlə birgə mətbuat konfransı keçirməsi, enerji məsələləri, Qarabağ və Azərbaycandakı durumla bağlı verilən suallara elə Azərbaycan hakimiyyətinin arzuladığı formada cavab verməsi son dərəcə normal münasibətlərin təzahürü kimi dəyərləndirilir. Yeri gəlmişkən, əvvəlcədən bizdəki məlumat da bundan ibarət idi ki, Qərb Azərbaycanı Rusiyanın yan-yörəsindən yığışdırmaq üçün onun şərtləri, kaprizləri ilə razılaşacaq və fevral ayında Bakı ilə barışacaq. "Yeni Müsavat" bu barədə manşet yazısı da dərc etmişdi.

Dövlət başçısının Almaniyaya işgüzar səfəri bu məlumatların doğruluğunu isbatladı. Görünən budur ki, Qərb, ABŞ Almaniya üzərindən Azərbaycan hakimiyyəti ilə anlaşma xəttinə qayıtdı. Şübhəsiz ki, Azərbaycanın da bu jestin qarşılığında görəcəyi işlər var və yəqin ki, Berlində bu barədə də konkret danışılıb. Azərbaycana önəm verilməsi xanım Merkel tərəfindən də dəfələrlə vurğulanıb.

Bu arada ABŞ-ın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Derek Hoqanın "ABŞ Azərbaycanın suverenliyini və müstəqilliyini birmənalı şəkildə dəstəkləyir və Dağlıq Qarabağ münaqişənin dinc yolla həlli mövqeyinə sadiqdir", - məzmunlu bəyanatla çıxış etməsi də diqqət çəkir. Xanım Merkelin Qarabağla bağlı sensasiyalı sayılacaq mövqeyi fonunda amerikalı diplomatın da Bakıdakı anti-amerikan mövqelərə reaksiya verərək Vaşinqtonun prinsipial mövqeyini təkrarən açıqlaması belə qənaətlər yaradır ki, Qərb ən azı Rusiyanın təcavüzkar siyasət yürütdüyü bu mərhələdə Azərbaycanın bütövlüyü ilə bağlı birmənalı mövqe sərgiləyib, Bakının hansısa təhdidlər nəticəsində Moskvaya yaxınlaşmasına imkan verməsin.

Bəzi müşahidəçilər isə hesab edir ki, ABŞ və Almaniyanın eyni gündə Azərbaycanı məmnun edən Qarabağ bəyanatı ilə çıxış etməsi Qərbin Azərbaycanla əməkdaşlıq niyyətində ciddi olmasının və sanksiya çağırışlarına baxmayaraq Bakı ilə münasibətlərdə barışıq və anlaşma xəttini tutmasının simptomlarından, yaxud göstəricilərindəndir...

Qayıdaq Berlindəki Qarabağ bəyanatına. Azərbaycan prezidenti və Almaniya kansleri arasındakı danışıqlardan sonra keçirilən mətbuat konfransında xanım Merkel Qarabağa dair sensasion bəyanatlar səsləndirib. İki ölkə liderlərinin birgə mətbuat konfransının materialları Almaniya hökumətinin rəsmi saytında da yerləşdirilib. Deyilir ki, Merkel Qarabağ münaqişəsi zonasında son zamanlar artan gərginliyə görə Rusiyanı günahlandırıb. Bu ittihamla çıxış etməzdən əvvəl isə o, ölkəsinin həmsədr olmaq istəyi barədə də anons edib. Deyib ki, Almaniya Azərbaycanla Ermənistan arasında münaqişənin nizamlanmasında iştirak etmək istəyir. Merkelin sözlərinə görə, onlar Azərbaycan prezidenti ilə belə vahid mövqeyə gəliblər ki, münaqişə dinc yolla həll edilməlidir. **"Almaniya münaqişənin nizamlanmasında vasitəçi olmağa can atır. Biz hesab edirik ki, Avropa Şurası, Avropa İttifaqı bu istiqamətdə birgə təşəbbüslə çıxış edə və münaqişənin nizamlanmasına müəyyən töhfə verə bilərlər. Bununla əlaqədar olaraq Azərbaycan Avropa Komissiyası ilə danışıqlar aparır"** - Merkel bəyan edib.

Kansler öz nitqində onu da bildirib ki, onun ölkəsi ATƏT-in Minsk Qrupunun üzvüdür və Fransa, Rusiya və ABŞ-ın vasitəçiliyi ilə aparılan danışıqları dəstəkləyir. Lakin Merkel əlavə edib ki, Rusiya Qarabağ münaqişəsinin qızışmasında neqativ rol oynayır. **"Hesab edirik ki, bu münaqişənin ancaq bir həll yol var-sülh yolu. Təbii ki, atəşkəsin tez-tez pozulması halları neqativ faktdır. Hesab edirəm ki, burada Rusiya müəyyən rol oynayır. Mən bunu sadəcə olaraq, qeyd etmək istədim"** - Merkel bildirib.

Virtualaz.org xəbər verir ki, Rusiya mediası Merkelin Moskvaya ünvanlanmış bu bəyanatına operativ reaksiya verib. Bildirilib ki, **"Almaniya kansleri son zamanlar Ukrayna məsələsinə görə Rusiyanın ünvanına tez-tez sərt bəyanatlar səsləndirir. Və kanslerin Qarabağ münaqişəsini Rusiyanın qızışdırdığına dair bəyanatı bu xəttin davamıdır".**

Qarabağ münaqişəsi zonasında Ermənistan silahlı qüvvələrinin ötən ilin yayından başlayaraq tez-tez təxribatlara əl atmasının arxasında Rusiyanın dayandığını indiyə qədər bir çox Qərb ekspertləri və KİV-ləri iddia edirdi. Məsələn, İsrailin Hayfa Universitetinin professoru, ABŞ-ın bir sıra "beyin mərkəzləri" ilə əməkdaşlıq edən Brenda Şaffer yazmışdı ki, ötən ilin iyul-avqust aylarında təmas xəttində hər iki tərəfdən çoxsaylı itkilərlə müşayiət olunmuş atışmaların arxasında Rusiya dayanır. Onun fikrincə, Rusiyanın məqsədi əvvəlcə bu münaqişəni qızışdırmaq, sonra öz silahlı qüvvələrini sülhməramlılar adı altında regiona yeritməkdir. Şaffer iddia edirdi ki, həmin atışmaların ardınca prezident Vladimir Putin Azərbaycan və Ermənistan rəhbərlərinin Soçi danışıqlarında Rusiya sülhməramlılarının regionda yerləşdirilməsində israr edib.

İndi isə bunu - yeni Ermənistanın Rusiyanın təhriki ilə təmas xəttində atəşkəsi tez-tez pozmasını dolayısı yolla olsa da nüfuzlu Qərb liderlərindən biri - Almaniya kansleri bəyan edir. Həmçinin Merkelin Azərbaycanın Almaniyanı Minsk Qrupunda həmsədr kimi cəlb etmək üçün Brüssellə danışıqlar apardığını açıqlaması sensasiya hesab edilə bilər. Rəsmi Bakı Minsk Qrupunun indiki tərkibdə fəaliyyətindən narazılığını tez-tez bəyan edir, ancaq Almaniyanın həmsədr kimi prosesə cəlb edilməsində maraqlı olduğunu açıq bəyan etməmişdi.

Azərbaycanın Almaniyanı Minsk Qrupunda həmsədr kimi görmək istəməsi, yaxud Berlinin danışıqlar prosesinə başqa formatda cəlb olunmasına səy göstərməsi rəsmi Bakının Berlinlə münasibətlərinin nə dərəcədə strateji önəm kəsb etdiyini təsdiq edir.

***

Xatırladaq ki, yanvarın ortalarında prezident İlham Əliyev Nazirlər Kabinetindəki müşavirədə ad çəkməsə də, Ermənistanın havadarlarını nişan vermişdi. Ölkə başçısı "bir daha demək istəyirəm, həqiqət bundan ibarətdir ki, bizim torpaqlarımızın işğal altında qalması, sadəcə olaraq, Ermənistanın işi deyil. Ermənistan aciz durumda olan, gücsüz, dilənçi bir ölkədir. Əlbəttə, əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir" - bəyan etmişdi. Hesab edilirdi ki, nəhayət, Azərbaycan beynəlxalq səviyyədə təcavüzün arxasında Moskvanın dayandığı barədə ciddi mövqelərin səslənməsinə nail olmalıdır. Artıq bu cür mövqe Merkeldən gəldi. Üstəlik, Almaniya həmsədrlik iddiasındadır.

**Bu mövzuda qəzetimizə danışan XİN-in mətbuat katibi Hikmət Hacıyev bildirdi ki, Berlinin ATƏT-in Minsk Qrupunun həmsədri olması ilə bağlı müraciət edib-etməməsindən məlumatsızdır:** "Azərbaycanın mövqeyi həmişə ondan ibarət olub ki, ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən vasitəçilik edilən danışıqlar prosesi var, Azərbaycan da burda iştirak edir. Amma ümumiyyətlə, rəsmi Bakı həmişə bəyan edib ki, Minsk Qrupunun 11 üzvü var, bu dövlətlərin də hamısının prosesdə fəal rol oynaması münaqişənin həllinə öz töhfəsini verə bilər".

XİN rəsmisi Merkelin Qarabağ bəyanatı və işğal prosesinə görə Rusiyanı günahlandırmasına münasibət açıqlamadı. Qurum sözçüsü "o, artıq prezidentlər səviyyəsində keçirilmiş görüş idi. Bu mənada görüşü şərh etmək düzgün olmazdı" deməklə kifayətləndi.

***

**Keçmiş dövlət müşaviri, politoloq Vəfa Quluzadə hesab edir ki, əslində Merkelin Qarabağın işğalında Rusiyanı suçlaması təəccüblü deyil:** "Bütün dövlətlərin siyasi elitaları və diplomatları gözəl bilirdilər ki, Azərbaycan torpaqlarını erməni bayrağı altında işğal edən Rusiyadır. Amma onlar başqa məsələlərlə məşğul olduqlarından bu məsələyə toxunmurdular. Yeni 90-cı illərin əvvəllərində eyforiya var idi ki, Sovet İttifaqı çöküb, Rusiya getdikcə zəifləyir, iqtisadiyyatı dağılır, yeni kapitalist iqtisadiyyatını yaratmaq üçün iki əsr lazımdır. Ona görə də Rusiyanın bütün başqa işlərinə onlar göz yumurdular. O cümlədən Qarabağın, Abxaziya və Cənubi Osetiyanın işğalına. Amma Rusiyanın aqressiv imperiya olduğunu onlar heç vaxt yaddan çıxartmayıb".

**Qarabağ məsələsinin bu gün dilə gətirilməsinin səbəbini politoloq bu cür izah etdi:** "Çünki Rusiya yeni heç bir şey icad etməyib. Ukraynanın cənub-şərqində apardığı siyasət eynilə Qarabağ siyasətidir. Rusiya bu dəqiqə Donetsk və Luqanskı işğal edib, separatçıları silahlandırır, ora qoşun və müasir texnika göndərir. İndi də tələb edir ki, gəlin sülh müqaviləsinə imza ataq, Rusiya Ukraynanın ərazi bütövlüyünü tanıyır. Eynilə bizim variantdır. Azərbaycanın 20 faizini işğal etdilər - müstəqilliyimizi tanıyaraq, Dağlıq Qarabağı isə müstəqil subyekt kimi tanımayaraq. İndi gündəmə tək Qarabağ məsələsi yox, Abxaziya və Osetiya, Dnestryanı məsələsi də gəlir. Çünki Rusiyanın təcavüzkar siyasəti Qarabağdan başlayıb. Hibrid müharibənin birincisi Qarabağda oldu, indi isə Donbasda davam edir".

Adətən rəsmi Bakı Qərbi Qarabağ məsələsinə münasibətdə ikili standartlar sərgiləməkdə ittiham edib və haqlı arqumentlər ortaya qoyub. Xüsusilə də ABŞ Konqresinin hər il işğalçı Ermənistana və separatçı Qarabağ rejiminə milyonlarla dollar yardım göstərməsi Azərbaycanın haqlı narazılığına səbəb olur. Hansı ki, dünya birliyi işğalçı ölkədən BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini tələb etməli idi. Vəziyyət o həddə çatdı ki, hətta Azərbaycanın rəsmi mətbuatında ABŞ təcavüzü dəstəkləyən dövlət, prezident Obama isə "ikiüzlü" adlandırıldı. Görünür, Bakının kəskin reaksiyası müəyyən dairələrdə nəzərə alınmağa başlayıb. Elə ABŞ-ın Bakıdakı diplomatının son açıqlaması da bunun əlaməti sayıla bilər.

**Lakin Vəfa Quluzadə fərqli düşünür:** "Qərbin tələbləri gündəmdən çıxmayıb. Qərbin tələbləri siyasi islahatlar, demokratikləşmə, eyni zamanda da Azərbaycanın ATƏT, Avropa Şurası qarşısında, Helsinki Aktında üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi isə, gündəmdə qalır. Lakin burda gözə çarpan nədir? Qərbin bu dəqiqə Azərbaycanla üst-üstə düşən maraqları var bir ortada". **Quluzadə güman etmir ki, Qərbin münasibətlərinin yumşalması Azərbaycanın şimala istiqamətlənməsini əngəlləmək üçündür:** "Azərbaycanın Rusiyaya doğru gedişi mümkün deyil. Biz düşmənimizi silahlandırıb torpağımızı işğal edən dövlətlə nə cür birləşə bilərik? Bunu Qərb bizdən yaxşı başa düşür. Bu, sadəcə, siyasi bir oyun kimidir ki, əlində olmasa, belə edərik. Ancaq belə etməyə imkanımız yoxdur. Azərbaycanın Rusiya adlı alternativi yoxdur. Azərbaycanın yalnız bir yönlü, qərbyönlü siyasəti ola bilər".

***

Qarşıda isə AŞ PA-nın qış sessiyası var. 26-30 yanvarda keçiriləcək toplantıda Avropada mətbuat azadlığı haqqında qətnamə layihəsi çıxarılacaq və burada Azərbaycanın da adı var. Düzdür, prezident Əliyev Almaniyada ölkədəki azadlıqlarla bağlı mövqeyini bildirib. Ancaq məsələ qurumun gündəliyində qalır. Güman olunur ki, AŞ PA yenicə ılıqlaşan münasibətlərə xələl gəlməmək üçün növbəti tövsiyələrlə çıxış etməklə kifayətlənəcək...

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 15 (6043) 23 yanvar 2015



# Azadlıq deyəndə...

Hüseynbala SƏLİMOV

**Bəli, adam azacıq da olsa, inanmaq istəyir k, tarixi günlərdə, millət və cəmiyyət üçün saygılı vaxtlarda biz bir az da olsa dəyişirik. Düşünürsən ki, axı ola bilməz ki, belə yüksək sözlər, insanı riqqətə gətirən şüarlar tamam təsirsiz ötüşsün, bizi azacıq da olsa, dəyişməyə sövq etməsin...**

Bəlkə də inanmaq da ümidsizliyin bir pilləsidir. Hamıdan əvvəl o insanlar inanır ki, onların inanmaqdan başqa çarəsi olmur. Amma bu bədbin notsuz da keçinmək və yada salmaq olar ki, əslində bütün insanlar inanmağa meylli olur və bəlkə də bizim sadəlövhlüyümüzün mahiyyəti U.Ekonun məşhur sözlərindədir. O, bir dəfə demişdi ki, deyilər, insanlar heç nəyə inanmır, amma bədbəxtlik ondadır ki, onlar hər şeyə inanırlar...

Bəlkə də bizim də "suç"umuz hər şeyə, deyilən pafoslu sözlərə, yüksək tonda deyilmiş şüarlara inanmaqdır. Amma nə etməli?..

Bizim də çatışmayan cəhətimiz də budur ki, bir az səmimiyik... Yaşım əlliyə çatıb, bunun yarısını yazıb-pozmuşam, hər dəfə də düşünmüşəm ki, necə ola bilər ki, adam öz yazdığına, öz dediyinə heç olmasa özü inanmasın?..

Bu fəlsəfi-publisistik ricət nədən ötrü idi? Yanvar çox həssas aydır. Ona görə yox ki, Azərbaycanda qış qışlığını adətən yanvarda göstərməyə başlayır. Ona görə yox ki, böyük istirahət günləri adətən yanvara təsadüf edir...

Ona görə ki, yanvarda həm də bir tarix olub-ayın 20-si. Bu il onun 25 illiyini qeyd etdik. Çox gözəl sözlər deyildi, elə təssürat yarandı ki, biz birləşmək və birgələşmək istəyirik...

Adam bütün varlığı ilə bu istəyin səmimiliyinə inanmaq istəyirdi. Ən çox deyilən və dilə gətirilən söz hansı oldu? Təbii ki, azadlıq...

Amma mən, bəlkə də minlərlə insan neçə illərdir ki, bunun təşnəsindəyik. Bəli, bizim ağıllı saydığımız adamlar alınlarını qırışdıraraq deyirlər ki, adam ilk növbədə daxilən azad olmalıdır...

Onda biz niyə "daxilən azad" ola bilmirik? Axı mən necə azad olum ki, əgər içimdə özüm boyda bir qorxu var...

Aciz bir heyvan təsəvvür edin. Məsələn, tutaq ki, ceyran! O, qarşısında canavar görürsə, "azad" və asudə ola bilərmi? Onun şüurundan nəsə başqa bir şey keçə bilərmi?..

Çox çətin məsələdir. Düz 22-ci ildir ki, qovurlar, biz də qaçırıq. Əslində biz bu illər ərzində nə etmişik? 1988-93-cü illərdə qazandıqlarımızı, azadlığımızı və sərbəstliyimizi yavaş-yavaş xərcləməklə məşğul olmuşuq.

Biz onların sayını, kəmiyyətini artırmamışıq, artıra bilməmişik. Biz onları hissə-hissə, qram-qram xərcləmişik, itirmişik...

İndi də gəlib dalana dirənmişik... Erix Fromm yazır ki, insan yaratmaqla öz mövcudluğunun mahiyyətindən irəli gələn məhdudluğun fövqünə qalxır, gəl, o, bunu məhv etməklə də edə bilər, bəli, insan məhv etməklə də öz mövcudluğundan irəli gələn məhdudiyyətlərin fövqünə qalxa bilir, çünki bu halda da özünü ixtiyar sahibi, az qala yaradan-sərəncam verən hesab edə bilir.

Bəlkə də insanın faciəsi bu dixiotomiyadadır? Bəlkə bu ikili missiya bir simbioz təşkil edir? Axı insan vaxtaşırı öz yaratdıqlarını məhv etməsəydi onda Babil qülləsi kimi bir şey alınardı!..

Bəlkə Yaradan bunu əvvəldən görüb, nəzərdə tutub və insanın boynuna çox ağır bir yük, ağır bir missiya qoyub-yaratdığını qismən məhv etmək...

Bəlkə Yaradan insanın mahiyyətində lap əvvəldən iki başlanğıc nəzərdə tutub- mələk və şeytan başlanğıcları...

Əgər insan yalnız yarada bilsəydi, dünya çox qısa bir zamanda cənnətə dönər və Allah bilir, insanın səsi Kosmosun hansı ənginliklərindən gələrdi?..

Əgər insan yalnız məhv edə bilsəydi, onda da çox pis, birtərəfli olardı, Yer çox qısa bir müddətdə cəhənnəmə çevrilərdi...

Frommun dixiotomiyasını özümüz üçün məhz belə həll etdik. Fromm bu iki missiyanın müsbət cəmini, yəni insanın yaradıcı potensialının və canatımının azacıq üstünlüyünü görür...

Təbii ki, belə də olmalıdır, çünki təmiz balans və ya "sıfır nəticəli oyun" olsaydı onda irəliyə doğru hərəkət də olmazdı. Amma azacıq da olsa, irəliyə doğru hərəkət var axı!..

Nədədir bu irəliləyiş? 25 ildən sonra bu xüsusda nə demək olar? Onu demək olar ki, bir vaxt suverenlik sözünə, milli bayrağa və müstəqilliyə həqarətlə baxanlar, onlara lağ edənlər artıq özləri bu ideyaları qəbul edirlər. 1993-cü ilə qədər çox şey bəyan edilmişdi. Onların çoxu məhv edildi. Amma nəsə qaldı və bu gün də həmin nəsə naminə yaşamağa dəyər...

# Mərkəzi Bank manatı nə vaxta kimi qoruya biləcək?

## Ekspert: "Manatı ancaq neftin bahalaşması xilas edə bilər"

**Neftin qiymətinin aşağı düşməsi ilə gəlirləri azalan Azərbaycanın qarşısında duran əsas iqtisadi problemlərdən bir də manatın məzənnəsini qorumaqdır. Mərkəzi Bankın 2015-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatında qeyd edilir ki, manatın məzənnəsinin sabitliyi cari ildə də mühüm prioritetlərdən biri olacaq.**




Ancaq əsas məqam odur ki, Mərkəzi Bankın valyuta ehtiyatları manatı nə vaxta kimi qorumağa bəs edəcək? Dekabrın sonuna olan məlumata görə, Mərkəzi Bankın strateji valyuta ehtiyatları 13 milyard 758 milyon 300 min manatdır. Mərkəzi Bank milli valyutanın qorunması üçün 2014-cü ilin 11 ayı ərzində 1 milyard 270 milyon dollar xərcləyib. Mərkəzi Bankın açıqlaması da göstərir ki, manat dünya iqtisadiyyatında baş verən proseslərə həssasdır. Bankın açıqlamasında deyilir: "Dekabr ayında qonşu ölkələrdə, xüsusilə Rusiya Federasiyasında valyuta bazarında baş verən böhran nəticəsində rublun kəskin ucuzlaşması, o cümlədən digər qonşu ölkələrdə milli valyutaların məzənnəsinin düşməsi Azərbaycanın valyuta bazarına psixoloji təsir göstərib".

Qeyd edək ki, bir sıra milli valyutalar ABŞ dollarına qarşı ciddi devalvasiyaya uğrayıblar. Rus rublu 80, qazax təngəsi 19, türkmən manatı 22, Belarus rublu 17, Ukrayna qrivnası 90, türk lirəsi 8 faiz ucuzlaşıb.



**İqtisadçı ekspert Samir Əliyev "Yeni Müsavata" açıqlamasında deyib ki, manat kimi valyutalar bir qayda olaraq "xammal valyutası" hesab olunur:** "Çünki dünya bazarında neftin qiymətinin bahalaşması onu bahalaşdırır, ucuzlaşması isə ucuzlaşdırır. Bu, Rusiyada da belədir, Qazaxıstanda da, İranda da, Səudiyyə Ərəbistanında da. Ötən il dünya valyutaları dollara münasibətdə ucuzlaşdı. Məntiqlə manat da ucuzlaşmalıdır. Ancaq bu baş vermir. 2009-cu ildə qlobal maliyyə böhranı olanda qonşu ölkələr devalvasiyaya gedəndə hökumət manatı qorudu. Riskli addım idi, amma özünü doğrultdu. Çünki neft tezliklə bahalaşdı.

İndi də oxşar proses baş verir. Mərkəzi Bank 2015-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatında manatın məzənnəsinin sabitliyini qoruyacağını açıqlayıb. Manatın devalvasiyası hökumət üçün keçilməsi qadağan olunan qırmızı xətlərdən biridir. Maksimum dərəcədə 2009-cu il təcrübəsini təkrarlamağa çalışacaqlar".

**Ekspert bildirib ki, ancaq indi situasiya fərqlidir:** "2010-2013-cü illərdə manatın möhkəmlənməsi problemi var idisə, 2014-cü ilin sonlarından başlayaraq neftin ucuzlaşması səbəbindən devalvasiya təhlükəsi ilə üzləşib. Bu il manat üçün çox çətin olacaq. Çünki valyutamıza müxtəlif istiqamətlərdə təzyiqlər var. Neftdən savayı Rusiya amili də iqtisadiyyatımıza, o cümlədən manata təzyiq göstərir. Təkcə dekabr ayında Mərkəzi Bank manatı qorumaq üçün bazara 1,2 milyarddan çox dollar çıxartmaq məcburiyyətində qaldı. Bu isə onun ehtiyatının 1 ayda 8 faiz əriməsi ilə nəticələndi. Əlbəttə, böyük itkidir. Belə davam etsə, Mərkəzi Bankın ehtiyatı buna tab gətirməz. Yəqin ki, ilin birinci yarısı manatın indiki həddə qalması təmin ediləcək. Ən azı buna ehtiyatlar imkan verəcək. Sonrakı proseslər dünya bazarında neftin qiymətindən asılı olacaq. Hökumət sonrakı mərhələdə manatı heç olmazsa noyabra - parlament seçkilərinə qədər saxlamağa cəhd göstərək. Alınsa, lap ilin sonuna qədər uzadacaq. Neft müəyyən həddə qədər bahalaşmasa, bütün bunları etmək çətin olacaq. Ona görə də ilin ortasında Mərkəzi Bankın manatın kursuna baxmasını istisna etmirəm. Manatı ancaq neftin bahalaşması xilas edə bilər".

**Ümumən götürdükdə əgər qeyri-neft sektorunu inkişaf etdirmək istəyiriksə, onun əsas yolu ixracı stimullaşdırmaqdır. Manatı indiki səviyyədə saxlamaqla buna nail olmaq mümkün deyil. Təsadüfi deyil ki, ixracımızın 92 faizdən çoxunu neft sektoru təşkil edir. Ona görə də manatın hər il 3-4 faiz ucuzlaşdırılması məqsədəuyğun olardı. Ancaq iqtisadçı ekspert Samir Əliyev bildirib ki, indi çox həssas dövrdür:** "Buna qətiyyən getmək olmaz. Manatı bununla da zərbə altına salmış olarıq. Təsəvvür edin, Mərkəzi Bank manatı 10 faiz devalvasiya etsə, bunun qabağında dayana bilməyəcək. Panik vəziyyət valyutamızı daha da ucuzlaşdıra bilər. Əhali tərəfindən kütləvi şəkildə əmanətlərin və digər yığım pullarının dollara keçirilməsi baş verər ki, bu da arzuolunmaz haldır. Bir az gözləmək lazımdır".

❑ Bəkir NƏRİMANOĞLU

# Neftin ucuzlaşması "BP-Azerbaijan"ı "vurdu"

**Dünya bazarlarında neftin ucuzlaşmasına görə işçilərinin sayını azaltmağa qərar verən BP şirkəti Azərbaycanda da ixtisarlara başlayıb.**




"BP-Azerbaijan" şirkəti işçilərindən bir hissəsini ixtisar edib, özü də qəfildən və əvvəlcədən xəbərdarlıq etmədən.

Bu barədə virtualaz.org saytına Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının sədri Mirvari Qəhrəmanlı məlumat verib.

Hüquq müdafiəçisinin sözlərinə görə, "BP-Azerbaijan" şirkətinin Təchizat Bazasında (ASKO) işdən çıxanlara bildirişlər təqdim olunmayıb. Halbuki Əmək Məcəlləsinin tələblərinə görə, işçi iki ay əvvəldən xəbərdarlıq almalıdır. Şirkət ixtisar adı ilə işçiləri qanunsuz işdən çıxarıb. Buna görə də "BP-Azerbaijan" şirkəti məhkəməyə veriləcək.

M.Qəhrəmanlı işdən çıxarılanların sayının dəqiqləşdirildiyini dedi.

Qeyd edək ki, BP bundan əvvəl Şotlandiyanın Aberdin şəhərindəki qərargahında bir neçə yüz işçini ixtisara salıb. Analitiklər bunu BP-nin neftin qiymətlərinin yaxın vaxtlarda artacağına inanmamasının sübutu kimi qiymətləndirirlər.

Aberdin ofisi BP üçün böyük əhəmiyyətə malik mərkəzdir və oradakı qərargahda 4 min işçi çalışır. Bu mənada bir neçə yüz işçinin ixtisarı çox görünməsə də rəmzi xarakter daşıyır.

# “Rusiyanın "beşinci kolonu" Qərblə münasibətləri pisləşdirir”

## Bəxtiyar Hacıyev: “Hakimiyyət əvvəlki seçkilərdə olduğundan daha asanlıqla öz siyahısındakı namizədlərini Milli Məclisə ”seçməyə" nail olacaq"

**“Müsbət Dəyişikliklər” Gənclər Hərəkatının həmtəsisçisi, Harvard Universitetinin məzunu Bəxtiyar Hacıyevlə ölkənin gündəmini və ABŞ-Azərbaycan münasibətlərini çoxdan bəridir müzakirə etmək istəyirdik. Amma gənc fəal ölkədə olmadığı üçün üzbəüz söhbətimiz təxirə düşürdü. Nəhayət, B.Hacıyevlə gündəmi, müxalifəti, siyasi məhbusları... virtual şəkildə müzakirəyə çıxardıq. Bəxtiyar bəydən öncə hansı ölkədə olması ilə maraqlandıq.**

***- Bəxtiyar Hacıyev haralardadır? Azərbaycanı hardan izləyir?***

- Hazırda Praqadayam, bir neçə aylıq burada Azərbaycanla da bağlı olan bir işdə işləyəcəm.

***- Ölkədən getməyinizin səbəbi nə idi?***

- Ölkədən qısa müddətlik getməyimə eyni vaxtda bir neçə səbəb oldu. Birincisi, Praqada keçən il oktyabr ayında keçirilən nüfuzlu “Forum 2000" zamanı panellərdən birində Azərbaycandakı siyasi məhbuslarla bağlı çıxışım olmuşdu. Çıxış zamanı Azərbaycan səfirliyinin əməkdaşları, Bakıdan hakimiyyət tərəfindən göndərilmiş bir neçə nəfər qeydlər

**“Azərbaycanla ABŞ-ın münasibətlərinin pisləşməsi heç kimə heç nə verməyəcək”**

aparırdılar. Bundan sonra Azərbaycan hakimiyyətinin bir neçə təmsilçisindən, yumşaq desək, xoş olmayan münasibətlə üzləşdim. Bunları ictimailəşdirmədim, amma bildirdim ki, həbsdə olanların bəziləri mənim dostlarımdır və insan üçün ən bağışlanılmaz saydığım addımlardan biri də dar gündə dostlardan imtinadır. Azərbaycan təcrübəsi göstərib ki, heç kim, hətta hakimiyyətdə nazir postunda oturmuş adamlar da həbsdən sığortalanmayıblar. Əgər həmin şəxslər həbsə düşərlərsə və dostlarının onlardan imtinası onlara xoş gələrsə, bu münasibəti davam etdirsinlər. Ölkədən getdikdən sonra bəzi şəxslər bu yanaşmamı anlayışla qarşıladılar. İkincisi, 2014-cü ildə vətəndaş cəmiyyətinin fəaliyyətinə bənzəri görülməmiş məhdudiyyətlər gətirildi və Bakıda bu istiqamətdə fəaliyyət praktiki olaraq mümkünsüz oldu. Bakıda boş oturmaqdansa, xaricdə kiçik də olsa, müəyyən işlərlə məşğul olmağa qərar verdim.

***- Zaman-zaman sosial şəbəkələrdəki statuslarınızda, müsahibələrinizdə xaricdə görüşlər keçirdiyinizi yazırsız. Bu görüşlərin Azərbaycanda demokratiya adına hər hansı faydası olurmu?***

- Görüşlərin töhfəsi ola bilər, amma Azərbaycanda demokratiyaya keçid Azərbaycan xalqının iradəsindən, hakimiyyətin seçimlərindən və beynəlxalq qüvvələrin maraqlarından asılı olacaq. Hələlik isə hakimiyyət demokratik islahatlara meylli görünmür, beynəlxalq güclərin isə təhlükəsizlik, enerji, iqtisadi maraqları insan haqları və demokratiya maraqlarını xeyli arxada qoyur.

***- Bu il Azərbaycanda parlament seçkiləridir. Ölkədə seçki ab-havası hiss olunur, sizcə?***

- Seçkilərin hiss olunması üçün ölkədə siyasi və ictimai fəaliyyət üçün mühit olmalıdır. Bu mühit isə 2014-cü ildə tamamən boğuldu. Müstəqil QHT-lərin, vətəndaş cəmiyyətinin, siyasi partiyaların, müstəqil mətbuatın olmadığı mühitdə hansı azad seçkilər keçirmək olar? Görünür, bəlkə də 2014-cü ildə baş verənlərin əksəriyyəti 2015-ci il parlament seçkilərinə hazırlıq məqsədi ilə edilmişdi.

***- Nə gözləyirsiz bu seçkilərdən?***

- Fövqəladə bir hadisə baş verməsə, hakimiyyət əvvəlki seçkilərdə olduğundan da daha asanlıqla öz siyahısındakı namizədlərini Milli Məclisə “seçməyə” nail olacaq. Hər seçkidən əvvəl müəyyən şayiələr buraxılır ki, növbəti seçkilərdə fərqli siyasi baxışları olan, müstəqil namizədlərə də yer veriləcək. Buna görə də bir qrup adam Milli Məclisdə təmsil olunacağına inanaraq, seçkilər ilində daha fərqli mövqe nümayiş etdirir. Lakin 2000, 2005 və 2010-cu il seçkilərinin nəticələrinə baxsaq, hər seçkidə daha az müxalif və müstəqil şəxsin parlamentdə təmsil olunduğunu görürük. Üstəlik, bu gün Milli Məclis üzvlərinin böyük əksəriyyətinin öz mandatını saxlayacağı gözlənilir. Hakimiyyət qarşısında buraxdıqları siyasi səhvlərə görə yenidən mandat almayacaq az sayda deputat yerinə hakimiyyət daxilində bir neçə güclü qrup mübarizə aparacaq. Ona görə də müstəqil və müxalif mövqeyini qoruyaraq Milli Məclisdə oturacağına inananların məyus olacağını düşünürəm. İnanmıram ki, belə həssas dövrdə hakimiyyət ona tam loyal, bütün məsələlərdə tam olaraq hakimiyyətə təslim olmamış tanınmış şəxslərə mandat versin.

***- Ölkə müxalifətini tənqid edən fikirləriniz olub zaman-zaman. Xüsusən onların gəncləri iş siyasətini tənqid etmisiz. Azərbaycan müxalifəti ilə bağlı indi də eyni fikirdəsiz?***

- İstər müxalifət, istərsə də hakimiyyət haqqında tənqid edəndə qərəzli olmamağa çalışıram. Müxalifətlə bağlı 2013-cü ildə səsləndirdiyim bəzi tənqidi fikirlər müxalifət partiyalarının gəncləri, xüsusilə Müsavat Gənclər Təşkilatı tərəfindən çox etirazla qarşılanmışdı. Amma prezident seçkilərindən dərhal sonra Müsavatın Milli Şuranı tərk etməsi, Müsavatın son qurultayından sonra baş verənlər, 100 illik partiyanın bir funksionerin heç bir fəaliyyəti olmayan övladına siyasi sığınacaq alması üçün bəyanat yayması və digər hadisələrdən sonra onlar eyni fikirləri səsləndirməyə başladılar. İstər Bakıda olduğum zaman qarşılaşdığım MGT üzvləri, istərsə də sosial şəbəkələrdə mənə yazan bir çox müxalif gənc o zaman yanıldıqlarını, indi məni anladıqlarını bildiriblər.

***- Deyirlər, Azərbaycanda ən asan iş müxalifəti tənqid etməkdir....***

- Bu, heç də asan deyil. Azərbaycan müxalifəti də hakimiyyətin güzgüsünə çevrilib. Hakimiyyətin xoşuna gəlməyən əsaslı tənqidi fikir səsləndirənləri xarici qüvvələrə xidmətdə günahlandırırlar, müxalifətin xoşuna gəlməyən əsaslı tənqidləri səsləndirənləri isə hakimiyyətə xidmətdə. Halbuki həm hakimiyyət, həm də müxalifət özü maraqlı olmalıdır ki, cəmiyyətdə onlar haqqında düşünülən tənqidi səsləri eşitsin, öz fəaliyyətinə müəyyən düzəlişlər etsin.

**“Müstəqil və müxalif mövqeyini qoruyaraq Milli Məclisdə oturacağına inananların məyus olacağını düşünürəm”**



**“Bakıda boş oturmaqdansa, xaricdə müəyyən işlərlə məşğul olmağa qərar verdim”**

***- AzadlıqRadiosunun öz fəaliyyətini dayandırmasından sonra cəmiyyətdə “Amerika öz radiosunu Azərbaycanda qoruya bilmədi” fikri formalaşdı. Sizcə, mənzərə bu fikri möhkəmləndirirmi?***

- Amerikanın xarici siyasəti ideal deyil, bəzən iqtisadi maraqlar, təhlükəsizlik maraqları üçün insan hüquqlarını arxa plana sala, qurbanlar verə bilirlər. Bəzən daha böyük ölkələrlə daha böyük məsələlərin həll edilməsinə görə kiçik ölkələrdə baş verənlər gündəlikdə ən aşağılarda olur. Özlərinin dedikləri kimi, başqa ölkələrin daxili işlərinə qarışmaq istəmirlər. Amma başqa ölkələrin daxili işlərinə qarışmağa qərar versələr, necə qarışdıqlarını hamı, o cümlədən Azərbaycan hakimiyyəti yaxşı bilir. Amerikada əvvəllər Azərbaycan hakimiyyəti ilə bağlı ehtiyatlı davranırdılar. Dəfələrlə Dövlət Departamentində, ABŞ Konqresində şahidi olmuşam ki, Azərbaycan hakimiyyəti bir addım atanda “biz Azərbaycan hakimiyyətini qıcıqlandırmamalıyıq, onlar Rusiyanın təsir dairəsinə düşə bilər, bizimlə münasibətlər pisləşə bilər” deyirdilər. Amma bu gün mənzərə tam fərqlidir. Rusiya öz problemləri ilə mübarizə aparır, Azərbaycanda isə Rusiyanın “beçinci kolonu” bütün imkanlardan istifadə edərək Qərblə münasibətləri pisləşdirir.

***- Necə düşünürsüz, hakimiyyət Xədicə İsmayılı həbs etməklə - xüsusən də bu cür ssenari ilə - daha çox Amerikaya əzələ nümayişi etdi, yoxsa ölkədəki ictimai sektora?***

- Məncə, bu həbslər göstərdi ki, artıq Azərbaycan balanslı xarici siyasət yürütmür. Qərb fondları, təşkilatları ölkədən çıxarıldı. Qərbyönümlü insanlar müxtəlif saxta ittihamlarla həbs edildi, Azərbaycanda ABŞ əleyhinə dinləmələr təşkil olundu, hətta 20 Yanvar faciəsinin də amerikalı senatorlar tərəfindən sifariş edildiyi iddia olundu. Faciə burasındadır ki, bunu yaymağı Azərbaycan mətbuatına tapşıranlar erməni təbliğat saytında yerləşdirilmiş heç bir imza, möhür, blank olmayan rus dilində bir mətnə istinad etdilər. Yəni Azərbaycan mətbuatı, özəl kanallar, Azərbaycan Dövlət Televiziyası, ABŞ əleyhinə təbliğat üçün ermənilərin aşağı səviyyəli bir ermənipərəst təbliğat saytına istinad etdilər. O sayt ki, Xocalı faciəsində şəhid olanları da şübhə altına alır.

Bugünlərdə sizin qəzetinizdə bir deputat, partiya sədri iddia edirdi ki, Azərbaycan Rusiyanın yanında deyil. Əgər bu ölkədə bütün qərbyönümlü təşkilatlar bağlanırsa, insanlar həbsə atılırsa, əvəzində Rusiya ilə müxtəlif sahələrdə sazişlər imzalanırsa, Azərbaycan xalqını təhqir etmiş Jirinovski kimi şəxslər ən ali qonaq kimi qəbul edilirsə, 20 Yanvar faciəsinin ildönümündə qətliamın səbəbkarları haqqında heç nə deməyib, erməni saytlarına istinad edərək bu faciəni də amerikalıların törətdiyi iddia edilirsə, bu, Rusiyaya yaxınlaşmaq deyilmi?

Azərbaycan hakimiyyətində az da olsa, reallıq hissini itirməyən, dövlətin gələcəyini düşünən insanlar var. Onlar Azərbaycanın ABŞ-dan gözləntilərini də bilirlər, ABŞ-ın Azərbaycandan gözləntilərini də. Onlar da bilirlər ki, Azərbaycanla ABŞ-ın münasibətlərinin pisləşməsi heç kimə heç nə verməyəcək və çox kiçik addımlarla, məsələn, siyasi məhbusları əfv fərmanı ilə azad etməklə, Azərbaycan ABŞ-dan istədiklərini ala bilər, barışıq üçün ilk addımlar atıla bilər. İstənilən fikir ayrılığını danışıqlar yolu ilə həll etmək olar. Problemlərin həlli üçün inkişaf etmiş dünya ilə bütün körpüləri yandırmaq yox, danışıqlar lazımdır.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 15 (6043) 23 yanvar 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# 25 il öncə ABŞ senatorlarının Qorbaçova müraciəti nələri ortaya çıxarıb?

## Dağlıq Qarabağın işğalına ABŞ-dan yaşıl işıq, yoxsa...

**Ermənistan-Azərbaycan münaqişəsi, habelə SSRİ rəhbərliyi tərəfindən azərbaycanlılara qarşı törədilən haqsızlıqlarla bağlı yeni fakt ortaya çıxıb. Bu fakt Dağlıq Qarabağın işğalının və Ermənistanın tərkibinə keçirilməsi cəhdlərinin arxasında həm də ABŞ-ın durduğunu təsdiq edir.**



Hazırkı dövlət katibi Con Kerri də daxil olmaqla, bir qrup senatorun 20 yanvar 1990-cı il ərəfəsində Qorbaçova ünvanladığı ermənipərəst müraciət ortaya çıxıb.

Məlum olub ki, 1990-cı il yanvarın 18-də ABŞ Konqresinin bir qrup üzvü SSRİ rəhbəri Mixail Qorbaçova müraciət edib.

APA-nın "Karabakhrecords.info" saytına istinadən verdiyi məlumata görə, amerikalı senatorların müraciətində azərbaycanlılardan ibarət quplar tərəfindən Azərbaycanda erməni əhalinin qətlə yetirilməsi, Bakının erməni əhalisinin əmlakının qarət edilməsindən ciddi narahatlıq ifadə olunur. Bildirilir ki, guya son 6 gündə öldürülən 60 nəfər və yaralanan 156 nəfərin əksəriyyəti ermənidir. Habelə son hadisələr nəticəsində 4000-dək erməni qaçqın vəziyyətinə düşüb.

**Müraciətdə sonra deyilir:** "Biz erməni azlıqların qətlinin, o cümlədən bu regionda digər zorakılıq hallarının qarşısının alınması üçün sizdən bütün zəruri tədbirlərin görülməsini xahiş edirik. Vətəndaş sülhünün bərpa olunması ilə yanaşı, ümid edirik ki, öz vətəninə getmək istəyi olan ermənilərin bu regiondan təhlükəsiz köçməsini təmin etmək də sovet rəhbərliyinin məqsədi olacaq. Ümid edirik ki, siz həmçinin bir çox amerikalı və digər əcnəbilərin işləməyə davam etdikləri zəlzələ zonasında Qarabağ və Ermənistanın iqtisadi blokadasını aradan qaldıracaqsınız. Azərbaycan əhalisinin dəhşətli dərəcədə hiddətlənməsi 160 min Dağlıq Qarabağ ermənisinin Ermənistanla birləşməsinin zəruriliyini bir daha önə çəkir. 70 il ərzində Azərbaycan hökuməti yalnız region əhalisinin mədəni hüquqlarını məhdudlaşdırmağa, habelə region əhalisinin 60%-nı təşkil edən Dağlıq Qarabağ ermənilərinin iqtisadi diskriminasiyasına nail olub. Biz Sizdən təkidlə xahiş edirik ki, baş verən faciəni Qarabağ xalqının Sovet dövləti çərçivəsində gələcək siyasi və mədəni mənsubiyyətini seçmək hüququnu tanımaqla həll edəsiniz".

Maraqlıdır ki, müraciəti imzalayan senatorlar arasında ABŞ-ın indiki dövlət katibi Con Kerri də olub. Bundan başqa, müraciəti senatorlardan Pit Uilson, Pol Seymak, Lerri Breksler, Kleyborn Pell də imzalayıblar.

Yanvarın 19-da isə Moskvada ABŞ Senatının xarici işlər üzrə alt komissiyasının sədri, senator Kleyborn Pellin SSRİ-nin xarici işlər naziri Eduard Şevardnadze ilə görüşü olub. Söhbət əsnasında K.Pell deyib ki, sovet rəhbərliyi Azərbaycana erməni Qarabağı üzərində gələcək nəzarəti həyata keçirməyə imkan verməməlidir.

"Mən azərbaycanlıların qəddarlığından və SSRİ-də erməni talanlarından son dərəcə sarsılmışam. Sovet hökuməti erməni əhalisinin təhlükəsizliyini təmin etmək üçün bütün tədbirləri görməlidir. Sovet hökuməti həmçinin Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarmalıdır. Dağlıq Qarabağ üzərində gələcək nəzarətin Azərbaycanın əlində saxlamasına icazə vermək vəziyyəti daha da gərginləşdirmək deməkdir", - deyə K. Pell vurğulayıb.

25 il öncə ABŞ-dan belə bir müraciətin olduğunun üzə çıxması ortaya bir sıra suallar çıxarıb.

**Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Aydın Mirzəzadə bildirdi ki, bu fakt bir sıra həqiqətlərin növbəti dəfə sübutudur:** "Bu fakt da bir daha sübut edir ki, Dağlıq Qarabağ problemi heç də orada yaşayan 30-40 min ermənin fikri olmayıb, dünya erməni millətçi dairələrinin Azərbaycana böyük bir təxribatıdır. Heydər Əliyevin vaxtilə böyük siyasətdə olması bu təxribatların qarşısını alırdı. Heydər Əliyevin Moskvada vəzifədən uzaqlaşdırılması və Mixail Qorbaçovun erməni millətçiləri ilə yaxınlığı etməsi Dağlıq Qarabağ problemini ortaya çıxardı. Mixail Qorbaçov SSRİ rəhbəri olduğu dövrdə köməkçilərindən ikisi erməni idi, eyni zamanda Kommunist Partiyası Mərkəzi Komitəsinin şöbə müdirlərindən ikisi erməni idi. Ermənilər bütün istiqamətlərdə hərəkət edirdilər. Dağlıq Qarabağda erməni icmasını ayağa qaldırırdılar, SSRİ mətbuatında Qarabağla bağlı yanlış informasiyalar yayırdılar, xaricdə, ABŞ-da böyük təbliğat işi aparırdılar. Mixail Qorbaçova müraciət göndərən həmin senatorlar isə ABŞ-dakı erməni millətçi dairələrinə, diaspor təşkilatlarına çox sıx bağlı olan adamlardır. Con Kerrinin özü dövlət katibi olana qədər bir qayda olaraq Ermənistanın mövqeyini müdafiə edirdi. Bu beş nəfərin müraciəti təsadüfi deyildi. Əslinə qalsa, istəsəydilər ermənilər bəlkə də 50 nəfər senatorun imzasını toplayıb göndərərdilər. Bu müraciətin mətninə daha çox diqqət edilməlidir ki, orada nə qədər yalanların olduğu görünsün. Birincisi, guya ermənilərin Azərbaycanda təqib edilməsidir. Bu yalanı müraciətə daxil edənlər həmin dövrdə 200 min azərbaycanlının Ermənistandan qovulması faktını görməməzlikdən gəliblər. Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı kəndlərə erməni silahlı dəstələrinin hücumlarını bu müraciəti edənlər gözardı ediblər. Həmin müraciətdə ermənilər tərəfindən azərbaycanlıların başına gətirilənləri ermənilərin başına gətirilən oyunlar olaraq yazıblar. Bu, bir saxtakarlıqdır, rəzalətdir. Başqa bir ölkənin senatorlarının digər bir ölkənin rəhbərinə müraciət edib onun ərazi quruluşuna dair çox təxribatçı təkliflər verməsinin özü qəribə bir presedentdir. Dağlıq Qarabağda separatçı ermənilərin, həmçinin Ermənistanın azğınlaşmasında, daha da arxayınlaşmasında ABŞ senatorlarının SSRİ rəhbərliyinə həmin müraciətinin də rolu şübhəsiz ki, olub. Həmin dövrdə SSRİ rəhbərliyi Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün de-yure addım atacaqdı. Məhz Azərbaycan xalqının ayağa qalxması, ərazi bütövlüyü uğrunda qətiyyətli mübarizə aparması SSRİ rəhbərliyinin Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməsinin qarşısını aldı.

Müraciətin 20 yanvar hadisələri ərəfəsində edilməsinə də diqqət etmək gərəkdir. Belə çıxır ki, Dağlıq Qarabağ problemi də, qanlı 20 yanvar hadisələri də ermənilər və onların havadarları tərəfindən hazırlanmış bir ssenaridir".



**Aydın Mirzəzadə:**
"Dağlıq Qarabağda separatçı ermənilərin, həmçinin Ermənistanın azğınlaşmasında ABŞ senatorlarının SSRİ rəhbərliyinə həmin müraciətinin rolu şübhəsiz ki, olub"



**Derek Hoqan:**
"ABŞ-ın Azərbaycanın suverenliyini və müstəqilliyini dəstəkləməsi uzun müddətdən bəri açıq şəkildə ortadadır və nümayiş olunur"

**O ki qaldı vaxtilə Azərbaycana qarşı olan həmin müraciəti imzalayan bugünkü dövlət katibi Con Kerrinin indi Dağlıq Qarabağ məsələsində nə qədər obyektiv olması məsələsinə, A.Mirzəzadə bunları dedi:** "ABŞ siyasətində belə bir fenomen var, nə qədər ki, onlar vəzifəyə təyin olunmayıblar, hərəsi müəyyən bir mövqedən çıxış edilər. Amma vəzifəyə təyin olunandan sonra onların dövlət maraqları bütün şeyləri üstələyir. Vaxtilə senator Barak Obama prezident seçiləcəyi təqdirdə uydurma erməni soyqırımını tanıyacağı bəyanatlarını vermişdi. Con Kerrinin özü prezidentliyə namizəd olduğu zaman Ermənistanı müdafiə edən bəyanatlarla çıxış edirdi. Amma indi onların hər ikisi yüksək dövlət vəzifəsindədirlər və ancaq ABŞ-ın maraqlarından çıxış etmək zorundadırlar. Amerikanın bugünkü mövqeyində Azərbaycanın ərazi bütövlüyü tanınır. Dağlıq Qarabağ Azərbaycan ərazisi kimi tanınır. Ancaq bu, əlbəttə ki, ədalətin bərpa olunması üçün azdır. Beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. ABŞ Ermənistandan tələb eləməlidir ki, Azərbaycan ərazisindən işğalçı qoşunlarını çıxarsın. Bu isə təəssüf ki, ABŞ-ın siyasətində yoxdur. Dövlət katibi Con Kerri də olsa, başqası da olsa bu siyasət yoxdur. Biz Amerikanın bu məsələdə qəti prinsipial mövqe tutmasını istəyirik. Digər tərəfdən, əlbəttə ki, Con Kerrinin vaxtilə o cür müraciətə imza atması onun tərcümeyi-halında yəqin ki, gizlətmək istədiyi səhifə olacaq. Çünki orada Azərbaycan xalqına qarşı qeyri-obyektiv fikir var, həmin məktubun 20 Yanvar faciəsi ərəfəsində göndərilməsi və müraciətdə Azərbaycana müdaxilə edilməsi çağırışı isə həmin müraciətə imza atanların özlərinin siyasi məsuliyyət məsələsini ortaya çıxarır".

**Politoloq Qabil Hüseynli isə bildirdi ki, ABŞ senatorlarının müraciəti və müraciətdə separatçı ermənilərin açıq dəstəklənməsi, Azərbaycanın maraqlarına zidd fikirlərin yer almasının SSRİ rəhbərliyinin anti-Azərbaycan mövqeyinin güclənməsinə təsir göstərdiyinə şübhə yoxdur.**

**Politoloqun sözlərinə görə, vaxtilə açıq-aşkar ermənipərəst mövqe nümayiş etdirmiş Con Kerrinin indi ABŞ dövlət katibi olaraq, ATƏT-in Minsk Qrupunun həmsədri olan ölkənin dövlət katibi kimi ədalətli mövqe tutacağına Azərbaycan cəmiyyətində inam qalmır:** "ABŞ-ın uzun müddətdir ki, ortaya qoyduğu mövqe göstərir ki, formal olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəkləsə də, əslində Dağlıq Qarabağın müstəqilliyini müdafiə edən həll variantlarının tərəfindədir. Bu siyasətə erməniləri maraqlarını müdafiə etmiş, edən siyasətçilərin təsir göstərdiyi isə məlumdur. ABŞ ATƏT-in Minsk Qrupunun həmsədri olaraq Rusiyanın Qarabağ münaqişəsinin həllini bu qədər uzatmaq siyasətinə qarşı çıxmır. Problem bu gün də ölü nöqtəsindən tərpənmirsə, bunun əsas günahkarları Minsk Qrupunun həmsədrləridir. Hər üç həmsədri eyni surətdə təqsirləndirmək olar. Azərbaycan cəmiyyəti artıq onların bu münaqişəni həll edəcəyinə inanmır".

**ABŞ-ın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Derek Hoqan isə hazırkı dövlət katibi Con Kerri də daxil olmaqla, bir qrup senatorun 20 yanvar 1990-cı il ərəfəsində SSRİ prezidenti Mixail Qorbaçova ünvanladığı müraciətin ortaya çıxması münasibət bildirərkən APA-ya deyib ki, belə bir məktubla tanış deyil:** "Mediada belə iddialar irəli sürülüb. Amma bu cür iddialar tamamilə yanlış və əsassızdır. ABŞ-ın Azərbaycanın suverenliyini və müstəqilliyini dəstəkləməsi uzun müddətdən bəri açıq şəkildə ortadadır və nümayiş olunur. Guya bizim ATƏT-in Minsk Qrupu çərçivəsində öz işimizə ciddi yanaşmamağımız və qərəzli olmağımızla bağlı iddialar da tamamilə yanlış və əsassızdır. Bizim Minsk Qrupunun həmsədr ölkələrindən biri kimi fəal yanaşmamız və iştirakımız, uzun müddətdən bəri davam edən münaqişənin sülh yolu ilə nizamlanması istəyimiz bariz şəkildə özünü göstərir. Yəni onu demək istəyirəm ki, bizim hər bir fəaliyyətimiz göz önündədir. Amerika Birləşmiş Ştatları Azərbaycanın suverenliyini və müstəqilliyini birmənalı şəkildə dəstəkləyir və Dağlıq Qarabağ münaqişənin dinc yolla həlli mövqeyinə sadiqdir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 15 (6043) 23 yanvar 2015

# Müstəqillik əleyhdarı olan deputatın 20 Yanvarla bağlı "axıtdığı" göz yaşları...



**Deputat Hüseynbala Mirələmovun 20 Yanvar hadisələri ilə bağlı "Azərbaycan" qəzetində 1 səhifəlik məqaləsi dərc olunub. Məqalə müstəqillik uğrunda şəhid olanlara həsr edilib. Bu yazının dərci yenidən H.Mirələmovun personasına ictimai diqqəti artırır. Çünki bu şəxsin keçmişi, siyasi bioqrafiyası xeyli ziddiyyətlidir. Elə 20 Yanvar hadisələri zamanı H.Mirələmovun siyasi oriyentasiyası hazırkından ciddi şəkildə fərqlənirdi. O, həmin dövrdə qatı mütəllibovçu olub. Üstəlik, Mirələmov müstəqillik əleyhdarı kimi çıxış edən kommunist idi. Belə bir adamın Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan insanlar haqda rəsmi dövlət qəzetində məqaləsinin dərc edilməsi təkcə siyasi baxımdan yanlış sayılmamalıdır, bu, həm də mənəvi prinsiplərlə daban-dabana ziddiyyət təşkil edir.**



**Bəxtiyar Sadıqov:** "Hüseynbala Mirələmovun yazısını mən dərc etmişəm, çünki..."



**Fəzail Ağamalı:** "Mirələmovun keçmişdə nə xətası olubsa, açığı, bilmirəm"

Hüseynbala Mirələmovun reputasiyası təkcə yaxın keçmişdəki siyasi oriyentasiyasına görə zədəli deyil. Bu adam həm də hakimiyyətə zaman-zaman ciddi problemlər yaradan bir deputatdır. 2012-ci ilin iyul ayında H.Mirələmovun obyektində, deputata məxsus "1001 gecə" restoranında qətl hadisəsi baş vermişdi. Qətli törədən şəxs Mirələmovun doğmaca qardaşı oğlu idi. Hakimiyyətin ən çox öyündüyü, üzərində təbliğat qurduğu amillərdən biri də ölkədəki ictimai sabitlikdir. Fəqət hakimiyyətə yaxın deputatın ailə üzvü sabitliyə güllə sıxır, paytaxtda odlu silahla adam öldürür.

Əcəba, mövcud hakimiyyət bu cür zədəli reputasiyası olan, siyasi bioqrafiyası ziddiyyətlərlə zəngin bir deputatın yazılarına möhtacdır? Başqa bir deputat, yazar tapılmadımı Azərbaycanın ən şərəfli və kədərli tarixi haqda məqalə yazsın?

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov səsləndirilən iddiaları və tənqidləri əsassız hesab etdi:** "Hüseynbala Mirələmov qəzetimizə məlumat yazmayıb. O, yazıçı və dramaturqdur. 20 Yanvarla bağlı publisistik məqalə yazıb. Öz yaşadıqlarını qələmə alaraq qəzetimiz üçün çox bəyəndiyimiz bir yazı yazıb. Bir səhifə həcmində publisistik yazıdır. O, YAP Xətai rayon təşkilatının sədridir. Eyni zamanda deputatdır. Deputat kimi biz ona çox inanırıq. Onun siyasi əqidəsini də çox gözəl bilirik. Buna görə ona qəzetimizdə yer ayırırıq. Kimsə iddia edir ki, o, mütəllibovçudur, yalandır. Buna səbəb sonuncu parlament seçkiləri qabağı onun bir müxalifətçi ilə debatıdır. O zaman müxalifətçi düzgün danışmamışdı. Hüseyn müəllim də onun qəşəng cavabını vermişdi. Bundan sonra müxalifətyönümlü mətbuat orqanları H.Mirələmovu şərləmək yolunu seçdilər. Bu hal bizdə sovet dövründən qalıb. Kimisə xoşlamayanda şərləmək yolunu seçirik. Siz Elçibəyçisiniz. Mən buna görə sizi qınamıram. Bu seçdiyiniz siyasi yoldur. Biz iqtidar, siz müxalifətsiniz. Bu iki tərəf arasında sivil qaydada mübarizə gedir. Siz hakimiyyətə gəlmək istəyirsiniz, biz hakimiyyəti əldən vermək istəmirik. Verməyəcəyik də. Bu cür məsələlərlə baş qatmaq lazım deyil. Yaxşı yazıdır. Gözəl yazıçıdır. Bizlə daim əməkdaşlıq edir. Bu yazı xoşuma gəldiyi üçün vermişəm. Gələcəkdə də bu cür yazılar olsa, verəcəm".

**Bəxtiyar Sadıqov deputatın qardaşı oğlunun törətdiyi restoran olaylarından da danışdı:** "Mənim, yaxud sənin nə qədər qohumumuz varsa, Allah canını sağ eləsin. Sənin hansısa qohumun cinayət törədibsə, burada səni suçlamaq olar? Sənin nə təqsirin var? Hamı istəyər ki, qohumu yüksək yerlərdə işləsin, xeyirli işlərlə məşğul olsun, cəmiyyətin sayılıb-seçilən insanlarından olsun. Eləcə də Hüseynbala Mirələmov. Onun qardaşı oğlunun cinayətini ayağına yapışdırmaq doğru deyil. Mən bunu da sovet təfəkkürü sayıram. Sosializm, kommunizmdən imtina etmişiksə, gəlin təfəkküründən də imtina edək".

**İqtidaryönlü Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı da səsləndirilən fikirləri doğru hesab etmir. O deyir ki, H.Mirələmov da Azərbaycan vətəndaşıdır:** "Azərbaycan demokratik ölkədir. Hüseyn müəllimin keçmişi və indiki vaxtında həyatında hansısa xətalar olsa belə, o, öz fikirlərini azad şəkildə ifadə edə bilər. Əkrəm Əylisli "Daş yuxuları"nda xalqımızı təhqir edirsə, bəzi dairələr tərəfindən bu, "söz azadlığı" kimi qəbul edilirsə, Xədicə İsmayıl öz qələmi ilə dövlətimizə qarşı iftiralar atmaqdan çəkinmirsə, bunlara niyə söz və mətbuat azadlığı kimi yanaşılır? H.Mirələmovun keçmişdə nə xətası olubsa, açığı, bilmirəm. Bununla maraqlanmamışam. "Azərbaycan" qəzetini günahlandırmıram. Bir yazıda təhqir, yaxud cinayət yoxdursa, xoşa gələn yazıdırsa, dərc oluna bilər".

❑ **Cavanşir ABBASLI**

# Allah sizə rəhmət eləsin, kimsəsiz ölülər...

## "Kimsəsizlər qəbiristanlığı"ndan reportaj

**Kimsəsizlər qəbiristanlığı... Gözdən uzaq, könüldən iraq bir məkan. Kiminsə yolu buradan keçibsə, yalnız quşların səsi eşidilən sahibsiz lal məzarların qarşısında yəqin ki, ürəyində "iraq olsun" deyib.**

**Kimsəsizlərin son mənzili**

Qaradağ rayonunun ərazisində yerləşən, adı "Qurd qapısı" kimi dillər əzbəri olan qəbiristanlığın bir küncünü zəbt edən bu yeri hamı tanımır.

Yaxınlaşıb, həmin ünvana getmək istədiyimizi deyəndə, sürücülər qaşlarını düyünlədilər, baxışlarından bu oxundu: "Ora haradır?" Bəs biz tanımadığımız və heç vaxt getmədiyimiz yeri necə nişan verəydik?

Nəhayət, uzun-uzadı vurnuxmadan sonra yan aldığımız yaşlı bir sürücü məlumatlı çıxdı və "oturun" dedi...

**Avtopark məzarlıq**

"Qurd qapısı"nın ərazisi böyük olduğu üçün qohumlarını ziyarətə gələnlər avtomobilləri girişdə deyil, məzarların daha yaxınına sürürlər. Ağ və qara mərmərlər, bahalı heykəllər... Yüksəklikdən baxanda şahmat taxtasına bənzəyir.

Xeyli irəlilədikdən sonra qəbiristanlığın sonuna - düzənlik bir sahəyə çatırıq. Sürücü "buyurun, bu da sizin axtardığınız qəbiristanlıq" deməsəydi, avtomobildən düşməyəcəkdik. Mənzil başına, daha doğrusu, kimsəsizlərin son mənzilinə çatmışıq deməli...

**Mixi yazılar**

Buranı sözün hər iki mənasında "Kimsəsizlər qəbiristanlığı" adlandırmaq olar. Nə məzarda uyuyanların, nə də qəbiristanlığın sahibi var.

"İlqar 4615", "Ayaq", "Kolyaqin 10-Qar", "NKM 11. Qar",




"NQM 9"... Siyahını çox uzatmaq olar: bunlar başdaşıları üzərindəki yazılardır. İlk baxışdan insana adi gəlir. Ancaq bura qandonduran, vahiməli bir məzarlıqdır...

Məzarlar arasında məsafə heç yarım metr də deyil. Ot-alaqla örtülmüş bu qəbirlərin arasında gəzəndə diqqətli olmaq gərəkdir. Hər an bir kimsəsizi narahat edə, dərinliyi dizə çatmayan qəbrini dağıda bilərsən.

Başdaşı kimi qoyulan paslı dəmirlər üzərində təbaşirlə yazılmış işarələr eramızdan əvvəlki mixi yazıları xatırladır. Yalnız bir-iki hərfi oxumaq mümkündür. "NKM - naməlum kişi meyiti", "NQM - naməlum qadın meyiti" deməkdir. "Qar", "ey", "Ə.N" və buna bənzər, açması bilinməyən sözləri isə başa düşmək çətindir.

Qəbiristanlıqda yerə səpələnmiş taxta parçaları da var. Hazır düzəldilmiş, boş sahələrə atılmış bu "başdaşı"lar kimsəsizlər məzarlığında sahiblərini gözləyir.

Hətta elə qəbirlər var ki, onların məzar olduğunu hiss etmirsən. Yalnız ayağın harasa toxunanda anlayırsan ki, üstündə olduğun torpağın altında kimsə uyuyur. Bu cür mənzərəni yalnız filmlərdə görmək olar. Kimsə kimisi öldürür, izi azdırmaq, qətlin üstünü bağlamaq üçün harada və necə gəldi dəfn edirlər...

**Ağzını açıb ölü gözləyən qəbirlər**

Yarğana oxşayan məzarların isə sayı-hesabı yoxdur. Yağış sularının qurbanına çevrilən bəzi məzarlarda oyuqlar əmələ gəlib.

Ətrafda heç kim gözə dəymir. Elə bunun nəticəsidir ki, kimsəsizlər kimi sahibi olmayan mal-qara da qəbiristanlığı pis günə qoyub. Məzarların üstündə heyvanların ayaq şəkli də bunu sübut edir. Dərin qazılmayan məzarlarda quşların dimdikləməkdən açdığı oyuqların sayı-hesabı yoxdur.

Yalnız bir məzarın üstündə isə gül-çiçək var. Çox maraqla bunu seyr etdiyimizi görən sürücü "yəqin ki, burada dəfn olunanın kimliyini müəyyənləşdiriblər" deyir.



Avtomobilinə doğru gedəndə isə söyləyir: "Bura çox adam gətirmişəm. Kimisi ölüsünü tapıb, kimisi də məyus qayıdıb".

"Kimsəsizlər qəbiristanlığı"nda sahibinin yolunu gözləyən, qazılıb içinə meyit əvəzinə çör-çöp yığılan məzarlar da az deyil. Səngərə oxşayan bu qəbirlərin kiminsə son mənzili olacağını düşünmək insanı dəli edir. "Bəlkə mən oldum?!" - deyib, üstündən keçmək mümkün deyil. Gözlə-qaş arasında olan əcəl zəngi çalınanda sürətlə şütüyən avtomobilin altında qalıb tanınmaz hala düşə bilərsən və "kimsəsiz" adıyla indi gözünün ucuyla baxdığın yerin sahibinə çevrilərsən. Bu qədər bəsit və dəhşətlidir!




***

"Qurd qapısı"nı tərk edənə qədər yolboyu məzarlar önündə adamlar gözə dəyir. Kimisi məzarın üstündəki alaqları təmizləyir, kimisi su çiləyir, başqa birisi isə yaxınlıqda olan skamyada oturub daşa həkk olunmuş şəkillə söhbət edir.



"Kimsəsizlər qəbiristanlığı"nda isə ölümün şəriksiz tiranlığı hökm sürür: Məşhur filmdə deyilən "Detdom uşaqlarının atası olmur, nəçənnik..." sözü burda yerinə düşür. Bir də... Allah sizə rəhmət eləsin, kimsəsiz ölülər...

❑ **Ramin DEKO**

YENİ MÜSAVAT
N 15 (6043) 23 yanvar 2015




# Bütün varlıq aləminə göndərilmiş rəhmət

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Əziz İslam Peyğəmbərinin (s) mövludunu geridə qoyduq. Bu mövlud - bütün inanclı insanların illik təqvimlərində ən önəmli tarixlərdən biridir. Eyni zamanda, Peyğəmbərimizin (s) dünyaya gəlişinin ildönümünün qeyd edilməsi - etiqadı olan insanları əziz Rəsulullahın (s) mübarək təlimi ilə daha da yaxından tanış etməyə şövqləndirir. Allahdan istəyimiz budur ki, o Həzrətin (s) buyuruşlarını öz gündəlik həyatımızda yaşada biləkk.**

### Əlxaqla etiket arasında fərq var

Həzrət Peyğəmbər (s) özünün göndərilmə missiyasını belə çatdırır: **"Həqiqətən mən əxlaqi kəramətləri kamilliyə çatdırmaq üçün göndərilmişəm".** Əxlaqi kəramətlər barədə geniş şəkildə danışmaq olar. Amma ciddi əxlaq nəzəriyyəçiləri bildirirlər ki, əxlaqi davranışlar o əməllərdir ki, insan onları səadətə, fəlaha, müsbət aqibətə çatmaq üçün realizə edir. Əxlaqi davranış dedikdə ümumilikdə etiket və o cümlədən, bu gün toplumda qəbul olunan davranış etiketi nəzərdə tutulmur. İnsan ola bilər zahirən ədəbli, təvazökar görünsün, amma əslində bu cür olmasın. Ola da bilsin ki, zahirdə gözəl görünən, etiketə uyğun olan davranışlar da əslində qətiyyən əxlaqi olmasın. Etiket ilə əxlaqiyyətin ən ciddi fərqi budur ki, əxlaqiyyətin kökündə mütləq iradəvilik və Allaha xatirlik olmalıdır. Yəni burada meyar dəqiqdir: gözəl əməlin mənşəyində insanın seçimi və İlahi rizayət, Yaradanın razılığına nail olmaq niyyəti durursa, bu, əxlaqi əməldir və belə əməllər sırası insanı fəlaha - həqiqi səadətə çatdırır. Amma əgər insan öz vərdişləri, mühitin təsiri, müəyyən baxışlar ucbatından hansısa əməlləri edirsə, amma bunları şəxsi imic və bu kimi amillərdən motivlənərək edirsə, bu əməl İlahi dərgahda əxlaqi əməl kimi qeyd edilməyəcəkdir. Ola bilsin zahirdə gözəl görünən əməllər insana müəyyən populyarlıq gətirsin, onun müsbət imicinə xidmət etsin; amma bunlar ötəri nəsnələr ucbatından edildiyi üçün, onun aqibəti üçün həlledici rol oynamayacaqdır.

### Zəif ibadətlə necə ali məqamlara yetişmək olar?

İnsanın təkamülünün ən ciddi mühərriklərindən biri elə əxlaqiyyatdır. Həzrət İmam Sadiq (ə) buyurur: **"Günəş buzu əridən kimi, gözəl əxlaq da günahları əridər".**



**İnsanın gözəl əxlaqi davranışları belə bir təsirə malikdir. Həzrət İmam Sadiq (ə) əslində bizləri yaradılış aləmində İlahi qanunlardan biri ilə tanış edir. Əxlaq gözəlləşəndə, günahlar əriyib gedər. Gözəl əxlaq o qədər gücə, işığa, istiliyə malikdir ki, günahları əridib apara bilir. Həzrət Peyğəmbər (s) bu əxlaqi keyfiyyətləri kamilliyə çatdırmaq üçün Uca Allah tərəfindən məbus edilmişdir.**

Həzrət Rəsulallah (s) buyurur: **"Bəndə hərçənd ibadətdə zəif olsa da, özünün gözəl əxlaqı ilə axirətdə böyük dərəcələrə və ali məqamlara çata bilər".**

İnsanlar müxtəlif cürdür. Elə insanlar var ki, rahat şəkildə gününü ibadətlərdə keçirdə bilir, daha çox namaz qılır, oruc tutur, dualar edir. İnsan da var ki, qabiliyyətləri bu cür qabarıq şəkildə işə düşməyib, tutumu fərqlidir. Amma, Həzrət (s) öyrədir ki, insan özünün gözəl əxlaqı ilə də ali məqamlara çata bilər. Allah Təala öz Rəsulunu (s) insanlığa məhz bu keyfiyyətləri inkişaf etdirmək üçün göndərib.

### Rəsulallah (s) tək müsəlmanlar üçün deyil, bütün varlıq aləmi üçün rəhmətdir

Əziz Peyğəmbərimizlə (s) bağlı ən dəqiq təqdimatı Allah Təala Öz Kitabında edir. Rəbbimiz "Ənbiya" surəsinin 107-ci ayəsində buyurur: **"(Ya Muhəmməd!) Biz səni aləmdəkilər üçün yalnız bir rəhmət olaraq göndərmişik".** Allaha Təala buyurur ki, əziz İslam Peyğəmbərini (s) aləmlərə rəhmət olmaq üçün göndərib. Əziz Peyğəmbərimizin (s) aləmlər üçün göndərilməsi, əslində Allahın rəhmətinin ən böyük təzahürüdür. Bəzi təfsiri çalarlara diqqət etsək görərik ki, əslində risalət, nəbilik, Allahın öz elçilərini (ə), xüsusilə də son Elçisini (s) göndərməsi, insanların mükəlləfiyyətini həyata keçirməsi üçün peyğəmbərlərin (ə) göndərilməsi - əslində Allahın böyük bir rəhmətidir.

### Allah öz nəbiləri (ə) ilə rəhmətini insanlığa çatdırıb

Ayənin təfsiri çalarlarına diqqət edəndə həm də Allahın rəhmətinin nübuvvətin fəlsəfəsinin içərisinə daxil olduğunu görürük. İlahi mərhəmət, İlahi rəhmət, Allahın insana olan sevgisinin ən böyük təzahürü - nəbilərin (ə) göndərilməsi olub. Allah Təala bu yolla insanlara öz rəhmətini əta edib, Allahın rəhmətinin həyata keçməsi baş tutub.

Digər tərəfdən görürük ki, ayənin təfsiri çalarlarına əsasən İslam dini İlahi rəhmət üzərində qurulub. İslam təlimi başdan-başa İlahi rəhmət üzərindədir. Madam ki, sonuncu Peyğəmbərin (s) göndərilməsi Allahın rəhmətinin həyata keçməsidir, deməli, Rəsulallahın (s) bütün gətirdikləri də İlahi rəhmət üzərindədir.

Daha bir təfsiri çalar budur ki, Rəsulallah (s) bütün aləmlər üçün Rəbbin göndərilmiş rəhmətidir. Yalnız müəyyən möminlər üçün deyil, müsəlmanlar üçün deyil - bütün bəşəriyyət, ümumilikdə bütün varlıq aləmi üçün Peyğəmbərimiz (s) bir rəhmətdir. Əslində Rəsulallah (s) Allahın böyük bir nemətidir. Həmd olsun Allaha ki, ən azı bu nemət haqqında düşünmək fürsətini bizlərə bəxş edib. Allahdan istəyimiz budur ki, bu nemətin həqiqi şükrünü də yerinə yetirmiş olaq.

### Allahın rəhmətinin sayəsində insanlar birgə yaşayır

Allahın rəhməti fövqəladə məsələdir. Əgər Allahın rəhməti olmasa, bizlər bir an mövcud ola bilmərik. Allahın rəhmətidir ki, bizi hərəkətə gətirir, bizim insani halımızı mövcud edir. Əziz Peyğəmbərimiz (s) buyurur: **"Allah Təala göyləri və yeri yaratdığı gün hər biri yerlə göy arasındakı məsafə qədər olan yüz rəhmət yaratdı. Sonra rəhmətlərdən birini yer üzünə endirdi və həmin rəhmətin səbəbinə yaradılmışlar bir-birinə rəhm edir, ana öz balasına məhəbbət bəsləyir, quşlar və heyvanlar su içir, insanlar bir yerdə yaşayırlar".** Varlıq aləminin, bəşəriyyətin, insanların birgə yaşaması, birgə olması, insanların bir-birinə münasibətində olan rəhmlilik - bütün bunlar əslində İlahi rəhmətin təzahürləridir.

Həzrət Rəsulallah (s) digər bir yerdə buyurur: **"Əgər Allahın rəhmətinin ölçüsünü bilsəydiniz, mütləq ona arxalanardınız".** İnsanın həyatı iki cür ola bilər. Bir cür həyat budur ki, insan həyatını yaşayır və Allaha arxalanır. Bir də var ki, insan Rəbbinə arxalanmadan yaşayır. Allaha arxalanmaq iradəvi bir işdir. Bu arxalanmaq mərifət, tanıma, bilmə, dərk, başa düşmə, eşq, şövq, əməli iradə istəyir. Yalnız nəzəri olaraq bilmək bəs etmir. Bir çox amillər birləşməlidir ki, insan həyatında Allaha arxalansın. Belə deyə bilərik ki, Peyğəmbər (s) və onun pak Əhli-beyti (ə) - Allaha arxalanmağın ən ali nümunələridir. Onlar hər zaman Allaha arxalanıblar, hər zaman Allah onlara kifayət edib, hər zaman Rəbblərindən arxayınçılıqları olub.

Mövzunu daha yaxşı dərk etmək üçün məşhur bir misal var: **"Bir nəfər sıldırım qayadan yıxılıb düşür. Yıxılarkən deyir: "Ay Allah, bu dəfə də məni xilas et, nə desən, edəcəyəm". Bu zaman sıldırım qayalardan birinə ilişib qalır. Səmimi istəyir və düşmə mərhələsində bir yerdə ilişib qalır. Bu vaxt ona ilham gəlir ki, "Yapışdığın yerdən əlini burax". Deyir: "İlahi, mən dedim nə desən edəcəm, daha belə də yox, əlimi buraxsam, axı aşağı gedəcəyəm". Üstündən bir neçə sonra orada donub ölür".** Əgər həmin vaxt əlini buraxsaydı, onu orada saxlatdıran Allah, digər mərhələdə də saxlayacaqdı. Ona köklü mərifət, köklü ruhiyyə, köklü eşq, şövq bəs etmir ki, sonadək Rəbbinə arxalansın. Əgər arxalansaydı, xilas olacaqdı. Arxalanmadığına görə donur. Ona görə də, əgər insanlar Allahın rəhmətinin ölçüsünü bilsələr, mütləq şəkildə Ona arxalanarlar. Bütün həyatda olan streslərin, depressiyaların, bir çox hallarda insanın psixoloji problemlərinin arxasında Allaha arxalanmaması, Rəbbinə təvəkkül etməməsi, Allahın ona kifayət etməsinə lazımı qədər əmin olmaması dayanır. Amma Peyğəmbərimiz (s) buyurur: **"Əgər Allahın rəhmətinin ölçüsünü bilsəydiniz, mütləq Ona arxalanardınız".**

Həzrət İmam Səccad (ə) buyurur: **"Nicat tapan o qədər də təəccüb doğurmur. Əksinə, məhv olan kimsə təəccüb doğurur ki, Allahın bu qədər geniş rəhməti olduğu halda məhv olmuşdur".** Yəni, bir insanın qurtulması, səadətə çatması, nicat tapması təəccüblü deyil. Təəccüblü o hal olar ki, Allahın bu qədər rəhməti ola-ola insan qurtulmasın. Allah Təala insanın qurtuluşu üçün o qədər bəhanələr qoyub ki, insan azacıq səy göstərsə, bir qədər iradə etsə, qurtulması bir o qədər də çətin olmaz.

### Allahın rəhmətini necə qazanaq?

Mübarək dinimiz Rəbbimizin rəhmətini necə qazanmağın yollarını da öyrədir. Allahın Peyğəmbəri (s) buyurur: **"Allahın əmirlərinə itaət etməklə, özünüzü Onun rəhmətinə qovuşdurun".** Necə edək ki, Allahın rəhmətini əldə edək? Necə edək ki, İlahi rəhmətdən bəhrə aparaq? Bunlar Allaha itaət etməkdən keçir. Allahın buyuruşlarını yerinə yetirək, Onun çəkindirdiklərindən çəkinək. Əgər bunları etsək, İlahi rəhmətdən bəhrələnmiş olarıq. Allahın rəhmətinə qovuşmaq - Onun buyuruşlarına əməl etməkdən keçir.

Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Allahın rəhməti Onu yad etməklə nazil olar".** Həzrət Əli (ə) varlıq aləminin qanunlarını bizlərə çatdırır. Allahı yad edəcək, xatırlayacağıqsa, İlahi rəhmət bizlərə nazil olacaq. Əgər İlahi rəhmətin bizə nazil olmasını istəyiriksə, Allahı yad etməliyik. Bu da elə öncəki buyuruşa qayıdır. Əgər Rəbbimizi yad etsək, Onun buyuruşlarını həyata keçirtmiş olarıq və bununla da İlahi rəhmət bizə nazil olar.

Həzrət Əmirəlmöminin (ə) İlahi rəhməti qazanmaq üçün daha bir praktiki tövsiyə verir. Həzrət Əli (ə) buyurur: **"Mehribanlıq göstərməklə Allahın rəhməti nazil olar".** İnsanlar bir-birilərı ilə Allaha görə mehriban davranacaqlarsa, bu zaman onlara İlahi rəhmət nazil olacaq. Müasir bəşər toplumuna bu gün çatmayan ən ciddi məsələ - mehribanlıqdır. Quruluq, qabalıq, kobudluq müasir dünyada ən geniş şəkildə yayılıb. Əgər insanlar bu buyuruşa diqqət etsələr, insanlar arasında mehribanlıq hakim olsa, Allahın rəhməti də o insanların üzərinə nazil olar.

Çox təəssüflər olsun ki, belə bir mübarək Peyğəmbərin (s), varlıq aləminə rəhmət olaraq göndərilmiş Peyğəmbərin (s) bu gün dünyada lazımi qədər təqdimatı olmur. Nəticədə nələr baş verdiyini görürük. Ən ağır, acı imtahanlı dünyada yaşayırıq. Bu gün iki təhlükə ilə üz-üzəyik. Biri budur ki, dırnaqarası dəyərlər, guya dəyərlər adına olan həqarət, əxlaqsızlıq, tərbiyəsizlik nümunələri ilə insanların müqəddəs bildiyi mövzulara təcavüz edilir. İnsanların müqəddəsatına həqarət etməklə özünü ifadə edənlər meydana çıxır. Bu, mənəvi terrorun elə özüdür. Biz fiziki terroru hər zaman pisləmişik, amma mənəvi terror heç də ondan daha yüngül cinayət deyil.

Qəribədir, 1 milyon insan 12 nəfərin fiziki terrorunu pisləməyə çıxıb, ilk sıralarında da dövlət terroru ilə məşğul olan cinayətkar dayanıb. Bu, necə olur? Bir milyon insan fiziki terroru pisləyəmə çıxır, əllərində isə mənəvi terroru həyata keçirən plakatlar olur?! Kimi sadəlövh bilirlər? Bu zaman onlar özləri terroru himayə etmiş olurlar. Biz fiziki terroru pisləyirik. Amma bu gün fiziki terrora qarşı çıxıb, mənəvi terror törətməyin adı yoxdur.

Bu, birinci təhlükədir. Amma müsəlman ümmətinin heç bir narahatçılığı yoxdur. "11 sentyabr" hadisələrindən sonra İslam daha da böyük rövnəq tapdı. Burada da nələr olacaqsa, nəticə olaraq İslam inkişaf edəcək. Özlərini pis hala salırlar, öz dünya və aqibətlərini məhv edirlər.

İkinci təhlükə - daha ciddi təhlükədir. Rəhmət Peyğəmbərinin (s) adına bayraq götürürlər, dediyi şüarları zahirdə rəhbər tuturlar, amma əslində İslama zidd ən alçaq cinayətlər törədirlər. Bu ünsürlər Peyğəmbərimizin (s) dininin tam əksinə işlər görürlər. Təkfirçi-vəhabilik bu anlamda ikinci ən ciddi təhlükədir. Allah Təala ümmətə ayıqlıq nəsib etsin ki, müsəlmanlar bu təhlükəni görə bilsinlər.

**Allahım, bizlərə Öz rəhmətini əta et!**

**Allahım, bizləri Sənin rəhmətini qazandıran işlərə tərəf yönəlt!**

**Allahım, bizləri Sənin rəhmətindən uzaqlaşdıran bütün işlərdən çəkindir! Amin!**

YENİ MÜSAVAT
N 14 (6042) 22 yanvar 2015

# Məhkuma verilən işgəncələr gizlədildi

## Elşad Babayevin ölümünə dair saxta rəy verildi - ürək tutması; qətli ilə bağlı vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlanıb...

**Dekabrın 22-də Penitensiar Xidmətin 14 saylı Cəzaçəkmə Müəssisəsində dünyasını dəyişən məhkum Elşad Babayevin ölüm kazığı yaxınlarına təqdim olunub. Bu haqda "Yeni Müsavat"a məhkumun bacısı Simuzər Babayeva məlumat verib. S.Babayeva qardaşının ölüm səbəbinin saxtalaşdırldığını deyib: "Qaradağ Rayon Məhkəmə Tibb Ekspertizasının eksperti Cavid Əhədov ölüm kağızını mənə verdi. Ölüm kağızında yazıb ki, güya qardaşım ürək tutmasından - kardiomiopatiyadan ölüb. Mənim qardaşımın ölümünə səbəb ona verilən işgəncələrdir, döyülmə zamanı aldığı xəsarətlərdir. Onun ürəyi heç vaxt ağramayıb. Bunu ekspertə dedim. Ondan qardaşımın bədəni üzərindəki xəsarətlərin hansı şəraitdə almasını soruşdum. Ekspertin əlləri əsirdi, cavab verə bilmədi. Bu adamlar qardaşımı öldürənlərin cinayətinə şərik oldular".**



S.Babayeva qardaşının ölümü ilə bağlı bəzi detalları dəqiqləşdirə bilib: "Elşada işgəncəni dekabrın 13-də veriblər. Qardaşım ölümündən 10 gün əvvəl "do prixod" deyilən yerdə döyülüb, işgəncələrə məruz qalıb. Onu orada 10 gün betonun üstündə saxlayıblar. Vəhşicəsinə döyüb ağır vəziyyətə salıblar və orada saxlayıblar. Dekabrın 22-nə qədər qardaşıma çörək bir tərəfə, su belə verməyiblər. Sonradan onu ölümcül durumda "kars"a köçürüblər".

S.Babayeva qardaşının işgəncəyə məruz qalmasını görən məhkumların təzyiq altında olduğunu bildirib: "Bu işə şahidlik etmiş məhkumlara təzyiq edirlər. Azadlığa buraxılanlara da deyiblər ki, danışanları tutub türməyə salacağıq. Azadlığa buraxılan məhkumlara deyirlər ki, olimpiyadaya görə çox adamları həbs edəcəklər. Sizləri də geri qaytara bilərik".

S.Babayeva ekspertin rəyi ilə razı olmadığını, qardaşının ölümünə işgəncələrin səbəb olduğunu xatırladıb: "Döyüb, işgəncə verib Elşadı öldürüblər. Onu döyənlər orada ad çıxarıblar. Nəzarətçilər Firdosi, Faiq, Rahib xüsusi adam döyənlərdir. Bu gün də orada işləyirlər. Rahib məhkumlara işgəncə verdiyinə görə illər öncə bıçaqlanıb. Bu rəyi verməklə məhkəmə tibb-eksperti bu adamların cinayətinin ört-basdır olunmasında iştirak etdi. Amma bilsinlər ki, hər biri etdiklərnə görə qanun qarşısında cavab verəcəklər. Mən qardaşımın qanını yerdə qoyan deyiləm".

**Yada salaq ki, məhkum Elşad Babayevin ölümündən sonra onun meyiti Qaradağ rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb.** Bacısı S.Babayeva orada qardaşının fotolarını çəkib və ictimailəşdirib. İş üzrə araşdırma aparmalı olan istintaq orqanına də həmin fotoları təqdim edib. Yeri gəlmişkən qeyd edək ki, qətldən ötən 1 ay ərzində məhkumun ölümü ilə bağlı hansı maddə ilə cinayət işi başlanılması az qala dövlət sirri kimi gizlin saxlanır. Prokurorluq bununla bağlı sorğulara adekvat olmayan cavablar verməklə mahiyyətdən yayınır. Digər ictimai əhəmiyyətsiz işlərlə bağlı hansı maddə ilə və nə vaxt cinayət işi başlanmasını mediaya ötürən qurum Elşad Babayevin işində çox susqun, həvəssiz görünüb. İndi məlum olur ki, bu səbəbsiz olmayıb. Sorğulara verilən cavabla iş üzrə aparılan araşdırmanın yönü də demək olar ki, fərlənmir. Gizlədilən maddə Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşmadır. Elşad Babayevin işgəncələrlə öldürülməsini Qaradağ Prokurorluğunda məhz belə qiymətləndiriblər.

**Ədliyyə Nazirliyinin saytında yer alan Cinayət Məcəlləsində bu maddə belə təqdim olunur:**

309.1. Vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda-

min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə , əmlakı müsadirə olunmaqla üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Prokurorluq orqanının bir məhkumun döyülərək, işgəncə verilərək öldürülməsinə yanaşması ölkənin cəzaçəkmə yerlərində yeni qanlı cinayətlərə yol açacağı şübhəsizdir.

❑ E.MƏMMƏDƏLİYEV




# "Asan xidmət"də bıçaqlanma olub?

## 1 saylı ofisdə görünməmiş təhlükəsizlik tədbirlərinin bu səbəbdən həyata keçirildiyi deyilir; xidmətdən isə xəbərin doğru olmadığı deyilir

**1 saylı "Asan xidmət" mərkəzində (Həsən Əliyev 36 ünvanında yerləşən) görünməmiş təhlükəsizlik tədbirləri görülür. Bu haqda "Yeni Müsavat" qəzetinə oxuculardan biri məlumat verib. Onun sözlərinə görə, sözügedən "Asan xidmət" mərkəzinə daxil olmaq istəyən vətəndaşların üst-başı ciddi şəkildə yoxlanır, yalnız bundan sonra içəri buraxılırlar. Bu, "Asan xidmət" mərkəzi yaranandan ilk belə haldır. Vətəndaşlar yoxlamaların səbəbini soruşduqda isə bildirilib ki, burada hər zaman belə yoxlamalar həyata keçirilir.**

Ancaq indiyədək "Asan xidmət"ə yolu düşmüş hər bir kəsə məlumdur ki, bu xidmətə giriş-çıxış sərbəst olub, xüsusi təhlükəsizlik tədbiri görülməyib. Məlumatı redaksiyaya verən oxucunun məlumatına görə, təhlükəsizlik tədbirlərinin hansı məqsədlə həyata keçirildiyini araşdırdıqda belə məlum olub ki, təxminən bir həftə öncə ofisdə bıçaqlanma hadisəsi baş verib. Bir vətəndaşın "Asan" əməkdaşı ilə mübahisəsi bıçaqlaşma ilə yekunlaşıb. Zərərçəkən isə "Asan xidmət" əməkdaşının olduğu deyilir. Hadisə mətbuatdan gizlədilsə də, mərkəzdə təhlükəsizlik tədbirləri gücləndirilib.

Redaksiyaya verilən məlumatı dəqiqləşdirmək üçün Daxili İşlər Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Ordan bildirildi ki, qurumda bu haqda informasiya yoxdur.

1 saylı "Asan xidmət" mərkəzinin yerləşdiyi Nərimanov rayonunun Polis İdarəsindən də zənglərimizə cavab verən olmadı.

**"Asan xidmət" mərkəzinin informasiya təminatı şöbəsinin rəhbəri Anar Hüseynov** bildirdi ki, mərkəzdə yoxlama tədbirləri artıq bir neçə aydır ki, davam edir və bıçaqlanma hadisəsi ilə bağlı xəbər həqiqəti əks etdirmir: "Bu tədbir sadəcə təhlükəsizlik məqsədilə həyata keçirilir. Çünki gün ərzində 2000-dən artıq vətəndaş "Asan xidmət"ə müraciət edir. Bu yoxlama tədbirləri bizdə bir neçə aydır tətbiq olunur və "Asan xidmət"in bütün mərkəzlərində eyni qaydada aparılır. Bizim mərkəzlərdə insanların üzərində metal əşya olub-olmamasını yoxlayan cihaz quraşdırılıb və bu işi mərkəz əməkdaşları deyil, Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin əməkdaşları həyata keçirir. Ancaq hansısa vətəndaşın "Asan xidmət" işçisini bıçaqlaması ilə bağlı xəbər həqiqəti əks etdirmir və belə bir hadisə baş verməyib".

❑ Nərgiz LİFTİYEVA

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- *Əla tələffüz və güvənlə danışmaq*
- *Real ingiliscə söhbətlər*

BONUS english EXPLOSION *dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Başsağlığı**

**Müsavat Partiyası Cəlilabad rayon təşkilatı Akif Bədirli, Əlimahirbəy Meydanlı, Əlipənah Rzalı, Hidayət İsmayılov, Hacı Məmmədova bacısı Tofiqə xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 15 (6043) 23 yanvar 2015

# Lamiyə Quliyevanın saxlandığı "zon"un eks-rəisindən sensasion açıqlama

## Müzəffər Məmmədov: "Bu xəbər qəzetdə çıxandan evdə dava-qırğındır. Ailəm dağılır"

**Qadınlar üçün nəzərdə tutulan 4 saylı cəzaçəkmə müəssisəsində məhkum Lamiyə Quliyevanın ana olması aranı qatıb. Penitensiar Xidmətdən məsələni araşdırdıqlarını deyirlər. Lakin "uşağın atası kimdir" sualı açıq qalır. Baş prokurorun keçmiş müavini, Sosial Ədalət Partiyasının sədri Mətləb Mütəllimli moderator.az-a açıqlama verərək müəssisənin eks-rəisi Müzəffər Məmmədovun adını hallandırıb. M.Məmmədovu arayıb onun mövqeyini öyrəndik. M.Məmmədov bu məsələdə adını hallandıranları məhkəmə ilə hədələyib. Deyib ki, 2005-ci ildən 2010-cu ilə qədər müəssisədə rəis olub:**



- 2011-in fevralında yaşa görə təqaüdə çıxmışam. Mən oradan çıxanda qurban kəsmişəm.

***- Niyə qurban kəsirdiz?***

- Qadınlarla işləmək həddən artıq çətindir. Birinin xətrinə dəyirsən, gedib saçını yolur, özünü doğrayacağı ilə hədələyir. "Detski" ilə "Jenski" kalonlar çox çətin yerdir. Ora quş quşluğu ilə girə bilməz. Bu, mümkün deyil. Mənim orada nə işim var? 65 yaşım var. Həmin xəbər qəzetdə çıxandan evdə dava-qırğındır. Ailəm dağılır.

***- Sizin 5 illik rəisliyiniz dövründə Lamiyə Quliyevanın yanına kimlər gəlib gedirdi?***

- Mən nə bilim

***- Siz orada rəis olmusunuz...***

- Mən rəis olanda anası gəlirdi.

***- Qardaşı gəlirdi?***

- Qardaşı gəlmirdi. Əmisi və ya xalasının oğlu 1-2 dəfə gəlmişdi.

***- Ola bilər ki, bir qadın ancaq qadınların saxlandığı və kişilərin girişi yasaqlanan müəssisədə ana olsun?***

- Vallah bunu Lamiyə özü deyə bilər. O kalonda mümkün olan şey deyil. Orada hər yer kameradır. Hər yerə giriş "propusk"ladır. Qadınlar hamısı balaca bir yerdə yaşayırlar. Orada nəyinsə baş verməsi qeyri-mümkün söhbətdir.

***- Məlumatlardan belə aydın olur ki, həmin müəssisədə rəis və 2 müavini güclü cinsin nümayəndəsidir. Düzdür?***

- Bəli. Orada 3 kişi var. Amma bu o demək deyil ki, kişilər namuslarını çölə atıblar. Oradakıların əksəriyyəti o kişilərin qızlarından balacadır.

***- Hazırda müəssisənin rəisi kimdir?***

- Vallah tanımıram.

***- Müavinləriniz oradadır?***

- Yox, müavinlərim də çıxıb işdən.

***- Lamiyə Quliyevanı necə xarakterizə edərdiniz?***

- Çətin tərbiyə olunan məhkum idi.

***- Nə mənada deyirsiniz?***

- Rejimə düzgün riayət etmirdi.

***- Nədə ifadə olunurdu pozuntu?***

- Yuxudan vaxtında qalxmırdı, yeməyə vaxtında getmirdi. Deyirdi ki, məni niyə buraxmırlar? Məni qanunsuz tutublar. Ona izah edirdim ki, məhkəmə var, vaxtın çatanda üçdə birə, üçdə ikiyə təqdim edəcəyik.

***- Təqdim etmişdiz sənədlərini?***

- Yox.

***- Niyə?***

- Vaxtı çatmamışdı.

***- Lamiyə Quliyeva 2003-də həbs olunub, 2013-də azad edilməli idi. Vaxtı çatmırdı?***

- Ona 2-ci cinayət işi açdılar.

***- Niyə?***

- Nəzarətçi ilə dalaşmışdı.

***- Belə məlumatlar var ki, Aslan Aslanov ora gəlib, Lamiyə Quliyeva ilə görüşüb, onun gözü qarşısında qadına qarşı nalayiq hərəkətlər olub. Nə dərəcədə doğrudur bu məlumatlar?***

- Mənim dövrümdə belə hal olmayıb.

***- Başqa adamlar da gəlməyib?***

- Mənim dövrümdə belə şey olmayıb.

***- Lamiyə Quliyevanın nişanlısı var, Vüqar. O, ədliyyə nazirinə müraciət etməklə nişanlısı ilə uzunmüddətli görüş ala bilərdi?***

- Xeyr. Bu, qanunla qadağandır. Onunla uzunmüddətli görüşə atası, anası, qardaşı, bacısı gələ bilər. Qısamüddətli görüşə isə yaxın qohum-əqrəbası gələ bilər.

***- Müəssisədə nəzarətçilər qadındır?***

- Bəli.

***- Əsgərlər müəssisəyə daxil ola bilər?***

- Xeyr. Onlar qüllədə dayanıb ancaq perimetrə nəzarət edirlər.

***- Demək olar ki, onların "zon"a girməsi mümkün deyil?***

- Əsgər ora girə bilməz. Bu, mümkün deyil.

***- Niyə?***

- Ona görə ki, icazə yoxdur.

***- İcazə yoxdur ayrıdır, girə bilməz ayrı...***

- 5 il orada işləmişəm, ora əsgər girməyib. Girə də bilməz. Çöldə nəzarətçi, içəridə nəzarətçi var. Rəis heyəti bütün günü oradadır. Əsgər ora girə bilməz.

***- Deyirsiniz ki, nəzarətçilər qadınlardır, əsgərlər içəri girə bilməz. Bəs Lamiyə necə ana olub?***

- Vallah onu, hər halda özü deyə bilər. Desə yaxşıdır... Desin nətəhər olub, nə fason, harada olub?

***- Siz onunla, digər məhkumlarla görüşürdünüz?***

- 2010-cu il fevralın 10-da oradan çıxmışam, ondan sonra ora yaxın da getməmişəm.

***- Ora, müəssisəyə Lamiyənin yanına kiminsə girməsinə şərait yaradıla bilərdi?***

- Yox, bu mümkün deyil. Hər yan kameradır.

***- Həmin kameraların yaddaşı nə qədər saxlanır?***

- Onu mən deyə bilmərəm.

***- Qanunla həmin yaddaşlar nə qədər saxlanılmalıdır?***

- Deyə bilmərəm.

***- Qadın məhkumların ana olmasına qanunda qadağa var?***

- Əgər məhkumun qanuni əri varsa, heç bir problem yoxdur. Kənar şəxslərin ora gəlməsi qeyri-mümkündür.

***- Lamiyənin nişanlısı Vüqarın onunla görüşü mümkündür?***

- Vüqar gəlsəydi belə Lamiyə ilə görüşə bilməzdi. Çünki nikah haqda şəhadətnamə olmalıdır. Vüqar Qobustan Qapalı Həbsxanasındadır və onun gəlməsi mümkün deyil.

***- Lamiyənin bu arada məhkəməyə aparılması, İstintaq Təcridxanasına köçürülməsi halı olub?***

- Mən işdən çıxandan sonra 1 dəfə məhkəməsi olub. Amma harada olub, nə vaxt olub, harada qalıb bunu mən deyə bilmərəm.

***- Qadın məhkumlara yaxınlarının yas mərasimlərində iştirakına icazə verilir?***

- Yox, elə bir qayda yoxdur. Mümkün deyil.

***- Sizin bu işlə bağlı təxminləriniz necədir?***

- Onu özü deyə bilər kiminlə əlaqədə olub. 100 faiz əminliklə deyirəm ki, bu işin baş tutması "zon"da qeyri-mümkündür.

***- Deməli, "zon"dan kənara çıxarılıb?***

- Mən bilmirəm o, "zon"dan kənar harada olub. Deyə bilmərəm Kürdəxanıda *(Bakı İstintaq Təcridxanasını nəzərdə tutur - E.M.)* olub və ya məhkəmədə olub.

**❑ E.MƏMMƏDƏLİYEV**







# Qayınata əvvəl gəlinini, sonra özünü öldürdü

## Bakıdan Şirvana əməliyyat-istintaq qrupu göndərilib

**Şirvan şəhərində dəhşətli qətl hadisəsi baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, Şirvan şəhərinin Rəsulzadə küçəsində tikintisi hələ başa çatmamış, amma yaşayış olan 15 saylı mənzildə Balakişiyeva Sevinc Məmməd qızı və onun qayınatası Kişiyev Araz Babayar oğlu başı kəsilmiş vəziyyətdə tapılıblar. Hazırda hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerindədir.**

"Yeni Müsavat"a daxil olan məlumata görə, Bakıdan Şirvana Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin əməkdaşlarından ibarət əməliyyat-istintaq qrupu göndərilib. Olayla bağlı hazırda bir neçə versiya diqqətdən keçirilir. Versiyalardan birinə görə, A.Kişiyev gəlinini öldürəndən sonra özünə qəsd edib. Gəncədən olan S.Balakişiyeva A.Kişiyevin oğlu ilə bir müddət əvvəl internet üzərindən tanış olub. Ailəli olan Kişiyevin oğlu mənzil kirayələyərək S.Balakişiyeva ilə də yaşamağa başlayıb. Bu isə A.Kişiyevin qəzəbinə səbəb olub və belə bir cinayət törədib.

Meyitlər aşkar ediləndən sonra istintaqçılar qadının həyat yoldaşını arayıb tapa bilmirlər. Bu isə digər ehtimalın meydana çıxmasına əsas yaradıb - cinayət qadının həyat yoldaşı tərəfindən törədilib. Ehtimal edilir ki, qadınla atasının münasibətlərindən xoşlanmayan Kişiyevin oğlu qətl törədib və qaçıb gizlənib.

Hazırda araşdırmalar davam edir.

**❑ E.HÜSEYNOV**


**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**








**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

N 15 (6043) 23 yanvar 2015



# 109 yaşlı qadın uzun həyatın sirrini açıqladı - ərə getməyin!

Şotlandiyanın ən qoca qadını uzunömürlülüyün sirrini açıqlayıb. Bu barədə lenta.ru saytı "The Daily Mail"ə istinadən xəbər verib. Cessi Qellen adlı qadının yanvarın 2-də 109 yaşı tamam olub. O deyib ki, çox yaşamaq üçün çoxlu südlü sıyıq yemək və kişilərdən uzaq dayanmaq lazımdır. Heç vaxt ərdə olmayan qadın deyib ki, kişilər özləri ilə birgə gətirdikləri problemlərə dəymirlər: "Hesab edirəm ki, uzun yaşamağımda daimi məşqlər, gündəlik bir qab sıyıq və ərdə olmamağım böyük rol oynayıb".

Qadının yaşadığı qocalar evinin əməkdaşı Rebekka Stritter danışıb ki, yaşlı qadın bütün tədbirlərdə aktiv iştirak edir, məşqlərə gedir, konsertlərə qatılır. Bundan başqa, 109 yaşlı qadın hər bazar günü kilsəyə də gedir.

# Arvadı işə gedən kimi... evi buldozerin qabağına qatdı

Amerikanın Nyu-York ştatında bir kişi arvadı işdə olanda evini buldozerin qabağına qatıb. Bu barədə ABC telekanalı xəbər yayıb. Ceyms Reyn adlı şəxs yanvarın 19-da ekskavator kirayələyib, ondan sonra da özü evi söküb. Polisdən isə bildirilib ki, Reyn xuliqanlıqda ittiham olunub, ev isə qəza vəziyyətindədir. Ərazinin sahibəsi, əsəbi kişinin arvadı Diana Andrişak isə deyib ki, onlar bu evdə 9 ildir ki, yaşayırlar: "Mənim əşyalarımı aparmayıblar. Evə gələndə bu mənzərəni gördüm, ərim də artıq polisdə idi".

Andrişak deyib ki, ərinin bu hərəkətinə heç bir məna verə bilmir: "Mən ondan zarafatla soruşdum ki, evimizi yıxmaq istəyirmi. O da dedi ki, "bəli, düşünür". Mən düşündüm ki, o, zarafat edir, sonra da işə getdim".

# Nəbzi olmadan yaşayan ilk və tək insan

Çexiyanın paytaxtı Praqada yaşayan keçmiş yanğınsöndürən Jakub Halik (37 yaş), dünyada nəbzi olmadan 6 ay boyunca yaşayan tək insan olaraq tibb tarixinə keçib. Ötən ilin aprel ayında ürəyindəki şişə görə xəstəxanaya aparılan və ürəyi iki mexanik qan cihazı ilə dəyişdirilən Halik tam 6 aydır nəbzsiz yaşayır.

Halikin vəziyyətinin 6 aydır yaxşı olduğunu açıqlayan həkimlər deyir ki, hər 5-10 ildə onun bədənindəki qan dəyişdirilməlidir. Maraqlıdır ki, nəbzi olmadan yaşayan ilk insan - texaslı Craig Levis 2011-ci ildəki əməliyyatından bir neçə həftə sonra həyatını itirmişdi.



# Pilotlar niyə havada yatır?

Avropalı pilotlar birliyi tərəfindən aparılan araşdırma zamanı müəyyən olunub ki, Avropada hər 3 pilotdan biri uçuş əsnasında ən azı bir dəfə pilot kabinəsində yatır. Araşdırma zamanı Avropa səviyyəsində 6 mindən çox pilota iş əsnasında nə qədər yorulduqları ilə əlaqədar suallar verilib. İngiltərədə pilotların 43 faizi, Danimarkada 50 faizi, Norveçdə 53 faizi, İsveçdə isə 54 faizinin uçuş əsnasında ən azı bir dəfə istəmədən də olsa yatdığı üzə çıxıb. İngiltərədə isə pilotların üçdə biri oyandıqları vaxt həmkarlarını da yatmış halda tapdıqlarını deyirlər. Pilotlar isə vurğulayır ki, uzunmüddətli səfərlər, hava limanında gözləyərək keçən vaxt, gecə uçuşlarına görə uzun müddət yuxusuz qalırlar. Almaniyada isə hər 5 pilotdan 4-ü həddindən artıq yorğunluq səbəbi ilə uçuş əsnasında səhvlər etdiyini söyləyib. İsveçdə bu nisbət yüzdə 71, Norveçdə isə yüzdə 79 -dur.





# 300 dişli, 2 metrlik qədim akula tapılıb

Avstraliyalı balıqçılar qədim akula tapıblar. Bu barədə news.com.au saytı xəbər verib. Onu tutan balıqçılardan biri deyib ki, akula olduqca qorxunc olub: "Bu, məhz o növdəndir ki, yatmazdan əvvəl uşaqlara göstərmək olmaz".

Akulanın uzunluğu 2 metr olub. Balıqçılar onun ağzında 25 sırada yerləşən 300 diş tapıblar. İlk dəfə bu qorxunc növ akula 1879-1881-ci illərdə tapılıb. 600-1000 metr dərinliyə baş vura bilən akula daha çox Atlantik və Sakit okeanda olur. Əsasən kalmarla qidalanır. İnsan üçün hər hansı təhlükə təşkil etmir. Akulanın həmiləliyi 3.5 il davam edir. Bu balıq növü 95 milyon il öncə peyda olub. O, eyni zamanda həm ilana, həm də akulaya bənzəyir. Mövcud olduğu zaman ərzində akulanın xarici görünüşündə hər hansı dəyişiklik baş verməyib.




QOÇ - Günə yeni planlarla başlamalısınız. Amma ulduzlar məsləhət görür ki, bütün qlobal planlarınızda məxfiliyə riayət edəsiniz. Yalnız bu halda günün ovqatı sizi qane edəcək. Uzaq yola çıxmağa dəyməz.

BUĞA - Nahara qədər bir çox sahələrdə diqqətsizliyiniz ucbatından problemlərlə rastlaşa bilərsiniz. Bu səbəbdən də bütün məsələlərdə ayıq-sayıq olmalı, lazım gəldikdə məsləhətlərdən yararlanmalısınız.

ƏKİZLƏR - Sevgi münasibətlərində mövcud olan passivliyinizi aradan qaldırmağa çalışın. Qarşı tərəfə güzəştə gedin. İş gününün sonunda şəxsi büdcənizi artırmaq imkanı qazanacaqsınız. Özünüzü soyuqdan qoruyun.

XƏRÇƏNG - Sizin üçün xüsusi bir gündür. Çünki bu gündən kosmik fon xeyrinizə dəyişəcək. Deməli, digər bürclərlə müqayisədə sizi daha şanslı və perspektivli günlər gözləyir. Buna hazır olun.

ŞİR - Daxili sıxıntılarınızı dəf etmək üçün bir qədər təmiz havada olun. Lazımsız informasiyalarla özünüzü yükləməyin. Əgər fəaliyyət istiqamətində yeni təkliflər alsanız, razılıq verməyə tələsməyin.

QIZ - Bu günün planetar mənzərəsi xeyrinizə işləyəcək. Bununla da siz şanslılar sırasına düşəcək, uğurlar silsiləsinin başlanğıcına yetişəcəksiniz. Gün ərzində yalnız bu barədə düşünməlisiniz.

TƏRƏZİ - Səbrli olmaq, bir qədər məxfilik nümayiş etdirmək yaxşı olardı. Çünki bu gün ovqatınızı aşağı sala bilən adamlarla rastlaşa bilərsiniz. Saat 15-19 arası pul əldə etmək şansınız çox böyükdür.

ƏQRƏB - Səhər saatlarında azacıq gərginliyiniz olsa da, bu, tez ötüb keçəcək. Əslində bu əlamətdar təqvimdə gərək özünüzü toparlamağı bacarasınız. Çünki günortaya doğru sevindirici olaylar başlayacaq.

OXATAN - İxtiyarınızda olan bu təqvimdə hüquqi sənədlərlə, maliyyə-bank əməliyyatları ilə bağlı bütün yarımçıq işlərinizi başa çatdırmalısınız. Bunu bacarsanız, ayın sonuna qədər ovqatınız çox yüksək olacaq.

OĞLAQ - Tələsik qərarlar, riskli vədlər verməyin. Əslində bu gün siz ətrafınızda olan insanların mahiyyətini, onların sizə sədaqətliliyini yoxlamalısınız. Axşam saatlarında soyuqdəymədən qorunmalısınız.

SUTÖKƏN - Bürcünüzün Göy qübbəsində tam oturuşması şanslarınızı xeyli artıracaq. Hətta baş verən situasiyalarda iştirakınızdan asılı olaraq bugünkü ovqatınız bütün ilboyu davam edə bilər.

BALIQLAR - Saat 13-ə qədər tamamlanması mümkün olan bütün işləri başa çatdırın. Sonrakı müddətdə isə Göy qübbəsinin sizin üçün hazırladığı sürprizlərə hazır olmalısınız. Tənqidi təhqir kimi qəbul etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 12 barmağı var, amma özünə iş tapa bilmir



48 yaşlı indus Vicey Sinqhin unikal qabiliyyəti var. Anadangəlmə 12 barmaq olan Vicey kompüterdə 1 dəqiqədə 100-dən artıq söz yığa bilir. Lakin o, vətəni Hindistanda stenoqrafçı işi tapa bilmir. Türkiyə mətbuatının xəbərinə görə, Vicey 50-dən artıq şirkətə üz tutsa da, hər yerdə ona rədd cavabı veriblər.

"Bütün şirkətlər gözəl qadınları işə götürmək istəyirlər. Zahiri görünüşündə qüsurlar olsa da, əsl peşəkar adamları kimsə işə götürmək istəmir" deyə, Vicey Sinqh gileylənib.

Vicey Sinqh polidaktiliya xəstəsi olan insanlar arasında nadir hal sayıla biləcək bacarığa malikdir, çünki o, 12 barmağının hamısını elə idarə edir. Vətənində iş tapa bilməyən Vicey Sinqh Britaniyaya yollanaraq orada bəxtini sınamaq qərarına gəlib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.